Ə.S.BAYRAMOV, Ə.Ə.ƏLİZADƏ

**Ali məktəblər üçün dərslik**

«ÇİNAR-ÇAP»
BAKI - 2002

**Az2**
**B19**

**Dərsliyə psixologiya clmləri doktoru. professor M.Ə.Həmzəyev, psixologiya elmləri namizodləri dosent İ.Ə.Seyidov və doscnt C.A.Təhmasib rəy vermişlər.**

***Respublikamın ali ın.tkt.ıh tələbələri iiçün "Psixologiya" dərsliyinin bu nəşrinin çap olunması iiçün xeyirxah köməyinə görə müəlliflər əziz və mehriban dostumuz və həmkarımız psixologiya elmləri namizədi VAQİF ƏBDÜLHÜSEYN oğlu HÜSEYNOVA öz dərin minnətdarlığını bildirir və bu xeyirxah əmək müasir dövrdə psixologiya elminin tərəqqisi üçün çox önəmli hcsab edirlər.***

**Ə.S.Bayramov, Ə.Ə.Əli/adə. B19 Psixologiya. Ali məktəblər üçün dərslik. Bakı,**
**"ÇİNAR-ÇAP" Nəşriyyat-Poliqrafiya müəssisəsi, 2002, - 620 s.**

**Dərslikdə «Psixologiya» proqramına (Bakı, 1998) müvafiq olaraq psixologiya elminin mövzusu və vozifəlori, insan şəxsiyyətinin quruluşu və inkişafı, idrak prosesləri vo onlann tənzim olunması problcmləri, insanın fərdi psixoloji xiisusiy-yətlori, ünsiyyət psixologiyası, psixoloji yardım mosələlori şərh olunur.**

**Dorslik ali məktob təlobələri üçün nozərdo tutulur. Ondan müəllimlər vo torbiyecilor, idarəctmo müəssisələrinin işçiləri, elocə do insan psixologiyası problcmlori ilə maraqlanan bütün oxucular istifadə edo bilorlor.**

п 0303010000-000 122
**© "MAARİF", 1989 €> "ÇİNAR-ÇAP", 2002**

Əziz oxucu, gəlin azca səmimi söhbət edək. Bilirəm deyəcək-sən ki, biz necə səmimi söhbət edo bilərik, axı siz məni tanımırsı-nız, mən do sizinlo görüşməmişəm, bəs onda bizim aramızda necə söhbət ola bilər?

## *ÖN SÖZ*

Sizinlə razıyıq, onda gəlin xəyalən bir-birimizə sual verək və ona bir-birimizin əvəzindən cavab vcrək. İlk sualı clə biz vermək istərdik: yaxın dostlarını, qohumlarını yaxşı tanıyırsanmı? Cavab verməyə tələsmə, bilirəm deyəcəksən ki, necə yəni tanımıram? Əlbəttə, tanıyıram. Onda bir sual da verək. Heç elə an olubmu ki, çox yaxşı tanıdığın, yaxından bələd olduğun adamdan elə hərəkət, elə rəftar və davranış görəsən ki, ona təəccüblənəsən, bunu ondan gözləmədiyini etiraf edəsən? Deyəsən belə hallarla az rastlaşmamısan? Onda, deməli, belə çıxır ki, yaxşı tanıdığın adamlar da birdən tanınmaz olur.

Dcyərsən nə olsun ki, bu adi haldı və hər kəsin başına gələ bi1ər, o cümlədən də mənim! Elə bizə də bu etiraf lazımdır. Yəni, deməli, bizim hər birimizin ilk nəzərdə yaxından tanıdığımız, ona yaxından bələd olduğumuz bu və ya digər şəxs müəyyən hallarda (Məsələn, əlinə yaxşı pul keçir, yaxud müəyyən vəzifə sahibi olur, lazımı yerlərlə yaxşı əlaqə yarada bilir və s.) tanınmaz olur, tamamilə başqalaşır. Bəs, bunun səbəbi üzərində düşünmüsənmi, yaxud, həmin şəxsdən belo bir dəyişikliyi gözləyirdinmi? Əgər göz-ləyirdinsə bu nə ilə əlaqədardır, yox, əgər gözləmirdinsə, bəs bunu necə izah etmək olar? Gəl, hələ həmin suallara cavab verməyə tələsməyək, çünki onlarla bağlı başqa suallar da meydana çıxacaq.

Bəs, özünə necə, kifayət qədər yaxşı bələdsənmi? Burada bilirəm, deyəcəksən artıq biz ağ elədik! «Necə yəni özümü tanımıram?» Yaxşı, gəl əsəbləşmə, özünlə bağlı ikicə «kiçik» sual verək: əvvəla, elə anlar olubmu ki, heç özünün də nə istədiyini bilmirsən? Yaxud, «adi bir məsələni» həll etməkdə aciz qalırsan, bilmirsən nə edəsən, nədən başlayasan? Deyəsən, öz aramızdı belə anlar olur. İkincisi, özün öz intellektini, xarakterini, qabiliyyətlərini, digər keyfiyyətlərini dəqiq surətdə təyin edə bilirsənmi?

Etiraf edək ki, burada bir az məsələ qəlizləşdi. Bilirik yaxşı halda deyəcəksən ki, mən onu necə təyin edə bilərəm, o sahədə

3 mütəxəssis deyiləm ki! Yox, onun üçün mütəxəssis olmaq lazım deyil, sadəcə olaraq bir elm sahəsi var ki, ona yaxından bələd olsan nəinki yaxın adamlar, dost və tanışlar, ətrafdakı insanları yaxşı tanıya bilərsən, onların xasiyyətinə, mənəvi aləminə yaxından bələd olarsan. Hələ bu harasıdır, ən başlıcası, sən özünü yaxşı tanıyarsan, özünün mənəvi və psixi keyfıyyətlərinə

asanlıqla bələd olarsan, həm də onları tənzim və idarə etməyin, lazımi istiqamətdə inkişaf etdirməyin yollarını öyrənərsən. Bu hələ harasıdır? Həmin elmə kifayət qədər bələd olsaq nəinki öz dostlarımızı, yaxın adamlarımızı, münasibətdə olduğumuz şəxsləri, hətta başqa etnosları, yəni başqa xalqları və millətləri də yaxşı tanımış olarıq.

Belə bir elm, məhz psixologiyadır. Həmin elmə müasir səviyyədə bələd olsaq öz işlərimizi, münasibətlər sistemimizi daha optimal surətdə qura bilərik.

Lakin təəssüf ki, bizim belə bir möcüzəli elm sahəsinə bələdliyimiz çox aşağı səviyyədədir. Adicə bir misal gətirək. Televizorla müxtəlif ölkələrə məxsus teleserial kinolar göstərilir, orada insanın halətində və ya şəxsiyyətlərarası münasibətlərdə bir anlaşılmazlıq və ya dolaşıqlıq nəzərə çarpan kimi, hətta mətbəx qadını belə ilk növbədə soruşur: psixoloqa müraciət etmisinizmi? Bəs, bizde necə, nəinki mətbəx qadını, hətta, aidiyyəti olan nazirlik və ya idarə səviyyəsində hər hansı mürəkəb psixoloji məsələnin həllində belə psixoloqa müraciət etmək və ya ondan məsləhət almaq heç kəsin yadına düşmür. Bunu isə elmin lazımsızlığı ilə deyil, həmin şəxslərin, yüngül desək, səriştəsizliyi ile izah etmək olar. Məsələn, elə götürək təbliğat işini. Təbliğatı təşkil edənlər insan psixologiyasından cüzi də olsa baş çıxarsalar onda eyni bir informasiyanı, eyni şəkildə, döno-dönə təkrar etməzlər, çünki bu, insanlarda «bumeranq effekti» (əks təsir) yaradır. Bu sahədə lazımi səmərə əldə etmək üçün adekvat psixoloji forma taparlar. Elə idarəetmə işi də onun kimi. Bəziləri burada təzyiq və qorxutmanı əsas götürür-lər. Halbuki bu da əks effekt verir. Hamınızın çox rastlaşdığı bir sahəni də xatırlatmaq yəni həkim-xəstə münasibətini yada salmaq da yerinə düşərdi. Etiraf etmək lazımdır ki, bir çox həkimlərimizin psixoloji səriştəsizliyi, nə qədər müasir dərmanlardan istifadə etsələr də, xəstələrimiz üçün acınacaqlı nəticə verir. Yüzlərlə belə misallar saymaq olar. Elə buna görə də inkişaf etmiş ölkələrdə psixologiya elminin mövqeyi, tamamilə, bizimkindən seçilir. Təsadüfi deyildir ki, bir çox ölkələrdə hər bir ailənin də öz psixoloqu var.
Xüsusən də rəhbərlik və idarəetmə işlərində, müxtəlif çətinliklərlə bağlı sarsıntı və stress halları keçirən adamlara psixoloji yardım göstərmək üçün həmin elmin nailiyyətlərindən və mütəxəssis psixoloqların məsləhətlərindən geniş miqyasda istifadə edilir.

Deməli, insanın psixoloji xüsusiyyətlərinə yaxından bələd olmaq, fəaliyyət və ünsiyyət prosesində onu düzgün nəzərə almaq nəinki müasir mütəxessis - mühəndis, həkim, jurnalist, hüquq işçisi, zabit, rəhbərlik və idarəetmə sahəsinin işçiləri, xüsusən də müəllim və tərbiyəçilər üçün vacib olduğu kimi, insanla münasibətdə olan hər bir şəxs üçün də eyni dərəcədə zəruridir.

Nəzərə almaq lazımdır ki, psixoloji bilik yalnız insanları tanımaq, onlara təsir etmək yollarını müəyyənləşdirmək, insanlar arasında qarşılıqlı münasibətləri tənzim etməklə məhdudlaşmır. Bu həm də insanların potensial imkanlarından səmərəli istifadə etmək, onun idrak fəallığını, ümumən fəaliyyətini optimallaşdırmaq kimi vacib problemi də əhatə edir.

Pedaqoji fəaliyyət bu cəhətdən xüsusilə fərqlənir.

Şagird və tələbələrin mənəvi dünyasına nüfuz etmək, onların qabiliyyətlərinin inkişafını düzgün istiqamətləndirmək müəllimdən nəinki böyük sosial məsuliyyət, həm də çox ciddi psixoloji fəhm tələb edir. Belə bir fəhm isə körtəbii surətdə yaranmır. Müəllimdə belə ümumilikdə peşə keyfiyyəti müasir elmi psixoloji biliklərə dərindən yiyələnmək sayəsində təşəkkül edə bilər.

Zaman və şərait ciddi surətdə dəyişilmişdir. Müasir dövrdə psixologiya elmində praktik məsələlərin şərhinə xüsusi ehtiyac yaranmışdır. Buna görə də respublikanın ali məktəbləri üçün nəzərdə tutulmuş yeni proqram əsasında hazırlanmış dərslikdə ümumi, sosial, yaş və pedaqoji psixologiyanın əsas məsələləri ilə yanaşı, rəhbərlik və idarəetmə, hüquq və etnik psixologiya məsələlərinə, xüsusən də praktik psixologiya və şəxsiyyətin psixoloji problemlərinə, psixoloji korreksiya məsələlərinin şərhinə də müəyyən yer verilmişdir. Bu da insan şəxsiyyətinə bir tam yanaşmağa imkan verir və psixoloji biliklərin tətbiqi əhəmiyyətini daha da artırır, yəni psixoloji biliklərin praktik istiqamətini gücləndirir. Bununla da elmin praktik həyata nüfuz etməsi imkanları artmış olur.

Elə buna görə də dərslik yenidən işlənərək oraya psixologiya elmləri namizədi, dosent R.F.Ibrahimbəyovanın hazırlamış olduğu aşağıda qeyd olunan mövzular müvafiq bölmələrə əlavə edilmişdir: «İnsan və siyasət, yaxud siyasətə qoşulmanın başlıca motivləri»,
«Psixikanın ehtiyatları», «Psixi sağlamlıq», «Emosional stress və psixosomatik xəstəliklər».

«İdrak və fəaliyyətin daxili tenzimi» fəslini, eləcə də «Təfəkkür» fəslindən: «Təfəkkür və məsələ həlli», «Təfəkkürün növləri», «Ağlın keyfiyyətləri» bölmələrini isə psixologiya elmləri namizədi Vaqif Hüseynov hazırlamışdır.

Bir cəhəti də nəzərə almaq lazımdır ki, psixologiya elmi çox çətin bir elm sahəsidir. Bu onun obyektinin, xüsusən də onun öyrəndiyi problemlərin, yəni insanın mənəvi dünyasının, ruhi aləminin, ümumən psixi hadisələrin mürəkkəbliyi, çoxcəhətliliyi və də-yişkənliyi ilə əlaqədardı. Təsadüfi deyildir ki. Albert Eynşteyn kimi dahi bir alim bir psixi prosesin əmələgəlmə mexanizmi barədə psixoloq Jan Piajenin izahatını dinlədikdən sonra: «Ax, psixologiya elmi nə qədər də çətindir!» - demişdir.

Müəlliflər elmin çətinliyini nəzərə alaraq məsələləri sadə elmi dildə şərh etməyə, hər bir psixoloji anlayışın məzmununu daha anlaşılan şəkildə çatdırmağa səy etmişlər.

Bunun üçün dərslikdə əsas psixoloji terminlərin lüğəti mənası aydınlaşdırılmış, məqsədli illüstrativ materiallardan, şəkil və sxemlərdən geniş istifadə olunmuşdur.

Bu məqsədlə onlar həyati misallara, bədii ədəbiyyat materiallarına geniş yer verməklə yanaşı, yeri gəldikcə, mürəkkəb prob-lemlərin dioloji şərh üslubundan gcniş istifadə ctmişlər.

Dərslikdə bu və ya digor psixoloji problemin şərhi ilə olaqodar inkişaf ctmiş ölkələrdo psixologiya elmi və praktikasının nailiyyət-ləri yığcam şəkildə öz oksini tapmışdır. Yəni kursun başlıca məso-lələri ən yeni nəzəri və eksperimental tədqiqatlar, eləcə də clmi-metodik ədobiyyat (dərsliklər, dərs vəsaitləri vo s.) osasında şərh olunur.

«Psixologiya» respublikamızda ali məktob təlobəlori üçün yeni proqram əsasında yazılmış vo ycnidən işlənib hazırlanmış osas dərslikdir. Öz faydalı təkliflori, irad vo moslohotləri ilə onun daha da təkmilloşməsino kömək edəcok xeyirxah oxuculara müollillər qabaqcadan öz minnətdarlığını bildirirlər.

## T HİSSƏ

## PSİXOLOGİYA ELMİNİN VƏ PSİXOLOJİ PRAKTİKANIN MÖVZUSU VƏ VƏZİFƏLƏRİ

## I F Ə S İ L PSİXİ HADİSƏLƏRİN MAHİYYƏTİ

### 1. Psixologiyanın predmeti

Müasir dövrdə insanı 200-dən artıq elm sahəsi öyronir. Onlar-dan biri psixologiyadır. Digər elmlərdən forqli olaraq psixologiya noyi tədqiq edir? Bir elm kimi onun başlıca xüsusiyyotlori nodon ibarətdir? Homin suallara cavab vermok üçün, ilk növbədə, psixologiya elminin obyektini və predmetini (mövzusunu) aydınlaşdır-maq lazımdır.

Elmin obyekti dedikdə, onun tədqiq etdiyi real gerçəklik nəzər-do tutulur. Bu baxımdan heyvanlan və insanı öyrənən müxtəlif clmlərin (anatomiya, biologiya, neyrofiziologiya, təbabət və s.-nin, o cümlədən psixologiyanın) obyekti eynidir.

Elmlər bir-birindən, adətən, öyrondikləri obyckto göro deyil, prcdmetlorinə (mövzularına) görə fərqlonir. Hər bir elmin, o cüm-lədən, heyvan və insanı öyrənən elm saholərinin özünəməxsus ay-rıca predmeti (mövzusu) vardır.

Elmin predmcti dedikdə, onun öz obyektindən ayırd etdiyi, seç-diyi cəhətlərə hansı baxımdan, hansı nozəri vo ya praktik aspektdo yanaşması nəzərdə tutulur. Elmin predmeti onun öz obyccktinə ya-naşnıa torzini, başqa sözlə, tədqiqat metodlarını müəyyən edir və müvafıq anlayışlar sisteminin kömoyilə şorh olunur. Psixologiya elminin prcdmetıni nə təşkil cdir? Daha konkret dcyilsə, psixologiya elmi nəyi öyrənir?

Psixologiya elmi qədim tarixo malikdir. Psixoloji anlayışlar sistem şoklində ilk dəfə Aristotelin (eramızdan əvvəl IV osr) «Ruh haqqında» məşhur traktatında şorh olunmııışdur.

Traktatın adına diqqət cdin: o, psixologiya dcyil, «Ruh haqqın-da» adlanır. Bu, tosadüfı dcyildir. Uzıın müddət (XIX osrin sonları-na qədər) psixologiya elmi folsəfəyə (və ilahiyyata) aid fənn hesab olunmuşdur. Avropa ədəbiyyatında bəzən onu mental («mental» -
latin sözü olub, psixi olan deməkdir) fəlsəfə, ruhiyyat, pnevmatolo-giya (pnevma - yunan sözü olub, nəfəs, ruh deməkdir) adlandırmış-lar. XVIII əsrin sonuna qədər psixologiya sözü nə ingilis, nə də fransız ədəbiyyatında işlənilməmişdir. Alman ədəbiyyatında isə psixologiya sözü ensiklopedist alim Xristian Vol fun (1679 - 1754) 1734-ci ildo «Empirik psixologiya» və 1734-cü ildə «Rasional psixologiya» kitablan nəşr olunandan sonra məlum olmuşdur. XVIII əsrin sonu - XIX osrin əvvəllərindon başlayaraq psixologiya termini Amerika, Avropa və rus ədəbiyyatında vətəndaşlıq hüququ qazanmış və böyük cvristik əhəmiyyət kəsb etmişdir. Azərbaycan-da psixologiya termini XIX əsrin sonu - XX əsrin əvvəllərində rus psıxoloqlarının əsorləri vasitəsilə işlənilməyo başlanılmışdır.

[_Psixologiya termini iki yunan sözündən - «psyuxc» - ruh, ruhi aləm, - «loqos» - bilik, öyrənmək, elm sözlərindən əmələ gəlmiş-dir, «psixika haqqında elm» deməkdir. Psixologiya termini evristik baxımdan elmin predmetini dəqiq ifadə edir: psixologiya psixika haqqında clmdir. Bu ilk (və ən sadə) tərifdə cəmi 4 söz işlənsə də, onun mənası hələ tam aydm deyildir. Psixologiyanın predmetini başa düşmək üçün biz əvvəlcə əsas anlayışla - psixika anlayışı ilə tanış olmalıyıq. Psixika anlayışına nəlor daxildir? Psixika nədir? Psixi hadisələri şərti olaraq üç böyük qrupa bölürlər:

1. Psixi proseslər.
2. Psixi hallar (və ya psixi halətlər, vəziyyətlər). 3^ Psixi xassələr (və ya xüsusiyyotlər)

T P s i x i p r o s e s l ə r psixologiya elminin əsas kateqori-yälarından biridir. tdrak proseslərinə (duyğu, qavrayış, diqqət, ha-fızə, təfəkkür, nitq və təxəyyül), iradi proseslərə və emosional pro-seslərə birlikdə psixi proseslor deyilir.

Başqa sözlə, psixi proseslər özlori də üç yarım qrupa bölünür: idrak prosesləri, hissi proseslər və iradi proseslər.

Psixi hadisələrin ikinci qrupunu təşkil edən p s i x i h a l l a r və ya voziyyətlər do müxtəlifdir. Şən əhval, affcktlor, ehtiras-lar, dalğınlıq, inamsızlıq, şübhə və s. psixi hallara misal ola bilər.

P s i x i x a s s ə l ə r do psixologiya elminin kateqoriyala-п içərisində mühüm yer tutur. Temperament, xarakter və qabiliy-yətlər əsas psixi xassəlordir. İnsanın onun üçün səciyyəvi olan əq-li keyfiyyətlorini (ağlın tənqidiliyi və ya müstəqilliyini), emosional xassəlorini (tez özündon çıxma, emosionallıq) və s. də psixi xassə-lərə aid edirlər.



Psixi proseslər, hallar və xassələr bir-birilə üzvi surətdə əlaqə-dardır. Onlardan biri, adətən, o birisinin osasında əmələ gəlir. Psixi halətlər və ya vəziyyətlər ayп-ayп psixi proseslərin, məsələn, əhvallar, affektlər hisslərin, dalğınlıq diqqətin, iradənin, şübhə tə-fəkkürün təzahürü kimi özünü göstərir. Onlar isə möhkomlənib bir adamı başqasından fərqləndiren psixi xassə kimi təzahür edə biləny

«Proses», «hal» və «xassə» nə deməkdir? Nə üçün duyğulan, qavrayışı, diqqəti, hafızəni, təfəkkürü, nitqi və təxəyyülü, iradəni və hissləri psixi proses adlandırırlar. halbuki şübhəni və ya dalğın-lığı psixi hallar, temperament, xarakter və ya qabiliyyətlərə psixi xassəlor deyilir?

Proses latin sözü olub, hər hansı bir hadisənin başlanması, ge-dişi və inkişaf mərhələlərini əks etdirir. Bu baxımdan bütün psixi hadisolər - istər psixi proseslər, istərsə də psixi hal vo xassələr prosessual xarakter daşıyır. Məsələnin bclə qoyuluşuna diqqəti ilk dəfo olaraq görkəmli rus alimi İ. M. Scçcnov cəlb etmişdir.

Onun fikrincə, psixi olan, ancaq proses kimi dərk oluna bilər. Yəni hor bir psixi aktın «müəyyən başlanğıcı, gedişi vo sonu» var-dır. Psixologiya bu cohoti zəruri surətdə nəzəro almalı, «psixi fəa-liyyətin bütün cohotlərini proses, hərəkət anlayışı» əsasında izah etməlidir. Psixi olan, hər şeydən əvvəl, canlı, plastik, fasiləsiz tə-şokkül vo inkişaf edən proses kimi mövcuddur. İnsanın real fəaliy-yotini (daha geniş mənada həyat fəaliyyətini) ancaq bu baxımdan düzgün və hərtərəfli təhlil etmək olar. Bu sözlər nəinki psixi pro-seslərə, həm do eyni dorocodo psixi halların və xassələrin öyrənil-məsinə də aiddir.

Gəlin, nəzərdən keçirdiyimiz tcrminlorin monasını doqiqloşdi-rək: klassik psixologiya ancaq duyğuları, qavrayışı, diqqəti, hafızə-ni, təfəkkürü, nitqi, təxəyyülü, iradəni və hissləri psixi proses kimi xarakterizo edirdi.

Müasir psixologiyada isə proses sözü əslində geniş və dar mənalarda işlənir. Biz g c n i ş m ə n a d a psixi olanı proses kimi nəzərdən keçirəcək, bütün psixi hadisələri (psixi proscslər, hallar və xassələri) eyni doroco proses kimi təhlil cdəcəyik.

D a r m ə n a d a isə psixi proses dedikdo duyğu, qavrayış, diqqət, hafizə, təfəkkür, nitq, təxəyyül, iradə və hissləri nəzərdə tutacağıq.

Deməli, psixi proses ənənəvi termindir. Müasir psixologiyada



psixi proses, hallar ve xassəlor terminlərinin hor birinin özünəməx-sus evristik monası vardir.

P s i x i p r o s e s termini psixi faktın prosessuallığmı, di-namikasını nəzərə çaфdırır. Misal: əlimo tikan batdı. Ağrı duyğu-su omole gəldi. Ağrı davam ctdi ve müoyyən müddətdon (10 sani-yədon, 5 dəqiqədən, bir ve ya bir nece saatdan) sonra kesildi.

P s i x i h a 1 ə t tennini psixi faktın nisbi davamlılığını bil-dirir. Misal: tolobo qız küçodə yoldaşları ilə şit horəkot edirdi. Bir də gördü ki, omisi o biri küçədon kcçir. o, - utandı ve tcz özünü yı-ğışdırdı. Ancaq hiss ctdi ki, emisi onun küçədə şit hərəketini gör-dü. Qızın no isə qanı qaraldı ve bu bir пeco gün davam etdi.

P s i x i x a s s e v ə y a p s i x i x ü s u s i y y e t termini isə psixi faktın sabitliyini, onıın şəxsiyyətin strukturunda möh-kemlondiyini vo tokrar olunmasını ifado cdir. Misal: iki şagird tə-səvvür edin. Biri tonboldir, digori oməksevordir. Biri otıırduğu yer-don ayağa qalxmaq istomir, o biri isə işdon doymur. Yaxud, biri sa-kitdir, digəri coşğundur, biri iinsiyyətli, digori isə qaradinməzdir. **/Fşixi** proseslor, psixi hallar və psixi xassolərin hamısına birlik-




**IIdrak proses 1 ori:** **duyğqlar qavrayış diqqot hafizo tofəWcür nitq**

***Psixi proseslər*** ***Psixi xassəhr***

**təxəyyül II tradi proseslor HI Emosional proseslor**

**ohvallar aflektlər dalğınlıq inam inamsızlıq şübhə və s.**

**temperament xarakter qabiliyyotlər vo s.**

**Şəkil 1. Psixi proseslər, psixi hallar vo psixi xassolər.** 

də psixika ve ya psixi hadisələr deyiliry 1 №-li şəkildə bu cəhət öz əksini tapmışdır.

Psixi həyat çoxcəhətlidir, lakin vehdetdodir. Şəkil l-o diqqet-lə baxin: psixi proses, halot ve xassələrin adlan ilə tanış olarken is-tər-istəməz, adamın yadma,

tutaq ki, nəqliyyat cədvelləri düşür, orada stansiyalann adları belə qeyd olunur: Bakı, Keşlə, Biləcəri, Hcybət ...Burada bir forqə diqqət edek. Her stansiyanın öz sərhəd-di, öz hüdudu vardır.

Bakı stansiyası qurtanr, Keşlə stansiyası başlayır, Keşlə stan-siyası qurtarır, Biləcəri stansiyası başlayır ve s. Görəsen, psixi hə-yat da bu prinsiplə qurulmuşdunnu? Qətiyyən yox. Psixi proses, halət və xassələr bir-birilə üzvi surətdə bağlıdır. Eyni bir anda biz həm duyuruq və qavrayırıq, həm diqqətli oluruq, həm də başa dü-şür və yadda saxlayırıq. Biz onları ancaq abstraksiya yolu ilə bir-bi-rindən fərqlondirib təhlil edirik.

Psixologiya heyvanların və insanların psixikasını öyrənir. Mü-asir psixologiyada insanı fərd (bioloji varlıq) vo şəxsiyyət (sosial varlıq) kimi nəzərdən kcçirirlor. İnsanın bir ford və şəxsiyyət kimi xüsusiyyətləri onun psixi proseslorindo. psixi hallarında vo xassə-lorində bütün təfərrüatı ilo eks olunur. Məsələn, kinli adamın təsa-düfən ayağını tapdalayırsan, əvəzini çıxmaq üçün az qala bunu ömür boyu yadında saxlayır; xcyirxah adamın ayağını tapdalayır-san, əhəmiyyət vcrmir, elə oradaca yadından çıxır. Kinli və xeyir-xah adam. Bunlar insanın şəxsiyyoti ilə bağlı xüsusiyyətlərdir. Tə-sadüfi deyildir ki, müasir psixologiyada bu problemlərin öyrənil-məsinə xüsusi əhomiyyot vcrirlor. Hal-hazırda şoxsiyyət psixologiya elminin on aktual problemlərindən birinə çevrilmişdir.

Nəhayət, bir məsələni aydınlaşdıraq: psixi proseslor, hallar ve xasseler necə təzahür edir və formalaşır? Bu suallar müasir psixologiya üçün prinsipial əhəmiyyəto malikdir.

Psixoloqların tədqiqatları osaslı surətdə göstərir ki, psixika fe-aliyyot (yoni oyun, telim ve omek) ve ünsiyyot proscsindo forma-laşır.

Dcmeli, psixologiya elmi hem do fəaliyyət ve ünsiyyətin psixoloji problcmlerini öyrenir.

Beləliklə, aydın olur ki, psixologiya elminin predmeti mürək-kəb ve çoxcohotlidir. Onu sxematik olaraq 2-ci şəkildəki kimi ifa-de ctmek olar.






**Psixi I**
**xassələr**

**Şəkil 2. Psixologiya clminin öyrəndiyi saholər.**

Psixika fəaliyyət və ünsiyyət prosesində müxtəlif formalarda tozahür cdir. Onlann mahiyyəti nədon ibarətdir? Bu sual psixologiya elminin fəlsəfi problcmləri ilə əlaqədardır.

## 2. Psixi hadisələr obyektiv aləmin subycktiv inikası kimi

Ta qədimdən psixika haqqında iki təlim - materialist və idealist təlim vardır. Psixologiyanın bir elm kimi inkişafı əsasən materialist təlimin inkişafı ilə bağlı olmuşdur.

Həmin fəlsəfəyə görə p s i x i k a o b y e k t i v a 1 ə - m i n s u b y e k t i v i n i k a s ı n d a n i b a r ə t d i r .

Golin, evvəlcə «obyektiv aləm» terminınə diqqət edək. «Ob-yektiv» sözü «obyekt» sözündən omələ gəlmişdir. Obyekt (latınca - obyectum) cisim, predmet demokdir. Psixologiyada «obyekt» sö-zünün özürıəməxsus monası var: insanın fəaliyyət prosesində bila-vasitə iş gördüyü, təsir göstərdiyi cisimlərо «obyckt» deyilir. «Ob-yektiv» sözü isə fəlsəfi termindir. Onun başlıca mənası bundan iba-rətdir: predmetlor, subyektdən kənarda və ondan asılı olmayaraq mövcuddur. Fəlsofədə «obyektiv alomi», «obyektiv reallığı» gös-lərmək üçün materiya kateqoriyasından istifadə olunur.

Inikas - materialist idrak nəzəriyyəsinin əsas prinsipidir. İnikas nədir? - İnikas materiyanın ən ümumi xassəsidir. İnikas dc dikdə, iki obyektin qarşılıqlı təsiri prosesi və onun noticəsi no/or-

12 də tutulur. Bu zaman həmin obyektlərdən birində əmələ gələn də-yişikliklor o birinin təsiri ilə şərtlənir və sonuncunun strukturuna uyğun olur. Gəlin fıkrimizi çox sadə bir misal - güzgü misalı əsa-sında izah edək. Tutaq ki, A (hər hansı bir adam) saçmı düzəltmək üçün V-yə (güzgüyə) baxmalıdır. V-nin qarşısında dayananda, onun V-də oksi (şokli) alınır. Bu, mexaniki inikasdır, lakin bunun-la belə inikas üçün səciyyəvi olan ən ümumi xüsusiyyətlər həmin misalda da aydın nəzərə caф1r. Onları aydınlaşdıraq.

1. Əgər A olmasaydı V-də onun əksi alınardımı? Aydın məsə-lədir ki, əks olunan, yəni A - birincidir, əks edən, yəni V-dəki şə-kil ikincidir.

2. Əks edənlə əks olunan arasında səbəb asılılığı mövcuddur. A, məsolən, sağa dönəndo V-doki şokil də dəyişir.

3. V-dəki şəkil A-ya oxşayırmı? Bəli, oxşayır. Bu, o deməkdir ki, əks edənlə əks olunan arasında oxşarlıq mövcuddur. Onlardan biri digərinin surətidir, şəklidir, obrazıdır. (Fəlsəfı ədəbiyyatda bu cəhəti təhlil cdərkən adckvatlıq, izomorfizm vo homomorfızm ter-minlərindən istifadə olunur.)

Görəsən, obyektiv aləm insanm da başında güzgüdə olduğu kimi əks olunurmu? Nəzordən keçirdiyimiz xüsusiyyətlər inikasın bütün formaları üçün

səciyyəvidir, lakin cansız təbiətdə, bitkilər aləmində, heyvanlarda və nəhayət, insanlarda inikas kcyfıyyətcə müxtəlif formalarda özünü göstərir.

Güzgü misalı mexaniki inikasa aid misaldır. Cansız təbiətdə inikas passiv xarakter daşıyır: cansız aləmdə bir cisimdə o birisinin təsiri ilə əmələ gələn dəyişikliklərdən cisimlərin özləri istifadə et-mirlər. Canlı alemdə isə onlardan artıq özünü hifzetnıə, özünü tən-zimetmə məqsədilə istifadə olunur. Sinir sisteminin yaranması və təkamülü ilə birlikdə sözün əsl mənasında psixi inikas əməlo gəl-məyə və inkişaf etməyə, orqanizmin otraf mühitə bolədləşməsin-do və öz davranışını tonzim etmosindo mühüm rol oynamağa baş-layır.

Yəni psixika xüsusi surətdə təşəkkül ctmiş materiyanın xassə-sidir. Bir mühüm cəhətə diqqət edin: psixika materiyanın substan-siyası (latınca - substantia mahiyyət deməkdir) deyil, xassəsidir. Həm də hər cürə materiyanın deyil, ancaq xüsusi surətdə təşkil olunmuş, yəni üzvi materiyanın - beynin xassəsidir.

Deməli, yüksək teşkil olunmuş materiyanın xassəsi, beynin

13 funksiyası olmaq etibarilə psixika inikasın xususi formasi kimi mcydana çıxır.

Beyin müxtəlif üzvlərin clə mürəkkob sistcmidir ki, onlann fə-aliyyəti ali heyvanların və insanın psixikasım şərtləndirir.

Psixika reflektor (latınca reflexus - əks olunan deməkdir) xarakter daşıyır.

Biz hər hansı bir cismi qavrayanda və ya nə barədə isə düşü-nəndə burada hansı sinir hüceyrəlorinin iştirak etdiyini adəten hiss etmirik. Bundan başqa, neyrofızioloji proseslor psixi proscslərdə təmsil olunmurlar, yəni bizim başımızda əmələ gələn surətlərdə neyrofızioloji proseslor deyil, cisim və hadisəlorin xüsusiyyətlori -rəngi, forması, həcmi, başqa cisim və hadisələrlə qarşılıqlı olaqəsi və s. əks olunur. İdealistlor həmişo bu faktdan istifadə edorək psixi hadisələri cisimsiz (yəni beyinlo olaqosi olmayan) hadisələr kimi xarakterizo etmiş, xüsusi cisimsi/. ruhi aləmin mövcud olduğu-nu irəli sürmüşlər. Lakin bu idealist fıkirlərin səhv olduğunu başa düşmək çox asandır: beyində zədəlonmə olan kimi psixi həyat da dərhal pozulur. Bu fakt empirik surətdə insanlara çoxdan molum-dur. El içində deyirlər ki, uşağın başına vurmazlar. Bu təsəvvürlər nə qədər bosit olsa da, psixikanın beyin xassəsi olduğunu əks etdi-rir.

Psixika haqqında elmi tosəvvürlorin formalaşmasında tobiət-şünaslıq mühüm rol oynamışdır.

1. Müasir təsəvvürləro görə, psixi funksiyalar beyin sahələri-nin birgo işi sayəsində həyata keçirilən funksional sistemlor (P. K. Anoxin) kimi fəaliyyət göstərir. Onun sistem təşkil edən mərkozi aınili işin noticosi və ya meqsədi ilə bağlıdır. Bu zaman beyindo baş verən müxtəlif proseslor funksional cəhətdən məhz işin noticosi və ya məqsədi ilə uzlaşırlar.

2. Psixi inikasın iki tərəfi - mezmun və forması vardır. Tutaq ki, xarici tuı istlor Qız qalasına heyran-heyran tamaşa cdirlər. Gəlin, bu proscsi yuxarıda tanış olduğumuz işarəlarlo ifadə edək:

A (Qız qalası) V-yə (turistlərə) tosir göstərir: Qız qalasına bax-dıqca, onlarda bu abide haqqında müəyyən təəssürat yaranır. Biri dcyir ki, «bu çox orijinal abidədir», başqa birisi deyir: «mən dün-yanın çox ölkosində olmuşam. Belə ozomətli Qız qalası görməmi-şəm» və s. Bu o deməkdir ki, Qız qalası müəyyən psixi proseslor şəklində turistlorin başında əks olunur. Qarşıya sual çıxır: psixi inikasın (bizim misalımızda turistlərdo Qız qalası haqqında yaranan

14 təəssüratın) mozmununu no toşkil edir? Bu sualın cavabı aydındır: turistlərdə yaranmış təəssüratın mozmununu Qız qalası abidəsi təş-kil edir. Əgər bu faktı ümumiləşdirsək, aşağıdakı nəticoni çıxara bilərik: psixi inikasın mozmununu obyektiv aləm təşkil edir. Lakin biz bu prosesi birtərəfli şəkildə təhlil ctsək (A - V-yə təsir edir), inikasm mozmununu (yəni A-dan asılı olan cohətlori) onun forma-sından (yəni V-dən asılı olan cəhətlərdən) təcrid etmiş olarıq.

Yenə do yuxarıdakı misala qayıdaq: tutaq ki, turistlərdən biri riyaziyv. , ıüəllimi, o birisi isə mcmardır. Görəsən, Qız qalasına baxarkən onların hor ikisində eyni təəssürat yaranacaqmı? Şübhə-siz ki, memar xüsusi biliklərə malik olduğu üçün Qız qalası abido-sində riyaziyyat müəllimindən çox şey görəcək, çox xüsusiyyət forqlondirəcəkdir. Biz psixi inikasın xüsusiyyətlərini təhlil cdər-kən, bu cəhəti пeco nəzərə ala bilərik?

Psixologiyada tanış olduğunıuz faktı ifado etmok üçün subyekt anlayışından istifadə olunur. Subyekt dedikdo obyektiv aləmi dərk edən və dəyişən insan nozərdə tutulur. İnsan özünün həyat fəaliy-yoti prosesindo subyekt kimi formalaşır və inkişaf cdir. İnsanm hə-yat fəaliyyətinin əmok, idrak və ünsiyyət kimi müxtəlif sahələri vardır. Bu mənada psixologiyada insan əmək, idrak və ünsiyyət subyekti kimi öyrənilir. İnsanın iş gördüyü müxtəlif cisimlorlə, yəni obycktlərlə qarşılıqlı əlaqəsi nəzərdən keçirildikdə subyekt anlayışından istifadə olunur və bu əlaqə subyekt (S) və ob-yekt (O) olaqosi kimi təhlil olunur.

Gəlin. indi də «subyektiv inikas» ifadəsinə diqqət yetirək. «Subycktiv» sözü «subyekt» sözündən omələ golmişdir. Onun psixoloji mənası aydındır: obyektiv alom kimin başında oks olunur? -Subycktin. Məsələnin mahiyyəti ondan ibarotdir ki, psixi inikas mexaniki inikasdan (güzgü misalını xatırlayın) köklü surətdə fərqlonir: mexaniki inikasdan fərqli olaraq obyektiv aləm insanın başında oks olunur, həyat fəaliyyoti subyekti kimi onun bütün özü-nəmoxsus insani xüsusiyyotləri - təlobatları, maraqları, hoyal möv-qeyi vo s. psixi inikas proseslərində bu və ya digər dərəcədə təza-hür edir. Bu o deməkdir ki, p s i x i k a o b y e k t i v a 1 ə -min s u b y e k t i v i n i k a s ı d ı r .

Subyektivlik psixikanın ümumi xarakteristikasıdır. Deməli, psixi inikasın subyektiv xarakter daşıdığını qcyd **edende,** onun məzmunu (psixikanın mozmununu obyektiv alom teşkil edir) deyil, cərəyan etmə forması nəzərdo tutulur.

Beləliklə, aydın olur ki, 1) psixika beynin xassəsidir; 2) psixika obyektiv aləmin subyektiv inikasıdır.

Bu iki müddəa bir-birilo üzvi şəkildə bağlıdır. Onları birlikdə aşağıdakı kimi ifadə edə bilərik: p s i x i k a b e y i n d ə o b y e k t i v a l o m i n s u b y e k t i v s u r ə t i k i m i ə m ə 1 ə g ə 1 i r .

Gəlin, indi də yuxarıda tanış olduğumuz sadə tərifı (psixologi-ya-psixika haqqında elmdir) bu baxımdan nəzərdən keçirib dəqiq-ləşdirək. Onda aşağıdakı tərif alınar: psixologiya beyində obyektiv alomin subyektiv suroti kimi əmələ gələn psixika haqqında elmdir.

Bu tərif birinciyə nisbəton dəqiqdir, lakin biz onu hələ osas torif kimi qəbul edə bilmorik. Nə üçün? Tanış olduğumuz tərifdə psixikanın mahiyyəti dəqiq ifadə olunsa da, psixologiyanın predmeti ümumi şəkildə qeyd edilir. Qarşıya haqlı olaraq sual çıxır: psixologiya psixikanın hansı cəhotlərini öyrənir? Bu məsələni ay-dınlaşdıraq. Tutaq ki, auditoriyanın qapısını kimsə qəfıldon açdı. Bu zaman bəzi toləbəlorin diqqoti asanlıqla yayınır. Onlar qapını açan adama baxırlar. Yaxud qız sevdiyi oğlanı görəndə utanır: ya-naqları qızarır, çaşır, sözləri aydın tələfmz edə bilmir... Bunlardan hər biri ayn-aynlıqda psixoloji fakt hesab olunur. Hər hansı bir elm, пeco deyərlər, faktsız, fakt yığmadan yaşaya bilməz. Lakin, bununla belə, qeyd etmək lazımdır ki, elm üçün bütün faktlar eyni dorocodə ohomiyyotli deyildir. Elm öyrənilən hadisələrin mahiy-yətinə nüfuz etmək imkanı verən faktlarla əməliyyat aparır. Psixologiya elmində psixi həyatı keyfiyyət və kəmiyyət cəhətdən xarak-terizə edən yüzlərlə faktlar müəyyən edilmişdir. Deməli, psixoloji faktı biz hom keyfiyyət, hom də kəmiyyət baxımmdan xarakterizə edə bilərik. Yuxarıdakı misalı xatırlayaq: tutaq ki, qapı açılarkon tələbələrdən A və B-nin diqqoti yayındı. A bir saniyə qapıdakı adama baxıb mühazirə dəftərindəki yarımçıq qalmış cümləni davam etdirməyə başladı. B isə, пeco deyərlər, işini-gücünü buraxıb xey-li müddət (mosələn, 10 saniyə) həmin adama baxdı. A-nın diqqəti-nin 1 saniyo, B-nin diqqətinin iso 10 saniyə yayınması müvafiq psixoloji faktın kəmiyyət xaraktcristikasıdır. Lakin təsəvvür etdiyimiz psixoloji faktlar keyfiyyət cəhətdən də bir-birindən fərqlənirlər: məsələn, A-nın diqqoti ani yayınsa da, o, özününəzarətlə müşayiət olunur. B-do isə diqqətin nəzarət funksiyası zəif olduğuna görə o, mühazirə şəraitində asanlıqla başqa cismə yönəlir. Bu, haqqında danışdığımız psixi faktın keyfiyyət xarakteristikasıdır.

Göründüyü kimi, psixoloji faktı kəmiyyət cəhətdən xarakteri-zo edondo, adətən, insanın hər hansı bir qıcığa ncçə milli saniyə ər-zinda cavab verdiyini, bu və ya digər əməliyyatı neçə saniyə ərzin-də icra etdiyini, neçə səhvə yol verdiyini və s. nəzərə alırlar. Əgər biz hər hansı bir psixi prosesin xüsusiyyətlorini aydınlaşdınnqsa, bu, psixi faktın keyfıyyət xarakteristikasını əks etdirir.

Psixoloji faktın müəyyən olunmasının əhəmiyyəti böyükdür. Əbəs yerə demirlər ki, fakt alimin qanadıdır. Lakin bununla yana-şı, psixoloji fakt no qədor mənalı olursa-olsun, elm təkcə onları təs-bit və təsvir etməklə məhdudlaşa bilməz. Elm onları izah etməli-dir. Fikrimizi korrektura sınağı adlanan metodika ilə apanlmış bir tədqiqatın materiallanna əsasən aydınlaşdıraq.

Tədqiqat 12 yaşlı normal və oliqofren (yunanca - oliqoş - az, phren - ağıl sözlorindən əmələ gəlib ağıldankəm deməkdir) uşaq-lar üzərində beş seriyada aparılmışdır.

Birinci scriyada uşaqlara motbəədə çap olunmuş bir səhifəlik mətn verilmişdi. Mətn monasız «sözlərdən» ibarət idi. Uşaqlara mətni oxumaq təklif olunmuşdu: onlar hər dəqiqədən bir siqnal ve-riləndə, həmin saniyədə baxdığı «s» və «v» hərflərinin üstündə işarə qoymalı idilər.

Tədqiqatın nəticəsində məlum oldu ki, oliqofrenlər nəzərdən keçirilon sətirlorin miqdarına görə normal uşaqlardan gcri qalır və daha çox sohvo yol verirlər.

Tədqiqatın ikinci seriyasında uşaqlara mənalı mətn - kiçik he-kayo verildi. Onlara birinci scriyada olduğu kimi, motni nəzərdən keçirmək və siqnal vcrildikdo «s» və «v» hərfləri üzərinə işarə qoymaq tapşırıldı.

İlk baxışda nə qədər toəccüblü görünso do bu zaman əks notice alındı. Normal uşaqlar cox, oliqofrenlər isə nisbətən az səhvə yol vermişdilər. Sonrakı tədqiqatlarda (111, IV və V seriyalar) da eyni nəticə alındı.

Aydın məsolodir ki, belə ziddiyyətli psixoloji faktları öz-özlü-yündə təsvir etməklə, onların mahiyyətini aydınlaşdırmaq mümkün deyildir.

Hər bir clmin, o cümlədən psixologiya clminin başlıca moqsə-di öyrəndiyi proses və hadisələrin tabe olduğu obyektiv qanunları müəyyən etməkdon, açmaqdan ibarətdir. Hər hansı bir ЫИк sahəsi ancaq bu zaman əsl elmə çevrilir.

Psixoloji faktlar qanunauyğiın xarakter daşıyır, müvafiq şərait

olduqda onlar hər dəfo zəruri surətdə müşahidə e

todqiqatı harada vo hansı uşaqlarla aparsaq, eyni no

Bu, birinci növbədə, onunla bağlıdır ki, normal

mətni oxumaqdan saxlaya bilmir: onlar mətnin m

verdiklori üçün diqqətləri yayınır vo daha çox sohvo

Halbuki oliqofren uşaqlar onlara verilən təlimata k

edir, təcrübənin gedişində mətnin (hekayənin) məzmunu

raqlanmır vo buna görə do normal uşaqlara nisbətən a

verirler. :* LPı^

Psixi həyatın elmi tohlili psixi faktlann öyrənilmosini, onların əmələ gəlməsi, forr qanunauyğunluqlannın, başqa sözlə, tabe olduqları psixoloji qanunların müəyyon olunma-sını nəzərdo tutu

Kəşf olunmuş və dəqiq formulə edilmiş psixoloji qanunlar elmi nəzəriyyonin «nüvəsini» təşkil e müha-kimələr və hesablamalar yolu ilə bu və ya digər psixi hadisənin in-kişaf meylini qabaqcadan qarşılıqlı əlaqo-sini aydınlaşdırmaq və bu əsasda da həm nəzəri. həm do praktik məsələlərin həlli yolunu t

Psixi foaliyyətin m e x a n i z m l ə r i n i n öyrənilmosi də mühüm məsololərdon qanunauyğunluqları haqqındakı biliklər öz-özlüyündə holə bu məsələni aydınlaşdırmaq imkanı vermir. Ha həyatın qanunauyğunluq-lannı təhlil edərkən istər-istəməz onun mexanizmlərinin aydınlaş-dırılması zorur

Psixi foaliyyətin mexanizmləri bu və ya digər psixi proscsi hə-yata kcçirən konkret anatomik-fiz bağlıdır. Təsadüfı deyildir ki, bu mülıüm məsələ ilə uzun müddət fizioloq-lar məşğul olmuşlar. Lak fizioloji todqiqatlar öz məntiqinə görə müəyyən psixoloji mosəlolorin həllini nəzərdə

Elmi-tcxniki təroqqi dövründə müxtolif clmlərin, xüsusilə bio-fızika, biologiya, nevrologi kibernetika və s. inkişafı ilə əlaqodar olaraq psixi fəaliyyətin mexanizmlorinin öyre-nilməsi sahəsində do Bu şəraitdə psixi foaliy-yətin mexanizmləri məsoləsi ilo bilavasitə psixoloqların məşğul olması zərurəti m inkişafı baxımından bu ta-mamilə qanunauyğun hal idi: psixi foaliyyotin mexanizmləri mosə-ləsinin müx öyronildiyi bir şoraitdə onların səyini birləşdirmək lazım idi. Müasir psixologiya bu məsələyə bö-yük ohə elmlorlə (fızіologiya, biofızika, bio-kimya, kibernetika və s. ilə) birlikdə psixi fəaliyyətin mexanizmlə-r zamanlar psixologiya, təbabət (nevrologiya, neyrocorrahiyyo) və fiziologiyanın hüdudlarında psixologiya - neyropsixologiya əmələ gəlmişdir. Neyropsixolo-giya baş beynin lokal zədələnmələrinə aid material funksiyaların beyin mexanizmlərini öyrənir.

Deməli, p s i x o l o g i y a b i r e l m k i m i p s i x i - k a n ı n f a a n u n a u y ğ u n 1 u q 1 a r ı n ı vo m e x a n i z öyrənir.

Biz bu cohoti nozoro alsaq psixologiya elmino daha doqiq torif vero bilorik: P b e y i n d o o b y e k t i v a l o m i n s u b y e k t i v s u r o t i k i m I o n p s i x i k a n ı n f a k t l a r ı , q a n u n a u y ğ u n - l u m e x a n i z m l o r i h a q q i n d a e l m d i r .

Bu tərifdə nozori ohomiyyoto malik olan üç mühüm sual özü-nün aydın ifadəsini tapmışdır.

1- ci sual. Psixologiya no haqda elmdir? Cavab: Psixologiya psixika haqqinda elmdir.

2- ci sual. Psixika nodir?

Canlı orqanizmin - bitki və heyvanların biotik (bioloji cohot-dən əhomiyyətli) təsirlərə cavab vermə qabiliyyətinə q ı c ı q -1 a n m a deyilir. Qıcıqlanma elementar fonnada hələ birhüceyrə-li orqanizmdo özünü göstərir: onlar mühitin təsirinə seçici səciyyə daşıyan hərokətlə cavab verirlər.

Mühitin təsirinə seçici surətdə cavab vermək nə deməkdir? Tutaq ki, xarici aləm canlı orqanizmə biotik və abiotik (bioloji cə-hətdon əhəmiyyətsiz və ya zərərli) tosir göstərə bilər. Birinci hal-da canlı orqanizm qıcığa yaxınlaşır, ikinci halda isə ondan uzaqla-şır. Bunu başa düşmok üçiin, gəlin, cansız təbiətdə inikasın xüsu-siyyotlərini yada salaq.

Cansız təbiətdə inikas yalnız xarici təsirlorin giicü və xarakte-rindən asılıdır. Məsələn, qayalann aşılanmasını xatırlaym: dəniz tərofındən yuyulan qaya suya müəyyən müqavimət göstərir - dal-ğalar qayaya dəyib parçalanır, lakin tədricən qaya da dağılır. Can-sız təbiətdəki inikasın bütün formalarında biz bu xüsusiyyəti görə bilorik. Halbuki canlı materiyada inikas keyfiyyotcə yeni xüsusiy-yətlər kəsb cdir. O, yalnız xarici təsirlərin gücü və xarakterindən deyil, həm də orqanizmin d a x i l i v o z i y y ə t i n d ə n (tutaq ki, ac və tox olmasından) asılı olur. O, acdırsa, qidaya yaxınla-şır, toxdursa, yerindən tərpənmir vo ya ondan müxtəlif formalarda uzaqlaşır. Bu o demokdir ki. hər bir canlı orqanizm bütün xarici qı-cıqlara seçici (foal) münasibət bəsləyir. onda y e n i x a s s ə - ö z ü n ü t ə n z i m e t m o x a s s ə s i nəzərə çarpır. Baş-qa sözlə, bioloji inikas Ö7üniin ilk sadə formalarından başlayaraq foal xarakter daşıyır.

Təkamül prosesində heyvanlarda qıcıqlanmanın yeni fonnası -h ə s s a s 1 ı q meydana çıxır. Heyvan biotik tosirləri daha adek-vat surətdə, məsələn, iyino, ronginə və ya formasına görə fərqlən-dirmeyə başlayır. Bu, artıq sadə fonnada duyğunun əmələ gəlmə-si demokdir.

Beləliklə, uzunmüddotli təkamül proscsindo psixika əmələ go-lir və tədricən, o, müxtolif fomıalarda - duyğu, qavrayış, hafızə və s. psixi proseslor kimi təzahür ctmoyə başlayır.

Psixikanın f i l o g e n e z d o (yunanca phule - növ, genesis - doğulma, mənşə deməkdir), yəni təkamül prosesində əmolə gəl-məsi və inkişafı mürəkkob və çoxcəhotli prosesdir. O, müxtolif amillərlo, xiisusilo mühitin təsirlori vo sinir sistcminin təkamül və inkişafı ilə bağlıdır.

Canlı orqanizmin mövcudluğu mühitin, həyat şəraitinin təsirlo-ri ilə şərtlənir, onunla təyın olunur.

Sadə bir misal göstərək: mühitdə temperatur yüksəldıkdo, orqanizmin kimyəvi reaksiyalarının sürəti artır, aşağı düşdükdo iso azalır. Heyvanlann hamısı eyni cür hərəkət edirmi? Şübhəsiz ki, yox. Birhüceyrəli orqanizmlər bu zaman məhv olur. Halbuki Ш cox isti havada xortumu ilə üstüno su çiləyir, ağaclann kölgəsindo giz-lonon meymun hotta özü üçün serin ycr düzəldir. Bos, bu no ilo olaqədardır?

Gəlin bir məsələyə diqqət yctirək: ilk baxışda adama elə gəlir ki, eyni bir yerdə - Qızılağac qoruğunda vo ya Altıağac meşələrin-də yaşayan müxtəlif heyvanlann mühiti eynidir. Halbuki hcyvanla-rın növündon, cinsindon, inkişaf səviyyəsindon asılı olaraq eyni bir qıcıq biri üçün biotik ohəmiyyot kəsb cdir, o biri üçün isə tamami-lə əhəmiyyotsizdir.

Biz onların həyat şəraitində ciddi forqlərə rast gəlirik. Bu, birinci növbədə, ondan ıroli gəlir ki, hər hansı bir qıcıq heyvanlann hamısı üçün eyni dərəcədo biotik qıcıq dcyildir. Tulaq ki, ət biri üçün biotik ohəmiyyət kəsb ctdiyi halda, o biri üçün, tamanıilo əhəmiyyotsizdir. Onların yaşayış tərzi do bir-birindən forqlonir. Biri, məsələn, mcymun ağacda yaşayır, başqasının, tutaq ki, quşla-rın həyat torzi iso tamam basqadır. yaxud delfın suda yaşayır. On-ların bədən quruluşunun da ohomiyyəti az dcyildir. Burada başqa amillorin do ıolunu qcyd ctmok olar.

Lakin heyvanlann davranışının psixoloji baxımdan tohlili əsas-lı surotdə göstorir ki, heyvanın mühitə uyğunlaşması bilavasito onun sinir sisteminin xi'ısusiyyətləri ilo bağlıdır.

Həyat şoraiti mürəkkəbləşdikcə, sinir sistcmi daha yüksək so-viyyədə inkişaf cdir, sinir sistcmi inkişaf etdikco, hcyvanın mühit-lə əlaqəsi genişlənir, mürekkəbləşir.

"Sinir sistcmi do tokamül proscsinin mohsuludur. Onun aşağıda-kı növlərini fərqlondirirlər: a) torvari, yaxud sopgin sinir sistemi, b) düyünlü sinir sistcmi, v) borulu sinir sistcmi (şokil 3 a, b).

T o r v a r i s i n i r s i s t e m i on bosit sinir sistemidir. Hidropoliplordə, meduzalarda və s. sinir hüceyroləri bədənin sothi-nə tor şəklindo sopolənərək bir-biri ilə çıxıntılar vasitəsilo birləşir. Hər hansı bir sinir hüceyrəsində əmələ golon oyanma bütün hüccy-rolərə yayılır və təsir edən qıcığa hidıopolip vo ya meduza bütün bodənini yığmaqla cavab vcrir.

Torvari sinir sistemindən forqli olaraq d ü y ü n l ü s i n i r s i s t e m i n d o sinir hüceyrələri qruplaşır, mərkəzi düyünlər əmələ gəlir: sinir hüceyrələri əsas etibarilə heyvanın mühitlə daha çox təmasda olan baş hissəsində toplaşır və sinir sisteminin aşağı ətraf hissəlori yuxan mərkəzi hissələrə tabe vəziyyətdo olur.

Soxulcanların, həşəratların və s. sinir sistemi düyünlü sinir sis-temino misal ola bilər.

Düyünlü sinir sistemi daha çox qıcıq qəbul etməyə və işləmə-yə imkan yaradır: baş düyün müxtolif qıcıqları qəbul cdir və təhlil-dən keçirir. Meduzalara nisbətən soxulcanlann və həşəratlann dav-ranışı daha da mürəkkəbləşir.

Borulu sinir sistemi ali sinir sistemi tipidir. O, boruda ycrləşən sinir hüceyrələrinin birləşməsindən ibarətdir (məsələn, xordalılar-da). Təkamül nəticəsində onurğalılarda onurğa beyni (haramilik) və baş beyin (beyin) - mərkozi sinir sistcmi meydana gəlmiş vo in-kişaf etmişdir. Sinir sisteminin

inkişafı ilə yanaşı olaraq heyvanlar-da hiss üzvləri də inkişaf edir və təkmilləşir. Sinir sisteminin və re-septorların inkişafından asılı olaraq psixi inikas forması da mürək-kəbloşir. Heyvanlarda yeni psixi funksiyalar meydana gəlir və tə-kamülün nisbotən aşağı mərhələsində özünü göstəron psixi funksiyalar (duyğular, qavrayış, hafızə və s.) təkmilləşir. Sinir sistemi no qədər mürəkkəbdirsə, psixika da bir o qədər təkmilləşmiş olur.




**Şəkil 3 a. 1. Meduzanın torvari və yaxud səpgin sinir sistemi.**
**2. Yağış soxulcanının düyünlü sinir sistemi. 3. Arının düyünlü sinir sistemi.**

Baş beynin inkişafı onurğalı-ların təkamülünde xüsusi əhəmiy-yət kosb edir (bax: şəkil 4 və 5).

Baş beyində müxtəlif funksi-yaları yerinə yetirən lokallaşdınl-mış müoyyon sahələrdo yer tutan morkəzlor yaranır.,

Bu morkəzlər xüsusi sinir tö-rəmoləri - assosiasiya zonaları vasitəsilə qarşılıqlı əlaqoyə girir, Heyvan nə qodor yüksok inkişaf etmiş olursa, həmin zonalar bir o qodor tokmilləşmiş olur. Mərkozi sinir sisteminə malik heyvanlar^ mühitin tosirlorini daha adekvat surətdə əks etdirirlər. Yüksək su-rotdo toşəkkül etmiş heyvanlarda sinir fəaliyyotinin əsas fondunu şərti reflekslərin məcmusyu toşkil edir.



**Şokil 3.b. İnsanın sinir sistemi. 1. Baş beyin. 2. Onurğa beyin. 3. Mühiti sinir sistcmi.**

Beloliklə, aydın olur ki, psixi funksiyalar heyvanın yaşayış şə-raitindən vo sinir sisteminin xüsu-siyyətlərindən asılı olaraq inkişaf cdir. Bos, bu xüsusiyyətlor onla-rın davranışında пeco əks olunr?

Torvari sinir sisteminə malik olan heyvanlar mühitin tosirlorinə əsasən tropizmlər formasında гe-aksiya göstərirlor. Düyünlü sınir sistemi səviyyəsindo heyvanlann davramşında tropizmlor müşahidə olunsa da, əsas yeri instınktıv davranış forması vo ya instinktlər tutur. Onların davranışında vər-dişlor do özünəməxsus rol oynamağa başlayır. Borulu sinir sistemi səviyyəsindo iso qeyd olunan davranış formalan ilə yanaşı intellek-tual davranışa rast golirik.

Tropizmlor nodir? Onlar пeco tozahür edirlor?

T r o p i z m (yunanca tropos - dönmək, istiqamət demək-dir) termini ilk dəfə bitkilərin günəşə doğru horokotlorini təsvir et-

mək məqsodilə işlədilmişdir. (Azərbaycan dilində «günəbaxan» sözü bu cəhətdən maraqlıdır.) Fransız psixologiyasında tropizm tcrmininin sinonimi kimi «taksis» (yunanca taxis - qayda, uyğun-laşma deməkdir) terminindən istifadə olunur. Bizim ədəbiyyatda bitkilərin müvafiq reaksiyaları daha çox tropizm, heyvanlann reak-siyaları isə taksis sözlərilə ifädə olunur. Bəzən həmin sözlərdon si-nonim sözlər kimi do istifadə olunur.

Tropizm və ya taksisin iki mərhələsini fərqləndirirlor, birinci mərhələdə canlı orqanizm müvaflq qıcıq (işıq, kimyəvi, mexaniki və s.) istiqamətino yönəlir, ikinci mərhəlodə həmin istiqamotdə yerini doyişir. Ali hcyvanlarda hafızənin inkişafı zomininde mne-motaksis (yunanca mnemotaxis - yadda saxlamaq deməkdir) müşa-hidə olunur: heyvan müəyyən ərazidə davranış üçün mühüm olan oriyentirləri yadında saxlayır. Hcyvanın inkişaf səviyyosindən ası-lı olaraq tropizm və ya taksis müxtəlif formalarda özünü göstərir.

I n s t i n к 11 o r (latınca - instinktus - oyanma demokdir) genetik cəhətdən tropizmlərlə bağlı olsa da, mahiyyət etibarilə yeni davranış forması kimi mcydana çıxır. İnstinkt termini müxtəlif vaxtlarda müxtəlif mozmun ifadə etmişdir. Bir sıra hallarda şüurun əksini təşkil edən halları, bəzən insanın

**Şimpanze**

**Böyük bcyin**





**Böyük bcyin**

**İnsan**



**Şokil 4. Baş bcyin böyük ya-rımküroləri mərkəzi sinir sisteminin ən mürokkob və ali şöbosıdir. O, məməli heyvanlarda çox inkişaf etmiş, insanda isə on yüksək səviy-yəyə çatmışdır. Böyük yarımküro-lorin orta həcmi insanabonzər mey-munlarda 600 sm' oldugu halda. in-sanda 1400 sm'-dir.**

«düşünülməmiş», «impul-

**Pişik**



**Şokil 5. Ltmbrional morhələlərdo bcynin inkişafı.**

**Böyük bcyin**

siv» horəkətlərini, insan psixikasında «heyvani cəhətləri», bəzən isə mürəkkəb şərtsiz reflcksləri ifado etmək üçün instinkt terminin-dən istifadə olunmuşdur. Müasir psixologiyada terminin monası doqiqləşmişdir; o, elmi tcrmin kimi «gcnetik cohətdən təsbit olun-muş», «irsən möhkomlonmiş», «anadangəlmə davranış» mənasını ifado edir.

İnstinktiv davranış forması zəncirvari xarakter daşıyır: o, hər hansı bir qıcığın (iy, sos, duruş, dəri reaksiyaları, rong və s.) təsiri ilə əmələ golir və ardıcıl surətdə davam edir. Müxtəlif hallarda hö-rümçoyin tor toxumasını, bal ansının şan qayırmasını müşahidə et-səniz, bunu asanlıqla müəyyon edo bilərsiniz. İlk baxışdan bu hə-rəkotlər məqsodouyğun horokotlərə bənzoyir, əslində isə belə dc-yildir. Aşağıdakı misallar bu sahədən səciyyəvidir: - ogor bal üçüıı nəzərdə tutulmuş şanmın arxa tərəfini kəssək, arı yararsız şana mü-vafıq miqdarda bal doldurur vo balın o biri tərəfdon axmasına bax-mayaraq şanın üzünü mumla suvayır.

Zooparkda saxlanan Neıo adlı şirə bodbəxlik üz vennişdi: xəs-

təlikdən sonra tükləri tökülmüşdü. Onunla bir qəfosdə qalan digər vəhşilər keçəl şirə məhəl qoymayır və tcz-tcz ona hücum cdirdilər. Psixoloqlar Nero üçün süni yal düzəltməyi təklif ctmişlər. Şir tək-lifın onun xcyrinə olduğunu hiss edibmiş kimi parikin geydirilmə-sinə mane olmamışdır. Pariki geydirəndən sonra şirlərin Neroya qarşı reaksiyası o dəqiqə dəyişmişdir.

Bu cəhotdən aşağıdakı misal da maraqlıdır: qanşqada feromon adlı ifrazat hasil edən vəzilər vardır. Başqa qanşqalar bu feromon-ların kimyəvi tosirini duyur. Tozə ölmüş qanşqa müəyyən feromon ifraz edir. Onda bir-iki gündən sonra çürüntü iyi omələ gəlir. Bu çürüntü iyini duyan qanşqalar ölünü yuvadan bayıra çıxarır. Bu instinktiv davranışdır. Qanşqaların ölü qanşqanı düşünmədən yuvadan kənara atdıqlarını sübut etməkdən ötrü bclə bir təcrübə apar-mışlar: ölü qanşqada hasil olan çürümə mohsulunu diri qarışqanın üstünü çəkirlər. Başqa qanşqalar iyin tosiri nəticosindo diri qarış-qanı, onun müqavimət göstərmosino baxmayaraq, ölü qarışqa kimi yuvadan bayıra atırlar. Diri qarışqa yuvadan uzaqda qalmayır və ye-nidon öz yuvasına qayıdır. Lakin üzərino sürtülmüş çürüntü məh-sulunun tosiri onu yenidən ölü kimi yuvadan uzağa apannağa vadar edir. Diri «meyitin» yuvadan uzağa daşınması şoklində olan belə instinktiv hərəkət təcrübəni aparan şəxs torofındon qarışqanın üzə-rinə çəkilmiş məhlul öz təsirini itirənə qədər davam edir.

Instinktiv davranış formalanna heyvanlann hamısında geniş tə-sadüf olunur. İnkişaf etmiş heyvanlarda onlar daha mürokkob xarakter daşıyır. Məsələn, yaşlı ali meymunlarda instinktiv davranış ibtidai heyvanlann instinktindon osaslı surotdə forqlənir. Ali mcy-munlarda (xüsusən şinpanzedə) anadangolmə davranış forması olan yuva tikmək instinkti mövcuddur. Tobii şəraitdə onlar budaq-larda yuva qururlar. Müşahidələr göstorir ki, mcymunlann yuva qurmaları onların materialı seçərkən praktik təhlildən istifadə et-molərinə, yəni onları yararhlığına göro ayırmalanna səbəb olur. Todqiqatın gedişi prosesində meymunlann quruculuq «fəaliyyəti» gəmiricilərin (siçovulun) yuva qurması ilə müqayiso edilmişdir. Müxtəlif bərkliyə malik olan matcrialdan, məsələn, ağac budağın-dan və kağızdan həm şimpanze, həm də siçovul eyni tipli yuva qururlar: yuvanın əsasını nisbətən bərk materialdan, iç səthini isə daha yumşaq materialdan düzəldirlər. Əgər şimpanzcyə və siçovula yalnız yumşaq material versək, onlar homin matcrialdan yuva qur-mağa başlayırlar. Əgər heyvanlar əvvəlco toqdim olunmuş matcri-

412 ^yillər. Onlar ogor yaxşı sözlor işlotmirlorso **və ya** no iso **nalayiq** Tokət edirlərsə, **bunu ya** dəcəllik, **ya da** «özünü göstermək» **mınə** edirlər. Qızlar **da öz** hərəkətlərinin effekti ilə **az** bıraqlanmırlar, lakin onlar oğlanlardan fərqli olaraq **bu və ya** digər **Srəkətin** özünə **də** əhomiyyət vendor. Bu aydın şəkildo göstərir **I,** qızlar hərəkətlərini **qiymətləndirərkən** özlərine oğlanlara mbətən daha çox **tənqidi** yanaşırlar.

**öz** imkanlarını hoddindon **artıq** qiymotlondirmo hallarına **Lzon** qızlarda təsadüf olunur. Lakin bclə hallarda qızlar özlərini **Lcc də** «xüsusi şəxsiyyət» hesab etmirlər: oğlanlann arasında isə llelərinə təsadüf edilir **ki,** onlar özlərinin xüsusi məziyyətlərə kalık olduqlarına inanırlar.

Qızların torbiyosində onlann **bu** xüsusiyyətindon istifadə **■mok** lazımdır. Qızlarda özünə tənqidi münasiboti gücləndir-boklə, onlarda özünütorbiyo tolobatı yaratmaq mümkündür. Lakin **Ki,** pedaqoji məharot **tələb** edir. Belo tərzlərdon sui-istifadə edən, **■ı/ın** müsbət xüsusiyyotlərinə əhəmiyyət verməyib, nöqsanlarını fcrli-ycrsiz nezərə çarpdıran valideyn onun **bir** şəxsiyyət kimi krmalaşmasına mənfi təsir göstərə bilər.

Qızlar çox az hallarda tərslik edirlər. Lakin qızların tərsliyi psbotən sabit olur və uzun müddət davam cdir. Ümumiyyətlə, bızlar öz hüquqlannın məhdudlaşdırılmasına kəskin münasibət bsləyir, hotta qeyri-pcdaqoji təsir vasitələrinə müraciət edən prbiyəçilərə müqavimət göstərirlər. Bununla əlaqədar olaraq bir bhəti xüsusilə qeyd etmək lazımdır.

Qızlar onların ləyaqətini alçaldan hər hansı bir todbiro **ürək** l|nsı ilə **cavab** verirlər. Belə hallarda qızlann son dərəcə həssas **Rnasım** bütün tərbiyəçilər qeyd edirlər. Apanlan müşahidələr bostorir **ki,** müollim kişilərin ünvanına tənqidi qeydlər söylədikdo, blanlar **bunu** ürək ağrısı ilə qəbul ctmirlər. Ycniyetmə qızlar isə **pşilorin** qadınlara **nisbətən** üstün olması haqqında eyhamla söylə-ml.Mi və **ya** kinayə tərzində deyilon yarızarafat, yarıciddi sözlor Işitdikdə qəzəblənir, hətta bəzən özlərindən çıxırlar.

Oğlanları qızlara qarşı qoymaq ciddi səhvdir. Ailədə istər oğ-Ibnlara, istərsə **də** qızlara eyni qayğı **ilə** yanaşmaq lazımdır. Qızla-hп yanında hcç vaxt «qadın əməyinin» ağırlığından d^nışnıaq ol-**Küz** Qızlarda belə yanlış zehniyyət yaratmaqla onlan heç **vaxt** Jtyata hazırlamaq mümkün deyildir. Qıza hər hansı **bir** ev **işi** tapşı-

413 rarkən də onun qadma moxsus xarakter daşıdıgmı qeyd ctnuıfc məsləhət görülmür.

Hər bir qız, cləco də oğlan müəyyən əmok vordişlorino ıııalık olmalıdır. Qızlar və oğlanlar özünəxidmoi omoyindo. moı.şot »m» yində və s.-də iştirak ctməklo belə vərdişloıo yiyəlonirlor. Qızlanı vo oğlanların əmək lorbiyosino homişo xüsusi diqqot yetirmul lazımdır. Ailədə sözün əsl mənasında əmok nıokiobi kcçon hoı bır qız və oğlan lazımi mənəvi kcyfiyyotloro yiyolonmoklo yaпayıı həm də həyata psixoloji cəhətdən hazırlanır.

Ailədə qarşılıqlı münasibətlərin inkişafında kişinin rolıı mühümdür. Axı, birinci olaraq cvlənmok toklifini o ctmiş və qı**/a** əl uzatmışdır, çətin anlarda bu ol qadının imdadına çatmalıdıl Birinci olaraq ürəyindokilori o açıb demişdir, dcməli, homin andai ctibarən o, hər ikisi üçün cavabdchdir. Onun qolbi moid vo zoıı1. həssas və odalətli olmalıdır. Oğlanlarda bu keyliyyotlorin tərbiyu edilməsi xüsusi əhəmiyyətə malikdir. Onların qüvvətli vfl dözümlü, mərd və cəsarətli, hossas vo odalotli olmasına daha yüksək tələblər verilmolidir.

Zoif bədən, qorxaq vo üroksiz xarakter, cüiz ürok - oğlatt uşağını pis tərbiyo ctməyin ən monfı noticoloridir. Bu cür ciiıuk osasda şəxsi həyatda qadını ucaltmayan, amma onun insani v# qadınlıq ləyaqətini məhv cdon xudpəsəndlər yetişib böyüyür.

Kiçik yaşlarından başlayaraq oğdanlarda qızlara qaygıkej münasibət tərbiyo edilməlidir.

Hələ kiçik məktob yaşı dövründə oğlanlann qızlara münil sibətindo kobudluq hallarına təsadüf cdilir. Buna laqcyd yanaşmaq olmaz. Kiçik məktəblinin bugünkü kobudlugıı osasıula sabah qadına mənfı münasibot yarana bilər. Qızın mütiliyi vo passivliyi onun birtərəfli inkişafı ilə nəticolənər.

Oğlanların kobudluğunu, qızların passivliyini bəzən onların fiziki inkişafinın xüsusiyyətləri ilə izah edirlər. I.akin onlarm kobudluğunu təkco bununla aydınlaşdırmaq birtorofli olardı. Uşaqj kobudluğu ailədo öyrənir. Qızın passivliyi do yanlış torbiyənin noticosidir.

Belə hallan aradan qaldırmaq üçün kiçik yaşından oğlanlaıda qızlara hörmet hissi aşılamaq, qızlarda isə şəxsi loyaqot hissi, ож qüvvələrinə inam tərbiyə ctmək lazımdır. Bu əsasda oglanlarla qızların yoldaşlıq və dostluğu sağlam qarşılıqlı münasibət kımı inkişaf edir.

414

*i* Oğlanlarda qadına hörmət torbiyosi ana məhəbbəti ilo Ikıj.ılondirildikdə, daha yaxşı noticə verir.

, III sinif şagirdi S. sentyabr ayının l-do dərsdən qayıdandan Ьлы həyocanlı halda dedi:

**L-** Anacan, bizim sinfımizdə 14 dənə qız var. Mon onların heç ilı ilo oturmayacağam.

к Ana mozəmmətlo oğluna baxdı:

- Nə dedin, oğlum? Dənə? Belə çıxır ki, mən də dənəyəm. L S. çaşıb qaldı.
- Yox, son dənə deyilsən, son anasan, - deyo o, həyəcanla **Bİondi.**
- Axı bu qızlardan hər biri böyüyüb ana olacaqdır. Son isə bl**.ııa** «donə» deyirson. Mon do **41/** olmuşam, oğlanlarla **puımuşam,** indi isə sənin ananam. Oğlum, yadında saxla ki, son k/**laıa** no etsən, clo **bıl** kı. mono edirsən: qızlann könlünə **fcuınsan.** demək mənim könlümə toxunursan. Son mütləq həmin Ь/**lardan** biri ilə otur, əgor lazım gəlsə, ona kömək et. Ertəsi gün

moktobdən şon halda qayıtdı.

- Anacan, mən bir qıza oxu dərsində kömək etdim, - dcyə o, **xarla** bildirdi.
- Bu, çox gözoldir, - dcyə ana oğlunu təriflədi, gəlon dəfə nin qız sənə kömək edər...

L. A. Levşin bu müsahiboni təhlil edərək yazır: ananın oğlu ilə ribo söhbəti oğlan torbiyəsinin osasını toşkil cdən əsas idcyanı **Eol** ifado edir. Oğul öz anasını hərarətlə sevir. Lakin oğula ılum olur ki, ana dünənki qızdır. Onun oğlu ilo bir parlada oturan **: isə** sabahkı anadır. Beləliklo də oğulu ana ilə bağlayan böyük **s** tamamilə tobii surətdə onun qızlarla toşokkül edən qarşılıqlı ınasibəti üçün nümunəyə çcvrilir. Düzgün kişi tərbiyosinin açan mohz buradadır.

Çalışmaq la/ımdır ki, uşaq qadına hörmət ctmoyi öz atasının, Jtfdaslarının, qohumlannın anaya, cləcə də nono vo bacıya ■rmoti timsalında, ananın ülviyyətini tərənnüm cdən şcrlər və k.ıhmlar vasitosilo öyronsin. Uşaqları ananın votəndaşlıq siması -pmiyyətdəki mövqcyi, ictimai-siyasi foaliyyəti, clacə də görkəmli Lıdmlann torcümeyi-halı vo osərləri ilə, ailədo və ictimai byatdakı rolu ilo tanış etmək məsləhotdir.

Oğlanlarda qızlara və qadınlara hönnot hissinın formalaşma-**kda** atanın təsiri böyük əhəmiyyətə malikdir. Bu məsələni yalnız

415 oğlanların tərbiyəsində ata nümunəsinin rolu ilə məhdudlaşdı olmaz. Atanın oğula təsirindon geniş mənada danışmaq lazınul Bəzi alimlərin qcyd etdikləri kimi, moktəbdə və ailədə oğl uşaqlarına kifayət qədər kişi təsiri göstərilməməsi hazırda cıdıJı problcmdir. Ailədə uşaqların tərbiyəsi ilə əksər hallarda analaı məşğul olurlar. Bunu heç də ataların vaxtının azlığı və onların **b.»** məşğul olması ilə izah ctmok olmaz. Uşaqların tərbiyosi ilə əsas[r] anaların məşğul olması bir çox ailələrdə əmələ gəlmiş birtere ənonənin nəticəsidir. Bu, düzgün deyildir. Uşaqlann tərbiyəsin atanın rolu əvəzsizdir.

Aydın məsələdir ki, cinsi xüsusiyyətlər ümumi xarakı daşımır. Hər yaş dövründə onlar özünəməxsus sokildo təzahur cdirlər. Oğlan və qızlarda cinsi xüsusiyyətlorin inkişafında hor y dövrünün öz ycri, öz xüsusiyyəti vardır.

Bir cəhəti də qeyd edək: cinsi xüsusiyyətlər nəinki şagirdlonn yaş xüsusiyyotləri, həm də fərdi xüsusiyyətləri ilo vehdətdo formalaşır. Bundan asılı olaraq eyni bir cinsi xüsusiyyot müxt.tlı oğlan və ya qızlarda müxtəlif çalarlarla tə zahür edir. Tərbiy^ işində şagirdlərin cinsi xüsusiyyətlərini düzgün nəzərə almaq üçüll onlann yaş vo fərdi xüsusiyyətlərini şərtləndirən amillori ətra öyrənmək lazımdır.

## 4. Cinsi tərbiyənin psixoloji problemləri

Qədim zamanlardan başlayaraq, hər bir xalqın oğlan və q tərbiyəsi ilo bağlı özünəməxsus adət və ənənəsi olmuşdur. Bu ad və ənənələrin əsas funksiyalanndan biri mahiyyətcə uşaq v ycniyetmələrin cinsi torbiyəsindon ibarət idi.

Bu monada cinsi tərbiyənin tarixi çox qədimdir, lakin, o, ayrı bir tərbiyə nəzəriyyosi sahəsi kimi nisbətən sonralar ıormalaşmı XIX əsrin sonu - XX osrin əvvəllərindon ctibarən sürətlo inki ctməyə başlamışdır. Müasir dövrdo isə, bir tərəfdən, gənc nəsl mənəvi tərbiyəsinin əhəmiyyətinin artması, digər tərəfd ölkəmizdə ailənin daha da inkişaf ctməsi, ailə-nikah münasi" lərində psixoloji amillərin daha ınühüm rol oynaması və s. əlaqədar olaraq uşaq və yeniyetmələrin cinsi tərbiyəsi xüs aktuallıq kəsb cdir.

Şagirdlərin əxlaq tərbiyosi nəzəriyyosi vo təcriibosində c'

416 torbiyə mənəvi tərbiyənin bir sahəsi kimi formalaşıb inkişaf cimişdir. Sovet pcdaqogikası və pedaqoji psixologiyasının müasir ınkişaf mərhələsində də məsolənin belə qoyuluşu xüsusi aktuallıq kəsb edir. Ən yeni psixoloji və pcdaqoji ədəbiyyatda cinsi tərbiyə mənəvi tərbiyonin mühüm əhəmiyyətə malik olan müstəqil bölməsi kimi xarakterizo olunur. Bu cəhətə həmişə xüsusi diqqət yotirilməlidir. Lakin nəzəro almaq lazımdır ki, cinsi tərbiyənin bir çox

məsələləri şagirdlərin mənəvi tərbiyəsi ilə yanaşı, həm do onlann əmək, estetik, əqli vo fıziki tərbiyəsi ilə bilavasitə bağlıdır.

Cinsi tərbiyə - oğlan və qızlara heç də yalnız hər hansı məlumatın, biliyin, anlayışın verilməsi demək deyil, birinci növbədə, ağıllı və gözəl qarşılıqlı münasibotlərin tərbiyo edilməsi deməkdir.

Uşaqların cinslərarası münasibətlər sahəsində mənəvi mədəniyyətə yiyolonməsi, cinslərarası münasibətlərin əxlaq normaları osasında inkişaf ctdirilməsi cinsi tərbiyənin osas məqsodini təşkil edir.

Uşaqların cinsi inkişafı onlann psixi inkişafınm mühüm sahə-lerindən biridir. Məhz ona görə də oğlan və qızların psixoseksual inkişafının qanunauyğunluqlannın öyrənilməsi cinsi tərbiyo nəzəriyyəsi üçün böyük əhəmiyyətə malikdir.

Cinsi xüsusiyyətlər təkcə ümumi psixologiyanın aktual prob-lcmi deyildir. Onun tədqiqi hom də yaş və pedaqoji psixologiyanın, sosial, etnik, əmək, məhkəmə, incəsənət psixologiyasının və s. bir çox nozəri-praktik mosələlərinin həlli üçün son dərəcə mühümdür.

Uşaqların cinsi torbiyosinin vozifələori çoxcəhətlidir. Oğlanlar və qızlar arasında mənəvi qarşılıqlı münasibətlərin formalaşması, hisslər mədəniyyotinin tərbiyə olunması, cinsin bioloji vo sosial problcmləri, qadın və kişinin inkişaf qanunauyğunluqları vo dav-ranış xüsusiyyətləri haqqında elmi anlayışlann formalaşması, qızlarda qadınlıq, oğlanlarda kişilik keyfıyyətlərinin inkişa^//^^ etdirilməsi, oğlan və qızların nikaha, sağlam və xoşbəxt ailə həya-tma hazırlanması və s. onların içərisində əsas yer tutur.

Elmi-texniki toroqqi dövründə baş verən müxtəlif sosial-demoqrafık proseslər, urbanizasiya, akselerasiya və s. ilə əlaqədar olaraq cinsi torbiyə məsələləri diqqəti daha çox cəlb cdir.

Bir çox hallarda uşaqlann fiziki inkişaf sürətilə onlann psixoloji və sosial (vətəndaşlıq) yetkinliyi arasında uyğunsuzluq müşahido olunur. Uğursuz ailələrin meydana çıxması, boşanmanın miqdarının artması, doğumun azalması və s. həm do on latin psixoloji-pedaqoji sobəbləri haqqında düşünməyi tələb edir.

Cinsi tərbiyə nəzəriyyəsi müxtəlif clmlərin inkişaf tarixi w» müasir səviyyəsi ilə bilavasitə bağlıdır. Cinsi tərbiyodə u/un müddət tibbi istiqamət osas ycr tutmuşdur. Lakin çoxlu miqdanU həyati faktlar sübut etdi ki, cinsi tərbiyə məsələlərinin həllində ***ущ*** fiziologiyası, səhiyyə maarifı, seksologiya, seksopatologiya, eloca də uşaq psixiatriyası, pcdiatriya və s. nə qədor böyük əhəmiyyolt malik olsa da, hələ kifayət dcyildir. Cinsi torbiyonin todricuı psixoloji və pedaqoji problcmləri daha çox aktuallıq kosb ctnıoyü başladı. Müasir dövrdə cinsi tərbiyo problemlorinin lıollı baxımından sosiologiya, etnopsixologiya, demoqrafıya, etnoqrali\.ı və başqa clmlorin nailiyyətləri də olduqca əhəmiyyotlidir. Aydıı məsələdir ki, cinsi tərbiyənin nəzəri və praktik mosololorini ancaq kompleks şəkildə - sosioloq, demoqraf, fızioloq, seksoloq, psixiaıı. psixoloq və pedaqoqların birgə səyi nəticosində həll etmək olar.

İnsanın münasibət subyektinə çevrilməsi ilə onun bütün psixı həyatı şəxsiyyot xarakteri kosb edir. Bu zəmində də cinslərarati münasibətlər şəxsiyyətlərarası münasibətlor kimi inkişaf etmoyo başlayır. Onun ən başlıca intcqrativ xüsusiyyətləri öz əksmı məhəbbət hissində tapır. Məhəbbət şəxsiyyət psixologiyasının un mürəkkəb fcnomcnidir. Orqanizm səviyyəsində cinslərarası rabıin və əlaqələr şəhvot termini ilə xarakterizə olunur. Məhəbbət is* ancaq şəxsiyyət səviyyəsində formalaşır, insanın psixi həyatmı saflaşdıran ülvi vo ccazkar hisso çevrilir.

A. S. Makarenko «Cinsi torbiyə mohz sevgi tərbiyəsi olma lıdır», - deyərkən bu cəhəti nəzərdo tuturdu. Təsadüfı dcyildir kı. bədii ədəbiyyatın insan əzəməti və ləyaqəti haqqında yaratdığı on böyük psixoloji himn məhəbbət himnidir.

Cinsi torbiyonin nəzəri və praktiki problemləri ancaq şəxsiyyol psixologiyasının nailiyyətləri baxımından holl edilə bilər. Şəxsıy yət psixologiyası cinsi tərbiyə nəzəriyyəsinin osasını təşkıl etməlidir.

A. S. Makarenkonun qeyd etdiyi kimi, cinsi tərbiyə məsolesi on çotin pcdaqoji məsələlordən biri hesab edilir. Onun tikrineə, hcc bir pcdaqoji məsəlo bu qədər dolaşıq salınmamış və heç bir məsoUı haqqında bu qədor səhv rəylər söylənməmişdir. Halbuki omolj cəhətdən bu məsələ o qədər də çətin deyildir və bir çox ailəlordo olduqca sadə, əzabsız vo tərəddüdsüz holl olunur. Cinsi tərbiye| 418 ıtncaq ailə onu ayrıca bir məsolə kimi götürdükdə, başqa tərbiyə ■Bosələlorinin ümumi kütləsindən ayırıb ona həddindən artıq fcöyük əhəmiyyət verdikdə çətin mosələyo çevrilir.

Uşaqların cinsi tərbiyəsində ailə mühüm rol oynayır. Onlar hoyat prosesində, yaşlı nəslin vasitəsilə kişi ilə qadının, ərlə-trvadın qarşılıqlı münasibətləri və s. haqqında müəyyən təsəvvür Vo anlayışlara yiyolənirlər. Qadınlıq vo kişilik ctalonlarına ve Itandartlarına müvafıq olaraq, onlara müxtəlif keyfıyyotlər aşılanır. lu baxımdan etnopsixoloji vo etnopedaqoji amillərin uşaqların v insi tərbiyəsində əhəmiyyətini qeyd etmək lazımdır. Lakin bunlar hcç də uşaqların ailə həyatına hazırlanması üçün zəruri olan bürün tmosələləri sistem şəklində əhato etmir və edə do bilmoz. Bu şoraitdə uşaqlann cinsi tərbiyəsi məsələlərinin həllində məktəbin iolu xüsusilə artır.

Sosioloji, psixoloji vo pedaqoji tədqiqatlar əsaslı surotdə göstərir ki, moktəbin iştirakı olmadan gənclərin ailə həyatına tı.ı/ırlanması praktik olaraq mümkün deyildir. Onlar orta məktəbdə - ıiMisilə cinsin biologiyası haqqında nisbətən gcniş məlumat oldə cdir, ədəbiyyat, tarix, hüququn əsasları və s. fənlərin tədrisi prosesində cinslərarası münasibətlor haqqında ədəbi-bədii, ictimai-larıxi və hüquqi aspektdə müəyyən məlumatla tanış olurlar. Son

zamanlar qızlarda evdarlığa aid bilik, vərdiş və bacarıqların inkişaf -tdırilməsinə daha çox diqqot yetirilir. «Ailə həyatının etika vo psixologiyası» kursu öyrənilir.

Məktəbdə təlim-tərbiyə prosesində oğlan və qızlar arasında •ağlam qarşılıqlı münasibətlərin inkişaf etdirilməsi şagirdlərin oxlaq tərbiyəsi baxımından xüsusi əhəmiyyət kəsb edir. Bu mühüm məsələlori yüksək elmi-metodik səviyyədo holl etmək üçün müəllimlər uşaqlann psixoscksual inkişafının xüsusiy-yetlərini ətraflı öyrənməli, şəxsiyyət psixologiyasının nailiyyətləri •eviyyosində təhlil etməli və moktəb təcrübosində nozərə ■Imalıdırlar.

Uşaqların cinsi tərbiyəsi kimi mürəkkob bir məsələni ancaq clmi zəmində holl etmok olar. Bu nöqteyi-nəzərdən cinsi lorbiyənin psixoloji məsələlərinin öyrənilməsi və məktob löcrübəsində tətbiq edilmosi böyük əhəmiyyətə malikdir.





# XV F Ə S İ L

# QABİLİYYƏTLƏR VƏ İINTELLEKTİN QURULUŞU

## 1. Qabiliyyətlər *§ 1. Qabiliyyətbr*

## *haqqmda anlayış*

Məşhur Azərbaycan yazıçısı ƏbdürTohim bəy Haqverdiyevin «Mirzə Səfəo> povestinin qəhromanı günlərin bir günündə **şcr** yazmaq istəyir. Yazıçı onun bu vəziyyətini belə təsvir cdir: «Mirzo Səfər eşitmişdi ki, şer yazmaq üçün iki vasitə lazımdır: xəlvət otaq və bir şüşə şərab. Şorab içdikdən sonra tob açılıb, şer öz-özünə su kimi axacaqdır. Qafıyə tapmaqda çətinliyə uğradıqda iki dəfo qezylə təpiyini ycrə çırparsan, o saat qafiyə öz-özünə tapılar.

Mirzo Səfər bir şüşo qırmızı şorab alıb gəldi evə. Mirzəyo demişdilər ki, şərab, əlbəttə, gorək qırmızı olsun ki, yann dodaq-larına oxşasın. Şərabı masanın üstünə qoyub, papağı bir tərofo, çuxanı o biri torəfo atıb, yaxasını açıb, başının tüklərini pıtlaşdırıb, özünə bir laübalı sifət verib aynaya baxdı, dedi:

- Afərin, Səfər, indi xalis şairson.

Şərabdan bir stəkan töküb içəndən sonra gördü gözləri do qızanb, daha şairliyino şəkk ola bilmez.

Stulda əyləşib, qarşısına bir vərəq kağız qoyub qoləm götürdü. dörd, beş dəfə qoləmi mürəkkəbə batırdıqdan sonra dumb otaqda bir-iki baş gəzindi. Hərçi fikir ctdisə şeri başlamaq mümkün olmadı. Bir stəkan da içdi. Bcyni bir qədər də qızışdı, əyloşib qələmi alıb gözol xətlə yazdı:

«Darvazamızı fələk vurubdur!»

Mirzə Səfər hərçi çalışdısa ikinci misra gəlmədi. Nccə dəfo təpiyini yerə çırpdı, şərabın hamısını içdi. Misra gəlmədi kı. golmədi».

Mirzə Səfər niyə şer yaza bilmodi? Sualm cavabı aydındır: onun bu sahədə qabiliyyəti yox idi.

Qabiliyyət nodir? O nccə əmələ gəlir, formalaşıb inkişaf edirmi?

Qabiliyyətləri psixoloji baxımda xarakterizə etmək üçün **3** cəhəti nəzoro almaq lazımdır.



1. Qabiliyyətlər şəxsiyyətin fərdi-psixoloji xüsusiyyətidir. Fərdi sözüno diqqət edin: insanlar öz qabiliyyotlərinə görə bir-birindən fərqlənirlər. Lakin şəxsiyyətin fərdi-psixoloji xüsusiy-yətləri çoxdur. Temperament do, xarakter də şəxsiyyotin fərdi-psixoloji xüsusiyyətləridir. Bəs, onda qabiliyyətlər, şəxsiyyətin digər fərdi-psixoloji xüsusiyyətlərindən - temperament və xarakterdən nə ilə forqlonir?

2. Mirzə Sofərin başına gələn əhvalat bu suala tutarh cavab verir: qabiliyyotlor bu və ya digər fəaliyyətin müvəffəqiyyətli icrası üçün başlıca şərtdir. Bu məsələni doqiqləşdirək: fəaliyyət prosesində temperament do, xarakter də müəyyən rol oynayır. Lakin fəaliyyətin müvəffəqiyyətli icrası bilavasitə onlardan asılı deyildir. Mirzə Səfərdə özünəmoxsus temperament və xarakter əlamətləri var idi. Onlann bir çoxu hətta şairlik üçün çox olvcrişli idi. Mosolon, Mirzə Səfər həvsələli adamdı, «səhordən axşamacan evdə oturub» işləyə bilirdi. Lakin, görəsən, hövsəloli olmaqla yaxşı şer yazmaq olarmı? Əlbətto, olmaz! Bəs, hövsəlosiz adam пeco, şer yaza bilərmi? Olbətto, yaza bilər. Ancaq bir şərtlə: şer yazmaq ücün adam gorək müəyyən qabiliyyotləro - poetik qavrayışa, obrazlı təfəkkürə, yaradıcı təxəyyülə, ifadəli dilə vo s. malik olmalıdır. Mirzə Səfordə isə bu qabiliyyotlor yox idi.

Dcmoli, şəxsiyyətin fordi-psixoloji xüsusiyyətlərindən hər birinin fəaliyyət proscsində öz yeri, öz vəzifəsi vardır. F ə a l i y y ə t i n m ü v ə f f ə q i y y ə t l i i c r a s ı a n c a q q a b i 1 i y y ə 1 1 ə r 1 o ş o r t l ə n i r .

3. Gəlin, indi də belə bir situasiya təsəvvür edək: Mirzə Səfərə şerin yazılması qaydalan haqqında molumat verok, ona əruz və ya heca vəznində şer yazmağı öyrədək, psixoloji dildo dcsok, ona bu sahədə müəyyon b i l i k , b a c a r ı q v ə v ə r d i ş a ş ı l a y a q . Görəsən, bclə olsa, Mirzə Səfər şer yaza bilənni? Əlbəttə, yaza bilər. Lakin bu sahədə zəruri qabiliyyətlərə malik olmadığı üçün onun yazdığı şer ancaq qafıyolonmiş, voznə salınmış söz yığınından ibarət olacaqdır. Məhz bu cəhəti nəzərə alaraq psixologiyada qabiliyyəti xaraktcrizə edərkən foaliyyətin sadəcə olaraq icrasından yox,

m ü v ə f f ə q i y y ə t l i i c r a s ı n - d a n danışırlar («müvoffəqiyyətli» sözüno diqqot yetirin).

Qabiliyyətlərin bilik, bacarıq və vərdişlorlə əlaqəsi psixoloji cəhətdən aktual problemdir. Bu məsəlo horn do ona görə

421 əhəmiyyətlidir ki, uşaqlann tərbiyəsi işində əп çox səhvə məhz həmin sahədə yol verilir.

Gəlin, A. vo B. adlı iki uşaq təsəvvür edək. Onların ikisinin do **10** yaşı var. A.-nın yaxşı musiqi qabiliyyəti var: musiqi eşidəndo hər şeyi unudur, melodiyalan asanlıqla yadında saxlayır, mahnı oxumaqdan doymur. Lakin bu sahədo onunla hcç kəs məşğul olmamışdır, hətta özünün heç musiqi aləti do yoxdur.

B.-nin isə musiqi qabiliyyəti yoxdur: musiqini xoşlamır, melodiyalan yadında saxlaya bilmir. Ancaq **5** yaşından başlayaraq valideynləri musiqi müollimi tutmuş, ona pianoda çalmaqla yanaşı, horn də nota savadı öyrətmişlər. Yəni A-nın qabiliyyəti var, bilik. bacanq və vərdişi yoxdur, B.-nin isə oksinə, bilik, bacarıq ve vərdişi var, qabiliyyəti yoxdur.

Tutaq ki, A.-da, B.-də musiqi məktobinə daxil olmaq istəyir. Onlardan hansı qəbul imtahanını daha yaxşı verə bilər? Bu suala cavab vermək üçün biz müəllimin psixoloji səriştoyə malik olub-olmadığını bilmoliyik: əgər müəllimin psixoloji səriştəsi yoxdursa, üstünlüyü B.-yə verəcəkdir. Əgər o, psixoloji səriştoyə malikdirso, A. ilo B. arasındakı mühüm fərqi - bilik, bacarıq və vərdişlorlo deyil, məhz qabiliyyətlərin inkişaf səviyyəsi ilə bağlı fərqlorı görəcəkdir.

Belə güman edok ki, uşaqlann hər ikisi musiqi moktəbinə daxil olmuşdur. Görəsən, bu şəraitdə onlarda musiqi qabiliyyətlori nece inkişaf edir? Psixologiyada onlarla bu kimi faktlar məlumdur: bell hallarda qabiliyyətli uşaqlar bilik, bacarıq vo vordişloro sürotlo yiyələnirlər; bilik, bacarıq və vərdişlərə yiyələndikcə, onlarda qabiliyyətlərin inkişafı üçün daha olverişli şərait yaranır. Müvafıq sahəyə qabiliyyəti olmayan, ilk vaxtlar özlərinin ancaq biliyi. bacarığı və vərdişləri ilo fərqlənən uşaqlar isə, пeco deyərlor. yalnız «yerində addımlamağa» başlayırlar, yoni inkişaf etmirlor Təsadüfi deyildir ki, müəllimlər görkəmli adamların bir çoxunıııı uşaq vaxtı qabiliyyətlərini görə bilmomiş və onları «adi uşaqlar>» hesab etmişlər.

Qabiliyyətlər bilik, bacarıq və vərdişlərlə qarşılıqlı əlaqədodır. lakin onları eyniloşdirmək olmaz. Əgər müollim hortərollı yoxlama aparmadan uşağırı ancaq müəyyən bilik, bacarıq və vordişlər sistcminə malik olub-olmamasına görə onun qabiliyyotlı və ya qabiliyyətsiz olması haqqında nəticə çıxarırsa, elmi cohətdoıı

422 kobud, praktik cəhətdən isə zərərli addım atır. Bu cəhəti düzgün başa düşmək üçün iki məsələni ayrıca qeyd etmək lazımdır:

a) bilik, bacanq və vərdişlər qabiliyyətlərin inkişafı üçün zəruri şortlərdən biridir. Uşaq müvafıq fəaliyyət sahəsi üçün zəruri olan bilik və bacanqlara yiyələnməyibsə, notda yazmağı, çertyoj çəkməyi, rəsm etməyi və s. öyrənməyibsə, onun musiqi, texniki ve rəsm qabiliyyətləri yaxşı inkişaf edə bilməz. Uşaqların qabiliyyətlorini inkişaf etdirmək üçün onların müvafıq bilik, bacarıq və vərdişlərə yiyələnməsinə ardıcıl surətdə fıkir verilməlidir;

b) qabiliyyətlər bilavasitə bilik, bacanq və vərdişlordo dcyil, onların qazanılma dinamikasında, yəni bütün başqa şərtlər eyni olduqda, bu fəaliyyot üçün zəruri olan bilik, bacarıq və vərdişlərə yiyələnmə prosesinin no qodor tez, dərin, asan və möhkəm icra olunmasında tozahür edir. Bütün başqa şərtlor eyni olduqda («eyni» ifadəsinə diqqət yctirək),.. yoni A. və B. eyni musiqi məktobində, eyni müəllimin sinfındə oxusalar, onların bilik, bacarıq vo vərdişlərə yiyələnməsi sahəsində mühüm fərqli cəhətlər meydana çıxacaq: A. musiqi qabiliyyəti olduğu üçün müvafıq bilik, bacarıq və vərdişləro B.-yə nisbətən daha tez, daha asan, daha möhkəm yiyələnocokdir. Tocrübəli müollimlər həmişə bu cohətə diqqət yetirirlər. Məktəb praktikasında belə hallara az təsadüf olunmur: hər hansı bir şagird dərsliyi bir dəfə oxuyur və **«5»** qiymot alır. Başqa şagird isə **«5»** qiymot almaq üçün dorsliyi on azı dörd-beş dəfə oxuyur. Onların hor ikisi əlaçı olsa da, tocrübəli müollim həmin şagirdlərin qabiliyyətləri arasındakı fərqi görür. Birinci tipli şagirdlorin təlim müvəffəqiyyəti müəllimi qətiyyən tomin ctmir. O, həmişə valideynə şikayət edir: «çox qabiliyyotli uşaqdır. Lakin tənbəllik edir, kifayət qodər çalışmır...»

Beləliklə, nəzərdən kccirdiyimiz xüsusiyyətlərə əsasən qabiliyyotlərə aşağıdakı kimi torif verə bilərik: * Q a b i **1** i y y ө 1 **1** ө r ş ə x s i y y ə t i n f ə r d i - p s i x o - l o j i x ü s u s i y y ə 1 **1** o r i o l u b m ü ə y y ə n f ə a - l i y y ə t i n m ü v ө f f ə q i y y o 1 **1** i i c r a s ı n ı n ş ə r - t i n i t e ş k i l e d i r v ə o n u n ü ç ü n z ə r u r i o l a n b i l i k , b a c a r ı q v o v ə r d i ş l ə r ə y i y ə - l o n m o d i n a m i к a s ı n d a к ı f ə r q l ə r d ə i f a d o o l u n u r .

ElmTtcxniki təroqqi dövründə, bir tərəfdən, yeni fəaliyyəl

sahələri əmələ gəlir, digər tərəfdən, sənayenin avtomatlaşdınl-ması, EHM-lərin, robot texnikasının və s. tətbiqi ilə əlaqədar olaraq əvvəlki fəaliyyət saholəri yeni intellcktual mozmun kəsb edir. Bu şəraitdə şagirdlərin qabiliyyətlərinin hərtərofli inkişaf etdirilnıəsi böyük əhəmiyyət kəsb edir.

## *§ 2. Ümumi V9 xüsusi qabiliyyətlər*

Psixologiyada qabiliyyətlərin vahid və hamı tərofındon qəbul edilən tipologiyası holə işlənilməmişdir. Bu məqsədlə ayп-ayп müəlliflor müxtolif prinsiplərdən istifadə edirlər. Qabiliyyətlorin əsas foaliyyət sahəsinə görə fərqləndirilməsi prinsipi onlann içərisində xüsusi yer tutur. Həmin prinsipə göro, məsələn, texnikı, pedaqoji, bədii qabiliyyətləri, clocə do onlann nisbəton konkrct fəaliyyət sahələri üzro növlərini (mühəndislik, riyazi, musiqi və s. qabiliyyətləri) fərqləndirirlər.

Hor bir fəaliyyət adətən bir neçə qabiliyyətin qarşılıqlı əlaqəsi sayəsində mümkün olıır. 6 №-li cədvəldən bunu aydın görmək olar.

Əgər ayn-ayn foaliyyot sahələri üçün zəruri olan qabiliyyətləri müqayisə ctsək, aydın olar ki, hor bir fəaliyyət daxilində mahiyyət ctibarilə iki növ qabiliyyət toşəkkül tapir. Bunlardan birinciUм psixologiyada ü m u m i q a b i l i y y ə t l e r , ikincilər isl x ü s u s i q a b i l i y y ə t l ə r adlanır.

Ümumi və xüsusi qabiliyyotlərin formalaşması fəaliyyətin özünün strukturu ilə bağlıdır. Foaliyyət saholəri müxtəlifdir. onlardan hər birinin özünəməxsus xüsusiyyətləri vardır, lakin bununla yanaşı hamısı üçün ümumi cəhətlər də xasdır. Ümıımı qabiliyyətlor do mohz bu zəmindo omolo golir və inkişaf edir.

Ümumi qabiliyyətlər dedikdə bir sıra fəaliyyət saholorindo iştirak cdən, onlann bu və ya digər dərəcodə müvəffəqiyyətli icrası üçün sort olan qabiliyyətlər nəzərdə tutulur. Umumi qabiliyyotlər psixi proseslər, birinci növbədə, ali psixi proscslor əsasında formalaşır. Qavrayış, hafızə, təfəkkür, toxəyyül və s. foaliyyot proscsində funksional cəhətdən inkişaf cdərək müvafıq qabiliyyətlorə çevrilir.

Xüsusi qabiliyyətlər iso yalnız müəyyən foaliyyot növünün müvoffoqiyyətli icrası üçün sort olan qabiliyyətlərə deyilir. Lüğət chtiyatı və ifadəli dil, söz assosiasiyalarının zənginliyi ədobi



**Ayrı-ayrı fəaliyyət sahələri üçün zorurı olan qabüiyyotlər**

| edəbi | təsvın | texniki-konstruktiv | pedaqoji |
|---|---|---|---|
| Müşahidoçilik | Tam görmə (qavrayış) | Evristik tipli müşahidoçilik | Didaktik |
| Poctik görme | Nisbətən, işıqlığı (işıq-kölgo arasındakı nisboti) qiymotlon- | Məkan qavrayışı | Konstruktiv (pedaqoji təxoyyül). |
| Surət, hiss və horəkot hafızəsi | dirmə Pcrspcktiv ixtisarlannı qiymatləndirmo Rənu forqləndirmə | Mokan təsəvvürləri Texniki | Pcrscptiv \|-;ksprcssiv |
| Yaraaıu шхаyyuш | | təfəkkür Foza təxəyyülü | Kommuni-kativ Toşkilatcılıq qabiliyyot- |
| Obrazlı təfəkkür | həssashgı Görmə hafızəsi | | |
| Lüğot ehtiyatının zənginliyi və ifadoli nitq Söz assosiasiya-larının zənginliyi | Yaradıcı tnxəyyül Obrazh tofokkür | | lori |

yaradıcılıq, nisbəti, işıqlılığş, perspektivi qiymotləndirmə və rəngləri forqləndirmo həssaslığı; təsviri foaliyyot; mokan qavrayışı ve təsəvvürlori tcxnik» yaradıcılıq; didaktik qabiliyyətlər və s. isə pedaqoji foaliyyot üçün xüsusi qabiliyyətlərdir.

Hor hansı bir fəaliyyəti müvəffəqiyyətlə icra etmək üçün həm ümumi, horn do xüsusi qabiliyyətlərin olması zonıridir. Foaliyyot prosesində onlardan hor birinin öz funksiyası vardır. Bundan asılı olaraq foaliyyətin bir morholəsində, tutaq ki, poetik qavrayış osas rol oynadığı halda, başqa bir mərhələdə obrazlı tofəkkür daha mühüm əhəmiyyət kəsb edə bilər. Lakin bir cohət aydındır: ayп-ayrı qabiliyyətlər eyni bir fəaliyyətin tərkibindo bir-birilo üzvi surətdə vo qarşılıqlı olaqədə mövcud olur.

## *§ 3. QabUiyyətbrltl formalaşması: təbii inıkanlar va faaliyyM*

İnsan qabiliyyotlorinin mahiyyotinin todqiqi qabiliyyotlər haqqında ümumbioloji anlayışı xüsusi insan qabiliyyətlori haqqındakı anlayışdan İərqlondinnəyi tələb cdir.

***Cədvəl 6***

Bəzi psixoloqlar qabiliyyətləri bioloji fcnomcn kimı təhlil ccliff və onun qanunauyğunluqlarını irsiyyot amilləri ilə aydınlaşdırırlaı Halbuki insan qabiliyyotləri ictimai-tarixi xaraktcr daşıyır.

Qabiliyyətlərdon danışarkən, biz, birinci növbədə, insamn təbiətini ifadə cdən xassələri nozərdo tuturıiq. Bıı xassolof bəşəriyyətin ictimai-tarixi xassələrinin inkişafı mohsulu olsa ***Щ*** irsən təsbit olunmurlar. Onlar nəsildon-nəslo hər bir ycni noslifl həyatı boyu özündən əvvəlki nəslin inkişaf nailiyyətlomm yiyələnməsi yolu ilo verilir; buna uyğun olaraq insanların ontogenetik inkişafının ən başlıca məzmunu ondan ibarət olur kı. onlar insanlann tarixi inkişafının nailiyyotlərino yiyələnirlər (v§ məhz bu əsasda sonrakı təroqqinin subyckti olurlar).

İnsan qabiliyyətlərinin tarixi inkişafı prosesinin ardıcıllıflı onunla şortlonir ki, nəsillərin nailiyyətlori morfoloji cəhətdon, ***ЬI*** dəyişikliklər qaydasında deyil, onların fəaliyyotinin obycktıv məhsullan - maddi vo ideal formasında tosbit olunurlar (bıı. oməyin vo insan fəaliyyətinin başqa fonnalarının prinsip ctibarılti məhsuldar xaraktcr daşıması sayosindo baş verir). İnsanlar homıtt obyektiv məhsulları mənimsəyərkən hom do onlarda həк| olunmuş insan qabiliyyətlərinə yiyələnirlər. Bu aydın şokildo göstorir ki, insanın istor ümumi, istərsə də xüsıısi psixi xassolort ontogenetik inkişafın məhsuludur.

İnsanlann anadangəlmə təbii imkanlan eynı deyildir. Diqq«»u «anadangolmo» sözünə colb ctmək istəyirik. Təbii imkanlar dedikdə, qabiliyyətlərin inkişafının əsasını təşkil edon anatomık fızioloji xüsusiyyətlər nəzərdə tutulur. Anatomik xüsusiyyotloro beyinin mikrostrukturu, bədonin konstitusiyası, gözün, qulağın, sot tellərinin, əl və ayaqların və s. quruluşu; fizioloji xüsusiyyətloni isə ali sinir fəaliyyətinin xüsusiyyətləri aiddir.

Psixologiyada «təbii imkanlar» anlayışına orqanizmın anatomik-fizioloji xüsusiyyətlori ilo yanaşı olaraq psixofizioloji xassələrini do daxil edir və bu sonuncuları əsas cohot kimi şorh edirlor. Psixofizioloji xassə dcdikdə, hər şeydon əvvəl, fəaliyyott yiyələnmonin lap ilkin mərhəlosində uşaqda, bəzən isə müntəzeıd surətdə müoyyon fəaliyyətlə məşğul olmayan yaşlılarda özunü göstərən incə rəng fərqləndirmə hossaslığı, görmo hafızosi, musıql eşitmo hossaslığı və s. kimi xassolər başa düşülür. Bclo t.tbıi imkanlar, insan onlara bu və ya digor dorəcodə adckvat oUfl müəyyon qıcıqlayıcı, obyekt ilə təmasda olarkon özünü göstonr



Məsələn, musiqi, mənzərə vo s.-nin qavranılması zamanı müvafiq tobii imkanlara malik olan uşaqlarda yüksək hissi-hərəki həssaslıq vo həmin foaliyyətə meyl aydın tozahür edir.

Son zamanlar aparılmış fizioloji vo psixoloji tədqiqatlar təbii ımkanların mahiyyətini yeni faktlar əsasında aydınlaşdırmaq imkanı verir. Əsas affercntasiya prinsipi bu cəhətdən xüsusi ohəmiyyətə malikdir. Məlumdur ki, müxtolif analizatorlar sistcmi özlərinin fizioloji paramctrləri etibarilə bir-birlərindən fərqlənirlər. Müxtəlif analizatorlar özlərinin funksional xassələrinin mükəm-məlliyindən asılı olaraq insanın həyat foaliyyətindo müxtəlif rol oynayırlar.

Əsas afferentasiya ayn-ayn adamlarda onların fərdi fərqləri kimi tozahür edir. Bu müddəa insanın hafızəsi, təsəvvürləri, yaradıcı təxəyyülü sahəsində aparılan müşahidələrlə do təsdiq olunur. Məsələn, hafizənin görmə, eşitmə, hərəkət hafızosi kimi tiplori psixologiyada çoxdan məlumdur.

Nəzərə almaq lazımdır ki, sinir sistemini bütövlükdo xarakterizə cdən ümumi tipoloji xassələrlə yanaşı olaraq bey in qabığının ayп-ayп sahələrinin işini xarakterizə edən partsial, xüsusi tipoloji xassələr də mövcuddur. Əgər sinir sistcminin ümumi xassəlori ümumi qabiliyyətlər problemi üçün əhəmiyyotə malikdirsə, xüsusi xassələr xüsusi qabiliyyətləri öyrənərkən mühüm əhəmiyyət kosb edir. Yəni xüsusi (partsial) xassələr temperament problemi ilo deyil, xüsusi qabiliyyətlər problcmi ilə elaqədardır.

Adəton tobii imkanlar qabiliyyətləri təşokkül etdirən qüvvə kimi deyil, yalnız onların inkişafının zoruri şərti kimi nəzərdən keçirilir. Tobii imkanlar qabiliyyətlori və onların inkişaf soviy-yəsini qabaqcadan müəyyən etmir: yalnız, bir torəfdon, qabiliyyətlərin təşəkkületmə yolunu, digər tərəfdən, onların fordi quruluşunu xarakterizə cdən xüsusiyyətləri şərtləndirir. Qabiliy-yotlor insanın yalnız müəyyən həyat və fəaliyyəti şəraitində inkişaf edə bilər. Məsələn, mütləq eşitmə bir qabiliyyət kimi uşaq ilk dəfə səsin yüksəkliyini tanımaq zərurəti qarşısmda qalandan sonra, başqa sözlə, musiqi fəaliyyətindo formalaşır. Musiqi foaliyyətinə qədər anatomik-fızioloji amil kimi ancaq müvafiq tobii imkan mövcud idi. Başqa bir misal. Adamların əksəriyyəti qara rongin yalnız 2-3 çalarını fərqləndirdikləri halda, qara parça istehsalı üzrə ixtisaslaşmış mütəxəssislər onun 40-a qədər çalarını

 ayırd edirlər. Adi hallarda insan işıq zolağını yalnız 0,01 millimetre qədər forqləndirə bilər. Təcrübəli cilalayıcı fohlə iso 0.O0O* millimetr işıq zolağını ayırd edə bilir. Təsadüfı deyildir ki, insanlarda əsas affcrcntasiyanın yaranmasında da fəaliyytj həlledici rol oynayır. Yəni, «əsas afferentasiya» əsas hoyat fəaliyyəti birinci siqnal sistcminin nisbi üstünlüyünün inkişafı üçün şərait yaradan adamlarda - musiqiçilərdə, rəssamlarda, idmaıı çılarda və başqalannda xüsusi olaraq kəskin təzahür ctmolidir.

Müxtəlif eksperimental materialların təhlili göstərir kı, qabiliyyətlor müvafiq konkret fəaliyyətdon konarda toşəkkül cdo bilməz. Qabiliyyətlorin müvafiq tobii imkanlar əsasında təşəkkülu və inkişafı fəaliyyotin motivlərindən, məzmunundan, xüsusiyyot-lərindən və inkişaf səviyyəsindən asılıdır. Bu fıkri osaslandırmaq üçün hamıya öz təcrübəsindən bəlli olan belə bir misal göstərmok olar. Nitqə yiyələnmək üçün insan beynino məxsus xiisusi siıır mexanizmləri

tələb olunur. Şübhəsiz ki, insan beynində dill yiyəlonmək üçün bəzi təbii şərtlər vardır. Lakin uşağın hansı dildj danışmağa və fıkirləşməyə başlaması beynin təbii xüsusiyyəu' lərindon, anadangəlmə mcxanizmlərdən dcyil, nitq əhatəsindon. hoyat təcrübəsindən asılıdır.

Təbii imkanlar da belodir. Tobii imkanlann qabiliy\. н.• çevrilib-çevrilməməsi fəaliyyətdən asılıdır. Lakin qeyd etmək la-zımdır ki, qabiliyyətlərin morfofızioloji əsasları məsələsini yalııı/ təbii imkanlarla məhdudlaşdırmaq olmaz.

A. N. Leontyevin fıkrincə, insanda təbii qabiliyyətlorlə (rnose* lən, rəng fərqləndirmə həssaslığı və s. ilo) yanaşı olaraq. insanaməxsus qabiliyyotlor (ikinci növ qabiliyyotlor) də vardır Buraya nitq, musiqi, konstruktorluq qabiliyyotlori vo s. daxildıı Əgər təbii qabiliyyotlor foaliyyot prosesindo anadangəlmə tobii imkanlar osasında əmələ gəlirsə, «ikinci növ qabiliyyətlər» başqt şokildo formalaşır. Bu qabiliyyətlorin beyin mexanizmləri, insan əvvolki nosillərin ictimai-tarixi təcrübəsinə yiyolondikcə onun fərdi inkişafı proscsində təşəkkül tapır. Yoni «ikinci növ» qabiliyyotlərin maddi bazasını ycni funksiyalar icra edon fızioloјı orqanlar - möhkəm rcflektor birləşmə vo sistcmlor toşkil cdır Onlar fonnalaşdıqdan sonra vahid orqan kimi foaliyyot göstərirlor

Ycni funksional orqanlar asanlıqla dəyişo, onların ayn-ayn tərkib hissələri başqaları ilə əvəz oluna bilər. Başc|a sözlo, onlar yüksək kompensasiyaetmə qabiliyyətinə malikdir.



Bcloliklə do aydın olur ki, qabiliyyətlərin morfofızioloji esasları məsəlosini yalnız tobii imkanlarla əlaqələndirmək səhv olardı. Qabiliyyətlərin inkişafında beyinin ontogenezdə təşəkkül cdən fızioloji orqanları da mühüm rol oynayır.

Bundan başqa, belə güman etmok olmaz ki^hər bir fəaliyyəto xüsusi təbii imkan uyğun golir. Tobii imkan çoxmənalıdır, başqa eözlə, eyni bir tobii imkan əsasında həyat şəraitinin və fəaliyyətin necо davam etməsindən asılı olaraq müxtəlif qabiliyyotlor omolə golo bilər.

Uşağın hansı dildə danışacağı nitq əhatəsindən asılı olduğu kimi, tobii imkanlann qabiliyyotloro çcvrilmosi, toşəkkül cdon qabiliyyətin məzmunu və quruluşu fəaliyyətin xarakteri ilə şertlənir.

Fəaliyyətin hor bir növünün öz xüsusiyyətləri vardır. Hər hansı bir müvafiq psixi proses müəyyən bir fəaliyyətin bodii vo ya tcxniki, təsviri və ya clmi, ifaedici və ya omoli foaliyyətin tərki-binə daxil olmaqla onun xüsusiyyətlərinə uyğun surətdə inkişaf cdir. (Qabiliyyotlor sahəsində özünü göstərən bclə, necо deyərlər, ixtisaslaşma tarixən ictimai əmək bölgüsünün əmələ gəlmosi və ictimai şüurun müxtəlif formalannın - incəsənət, elm və s.-nin meydana çıxması zominindo mümkün olmuşdur.) Bunu müxtəlif foaliyyot sahəlorində, məsələn, təxəyyülün və ya təfəkkürün bir qabiliyyət kimi fonnalaşmasında asanlıqla görmək olar.

Fəaliyyətin xarakterindən asılı olaraq təxəyyül ədəbi yaradıcılıqda, necо dcyərlər, bədii təxəyyül kimi, texniki yaradıcılıqda isə fəza təxəyyülü kimi formalaşır. Hor iki halda toxoyyül yeni surətlərin yaradılması proscsi kimi təzahür cdir. Lakin toxəyyül ədəbi yaradıcılıqda xarici alomi bədii şəkildo oks ctdiron surətlərin yaradılması istiqamətində corəyan etdiyi halda, texniki yaradıcılıqda foza fonnaları, münasibətləri və texniki detalların yenidon işlonilməsi osasında yeni konstruksiyalar yaratmaq məqsədinə xidmət edir. Beləliklə də, fəaliyyətin bilavasitə təsiri nəticəsində şairin təxəyyülü bəstəkarın təxəy-yülündən, rəssamın təxəyyülü konstruktorun təxəyyülündən fərqlənir. Hətta cyni bir fəaliyyətin nisbətən dar sahələrində belə toxəyyülün inkişafında özünəməxsus cəhətlor inkişaf cdir. Məsəlon, ədəbi yaradıcılıqda şairin, dramaturqun və nasirin toxəyyülünü müqayisə etsok, asanlıqla onlardan hər birinin təxəyyülü üçün xarakterik olan cəhətlori ayırd cdə bilərik. Yaradıcı

 fəaliyyətin müxtəlif sahələrində tofəkkürün inkişafı haqqında da cyni sözləri dcmək olar.

Şairin müşahidəçiliyi ilə konstruktorun müşahidəçiliyini, obrazlı təfəkkürlə texniki tofokkürü müqayisə ctsok, onlarııı arasında ümumi cəhətlərlə yanaşı olaraq müvafiq fəaliyyotın xüsusiyyətlərini oks etdirən özünəməxsus cəhətlərin də olduğuıu görərik.

Akademik İ. P. Pavlovun siqnal sistemləri haqqındakı təlimi bu məsələni, ümumiyyətlə götürüldükdə isə, qabiliyyotlor sahəsindo özünü göstərən fordi fərqlər məsələsini ətratİı aydınlaşdırnıaq imkanı verir. Böyük alim siqnal sistemlərinin qarşılıqlı əlaqəsino görə insana məxsus 3 tip - bədii, mütəfəkkir vo orta tip müəyyon etmişdir. İ. P. Pavlovun fıkrincə, insanın düşdüyü şəraitin, hoyat torzinin, tohsil vo tərbiyənin tosiri nəticosindo onun ali simr fəaliyyətindo ya 1-ci siqnal sistemi əsas yer tutur (bədii tip), ya da 2-ci siqnal sistemi üstünlük kəsb edir (mütəfəkkir tip), yaxud bunlann hər ikisi eyni dərəcədo inkişaf edir (orta tip).

Oxuculann diqqətini mühüm əhəmiyyətə malik olan birçəhoto cəlb etmək istəyirik. Görkomli sovet fızioloqu A. Q. İvanov Smolenskinin qcyd etdiyi kimi, İ. P. Pavlovun ali sinir fəaliyyoti tiplərino həsr olunmuş tədqiqatının əsasında hor iki siqnal sisteminin münasibəti məsələsi qoyulmı^dur. ü. bir siqnal sisteminin o biri üzərində yalnız nisbi üstünlüyünü qeyd edir.

Ümumiyyətlə götürsək, 2-ci siqnal sistemi (fıkri fəaliyyət) l-ci siqnal sisteminə (obrazlı-emosional fəaliyyətə) üstünlük təşkil edir. Bu, mütləq xarakter daşıyır, çünki dil və tofokkür insanın ənıok fəaliyyətindo həlledici rol oynayır. Əgər sözü, 2-ci siqnal sistemını S, obrazı, 1-ci siqnal sistemini Sj ilə

ifadə etsək, həmin asılılı£ı riyazi tbrmada belə ifado edə bilorik: S>Sj. 1-ci siqnal sisteminm 2-ci siqnal sistemi üzərindəki nisbi üstünlüyü (bodiı tip) belo ifado edilə bilor: S>S|+/> (burada p bədii tip nümayəndolori üçüıı xarakterik olan emosional və obrazlı görmənin xüsusiyyotlənm bildirir). 2-ci siqnal sisteminin 1-ci siqnal sistemi üzərindəki nisbı üstünlüyü (mütəfəkkir tip) iso belo ifado edilo bilor: ***S+m*** > S, (burada ***m*** xarici aləmə mütəfəkkir tip üçün xarakterik olan mücorrəd, sözlü - məntiqi münasibəti göstərir).

Göründüyü kimi, bir siqnal sisteminin başqası üzərindəki nisbı üstünlüyü məsələsini 2-ci siqnal sisteminin 1-ci siqnal sitcmi üzərindəki mütləq üstünlüyü məsələsi ilə qanşdırmaq olmaz. Әк» 430 halda belo bir tosəwür yaranar ki, bodii tipdo guya intellcktual foaliyyət zəif inkişaf etmiş olur. Bu, ciddi sohv olardi. Bir siqnal listeminin o biri siqnal sistemi üzərindəki nisbi üstünlüyü bodii, miitofokkir vo ya orta tipin təfəkkür tərzində özünəməxsus cohətlərin formalaşmasını şərtləndirir. İ. P. Pavlov bu xüsusiy-yotləri belə xarakterizə edir: bəzi adamlar yaxşı düşünürlər, lakin konkret, real surətdə fıkirləşmirlər, onlarda birinci vo ikinci siqnal sistemlori arasındakı əlaqə xeyli zəifdir: başqalan isə, əksino, belo •ğıllı vo məntiqi düşünsələr də, söz arxasında real təəssüratı, yəni birinci siqnallan görməyə meyl edirlər. Onlann xarici alomlə elaqəsi birinciləro göro daha yaxındır... Onlann hər ikisi ağıllıdır, lakin onlardan birinin mühakiməsi gerçəklikdən uzaqdır, o birisi iso gerçəkliyi olduğu kimi əks etdirir. İ. P. Pavlova görə, ikinci siqnal sisteminin birinci ilo əlaqəsi mütəffəkir tipdə zəif, bodii tipdo qüvvotlidir. Orta tipdo iso birinci vo ikinci siqnal sistemilorinin hor ikisi eyni dərocədə inkişaf edir.

Siqnal sistemlorinin inkişaf xüsusiyyotlorindən asılı olaraq bu vo ya digor tipo monsub olan şagirdlor qavrayış, təsəvvür vo hafızo materiallanndan da müxtəlif tərzdo istifadə edirlər. Mosolon, bodii tip nümayəndələri konkret vo cmosional surətlər yaratdiqlan halda, mütəfəkkür tipo monsub olanlar yeni surotlor yaradarkon mühakimə yürütməyə daha çox mcyl göstərirlər.

### *§ 4. Qabiliyyət və istedaä*

Müasir psixologiyanın aktual problemləri içərisində istedad problemi xüsusi yer tutur. Bu, hər şeydən əvvəl, onunla bağlıdır ki, qabiliyyətlorin fəaliyyət prosesində qarşılıqlı əlaqəsinin təhlili tokco elmi-nəzəri məsələ deyildir. Onun böyük praktik ohəmiyyoti vardır.

İstcdad dedikdə qabiliyyətlərin bir vo ya bir neçə fəaliyyətin müvəffəqiyyətli icrası üçün sort olan özünoməxsus birliyi nəzərdo tutulur.

Əgər müşahidoçilik, poetik görmo, surət, hiss və hərokot hafızəsi, yaradıcı təxəyyül, obrazlı təfəkkür, lüğət ehtiyatının zonginliyi vo ifadəli dil, söz assosiasiyalarımn zənginliyi kimi müxtəlif qabiliyyotlor ədəbi fəaliyyət daxilindo üzvi surətdə I birloşib onu müvəffəqiyyətlə icra etmoyə imkan verirsə, bu ədəbi I istedaddır. Eyni sözlər istedadın başqa növlərinə də aiddir.

431

Psixologiyada vaxtilə «istedad» termini daha çox tobi imkanlann mocmuyunu ifado edon anlayış kimi do işlodirdilər Lakin psixoloji tədqiqatlar göstərir ki, istedad anlayışını bioloj' kateqoriya kimi nəzərdon keçirdikdə, o, öz mənasını itirir Qabiliyyət vo istedad da insan foaliyyətinin özü kimi ictimai-tari xarakter daşıyır.

Bu və ya digər foaliyyot sahəsinə qabiliyyət və istedad inkişafı, hər şeydən əvvol, insanın ictimai-tarixi inkişaf şəraitin dən, cəmiyyətin maddi həyat şəraitindon asılıdır.

Qabiliyyot və istedad əmok fəaliyyətinin konkret, tarixən inkişaf edon forıııalarından tocrid olunmuş şokildə izah edilə bilmoz. Onlar konkret tarixi dövrdə fəaliyyətin ictimai cəhotdən əhomiyyətli olan hansı növlorinin təşokkül ctmosindən və «foaliyyotin müvoffəqiyyətli icrası» dedikda hansı meyarın başa düşülməsindən tamamilo asılıdır. Bu meyardan asılı olaraq hər hansı bir ictimai quruluşda istcdadın bu və ya digər xüsusi növü haqqındakı anlayışın da mozmunu əhəmiyyətli dərəcədə doyişilir. Mosələn, «musiqi qabiliyyotləri» və ya «musiqi istedadı» anlayışı bir səsli mahnıdan başqa digər musiqi bilməyən xalqlardan forqlı olaraq müasir adamlar üçün başqa məzmuna malikdir.

### **2.** Qabiliyyotlərin ölçülməsi və əqli inkişaf omsalı

Qabiliyyotlor noinki kcyfiyyot, həm do komiyyot baxımından bir-birlorindən fərqlonirlor. Q a b i l i y y o t l o r i n ö l ç ü l - m o s i dedikdə, onlann komiyyot cohətdon xarakterizə olım masını nəzordo tuturlar.

Psixologiya tarixində ölçmə ideyası ilk dofo nolo XVII osrin 30-cu illərindo iroli sürülmüşdü. Psixometriya (yunanca psuxhe ruh. metreo - ölçü dcmokdir) termini do məhz həmin illordo өтөи golmişdir. Bu haqda müxtəlif

filosoflar, tobiotşünaslar vo riyaziyyatçılar torofindon maraqlı fikirlər iroli sürülsə do, qabiliyyotlərin ölçülmosi sahəsində ilk mühüm addım XIX əsrdn atılmışdır.

XIX osrdə, 60-cı illərin sonu - 70-ci illorin ovvollorindon başlayaraq yeni ekspcrimcntal istiqamətlə yanaşı başqa (Fexncrın tədqiqatlarından forqli olan) bir istiqamot - fərdin psixologiyan sahəsində riyazi mctodlarm tətbiqi istiqamoti do formalaşırdı



İngilis alimi Haltonun tədqiqatları həmin sahənin inkişafında mühüm rol oynamışdır.

Halton fərdi fərqlər psixologiyasının banisi hesab olunur. Onun «Talantın irsiliyi» (1869), «İngilis alimləri: onların təbiəti vo tərbiyəsi» (1874), «İnsan qabiliyyotlərinin və onlann inkişafının tədqiqi» (1883) və b. əsərlərində fərdi forqlor psixologiyası ve testlər metodunun bir çox mühüm məsələləri ilk dəfə özünün geniş əksini tapmışdı.

Haltonun bir alim kimi təfokkürü o zaman toşəkkül edon eksperimental - psixoloji istiqamot çərçivəsində formalaşsa da, onu insanlar arasındakı fərdi fərqlorin genetik (irsi) osasları maraq-landırırdı. O, bu məqsodlo ycni eksperimental modellər axtarır, əkizlor metodunu kəşf cdir, əqli keyfiyyətlərin mənşəyini öyrənmək üçün bioqrafik metodla yanaşı anket metodundan istifadə edir, fərdi forqlərin qanunauyğunluqlarını riyazi düsturlarla təsvir etmək üçün yollar axtanrdı. Halton bu sahədə metodik vasitə kimi statistikadan istifadə etdi (o, hələ gənclik illərində müasir statistikanın banilərindən birinin - Belçika alimi A. Keqlenin (1796 - 1874) əsərlərini, xüsusilə onun «Sosial fizika» əsərini öyrən-mişdi).

Halton 1884-cü ildə Londonda Beynəlxalq sağlamlıq sorgi-sində Antropoloji laboratoriya təşkil etdi (sonralar həmin Iabo-ratoriya Cənub Kensinqtan muzeyinə verildi). Qısa müddət ərzində Antropoloji laboratoriyada 10 minə qədor adamın boyu, çəkisi və s. ilo yanaşı olaraq müxtəlif psixoloji xüsusiyyətlori, eləcə də qabiliyyətləri ölçüldü.

Halton özünün Antropoloji laboratoriyasında apanlan sınaqları əqli testlor (ingiliscə test - sınaq deməkdir) adlandırdı. Bütün psixoloji anlayışlardan fərqli olaraq bu tennin Qərb ölkələrindo tezliklə ən kütləvi terminə çevrildi. Kettelin 1890-cı ildə «Mind» jurnalında dorc olunmuş «Əqli testlər və ölçmələn> adlı məqa-ləsindən sonra isə test termini psixologiyada sözün osl mənasında vətondaşlıq hüququ qazandı.

Test metodunun əsas anlayışlarını tarixi planda nəzərdon keçirək.

Kettel Vundtun laboratoriyasında eksperimental metodları öyrənon ilk amerikan alimi idi. Onu daha çox fərdi fərqlor problcmi maraqlandırsa da, Vundt bu məsələyo əhəmiyyət vermirdi. Buna görə do Kettel Leypsiqdəki psixoloji laboratoriyanı tork edib Haltonun laboratoriyasına gəldi. O, Haltonun fərdi-psixoloji keyfiy-yətləri ölçmək üçün istifadə etdiyi mctodlan, xüsusilə əqli testləri böyük ruh yüksəkliyi ilə qəbul etdi.

Kettel öz məqaləsində yazırdı: «Əgər psixologiya ekspcrimcnt və ölçməyə əsaslanmasa, fizika kimi möhkəm və dəqiq elmo çevrilə bilməz. Bu sahədə əqli testlər seriyasını daha çox fərdləro tətbiq etmək yolu ilə iroli getmok olan>. O, moqalədo əqli testlər mctodunun xalis elmi əhəmiyyotini qeyd ctməklə yanaşı olaraq onun praktik tətbiqi məsələlərinə diqqəti xüsusilo cəlb edirdi.

Kettel nümunə kimi 50 test toklif etdi və ABŞ-a qayıdan kimi onları tətbiq etməyə başladı. Testlər mctodu A3Ş-da başqa psixoloji laboratoriyalann da diqqətini artıq cəlb edirdi. Qısa müddət ərzindo bu sahədo xüsusi olaqələndinnə mərkozləri təşkil etmək zərurəti yarandı. 1895—1896-cı illərdə ABŞ-da testologiya üzro iki milli komitə yaradıldı. Dünyanın müxtəlif ölkələrində A. Bine, Q, Ebbinhauz, V. Ştcrn, E. Torndayk, Q. Myünsterberq, Q. Müller, R. İerks kimi psixoloqlar müxtəlif testlər yaradılmasında fəal iştirak edirdilər. Bir tərəfdən, məktəbin, təbabətin, istehsalatın chtiyaclarını ödəmək üçün tcstlərdən geniş istifado olunurdu, digər tərofdən iso fordi fərqlor haqqındakı məlumatların işlənilməsi texnikası doqiqləşirdi.

Biologiyada, antropologiyada, tobabətdə insanın (eləco dftl hcyvanın) təbii xassələrini ifadə ctmək uçün konstitusiya (latınca constitutus - müəyyoo olunmuş, davamlı qurıılu> dcmokdir) tcrminindon istifado olunur. Psixologi* yada da bıı tcrmin honıın mənada işlonilir. Konstitusiya tcrmmı bir cox hallarda dar mo- nada bodon quruluşu tıpı. qabitus (zahirı görkom), somatıp. insanın llzıkı xüsusiyyətləri kimi ba>a düşülür ki, bu da пм solənin şorhindo müoyyfl çətinliklor yaradır. Hu coholi nozoro alaraq in«h< nm ümum] vo xüsusi k(>n| titus.yasm. forqlondirirli

Ümumi konstitusiya

a)

Neyrodinamik

Fizioloji

Biokimyəvi

b)

Cismani

Xromosom

Şok.l 50. Insanın funksıonal (a) və morfolojı (b) konstıtusıyası

490 (V.M.Rusalov vo b.) Ümumi konstitusiya dedikdo, orqanizmin bütövlükdə fərdi-tipik xassolərinin məcmusu, bütün fıziki vo fizioloji xassələrinin funksional vəhdəti nəzərdə tutulur. Xüsusi konstitusiyanı isə aşağıdakı iki əsas sinfə bölürlor:

a) morfoloji konstitusiya;
b) funksional konstitusiya.

Şəkil 50-də insanın konstitusiyasının sxematik təsviri verilmişdir.

Morfoloji konstitusiyanı nəzərdən kcçirərkən mikrofiziki vo makrofiziki konstitusiyanı fərqləndirmok lazımdır. Mikrofiziki konstitusiya insan orqanizminin bütün hüceyrələrinə xas olan fıziki olamotlərin (onlann ölçüsü, nisbəti vo s.) məcmusundan ibarotdir. Burada söhbot, hər şeydon əvvəl, bütün hüceyrəlor, bütün orqanizm üçün vahid olan xromosom toplusundan gedir. Hal-hazırda müasir elcktron tcxnikası sayəsindo mikrofiziki konsti-tusiyanı da öyrənmok mümkün olmuşdur.

Makrofiziki konstitusiya iso makromorfoloji əlamətlərdən və ya orqanizmin cismani əlamələrindən - insanın somatotipindən, morfotipindən - fizioloji ibarotdir. Xüsusi konstitusiyanın bu növü (yəni bədon quruluşu) onun digər növlərindən bir cəhətdən xüsusilo fərqlənir: o, bütövlükdə orqanizmin asanlıqla müşahidə olunan hissəsidir. Təsadüfı dcyildir ki, insanın konstitusiyası anlayışmda məhz bədən quruluşu, somatotip xüsusi yer tutur.

Funksional konstitusiya, şübhəsiz ki, daha böyük əhəmiyyətə malikdir; 50 №-li şokildon göründüyü kimi, buraya neyrodinamik, fizioloji və biokimyəvi konstitusiya daxildir. Onların içərisində neyrodinamik konstitusiya xüsusi rol oynayır: orqanizmin mühitlə qarşılıqlı əlaqəsi tam şəkildə məhz neyrodinamik konstitusiya vasitəsilə təmin olunur. Lakin buna baxmayaraq insanın konstitu-siyasını öyrənən alimlər uzun müddət orqanizmin neyrofizioloji xassolərino laqcyd yanaşmışlar. E. Kreçmerin və U. Şeldonun tipoloji tədqiqatlan buna misal ola bilor. Onlar neyrofizioloji amilləri nəzərə almadan şəxsiyyətin psixi xassələrini bilavasitə onun somatik xaraktcristikaları ilə müqayisə etməyə, xaraktcrin olamətlərini birbaşa insanın bədən quruluşu ilə izah ctməyə çalışmışlar. E. Kreçmer və U. Şeldonun metodoloji baxımdan əsas səhvi də məhz bundan ibarət idi.

Elm tarixində akademik İ. P. Pavlovun ən böyük xidməti isə elə onda idi ki, o, insanın temperament xassələrinin formalaş-

491 masında neyrofizioloji (sinir) amillərin həlledici rol oynadığını ilk dofo olaraq əsaslandırdı. Sovet psixologiyasinda Pavlov moktobi osasinda diinya psixologiya elmini zonginləşdirən yeni istiqamot (B. M. Teplov, V. D. Nebılitsın, V. S. Merlin vo b.) formalaşdı vo fərdi-psixoloji fərqlərin öyrənilməsi sahəsində əsl pcrspektivhn açıldı.

Bir cəhətə diqqot yetirək: akademik İ. P. Pavlovun, eləcə do **B.** M. Teplovun və onun əməkdaşlannın tədqiqatlarında sinir sisteminin xassələrindən

xarakterin deyil, yalnız temperamentin - psixi fəaliyyətin dinamik xususiyyətlorinin asılı olduğu sübut edilmişdir. Sovct alimləri xarakterin sosial amillərlo şortlondiyini göstorir-dilər. Halbuki E.Kreçmer vo U. Şeldon istor temperamentin, istərsə do xarakterin bilavasitə bodənin quruluşundan asılı olduğunu iddia cdirlər.

Xarici ölkolərin diferensial psixologiyasinda xarakterin bioloji amillərlə şərtlənməsi haqqinda fikirlər uzun muddət hakim olmuş, fərdi-psixoloji xususiyyətlərin şəxsiyyətin həyat tərzindən, onun sosial-iqtisadi və mədəni inkişaf şəraitindən asılı olması inkar cdilmişdir.

Rus alimləri (V. S. Merlin və b.) insanın fərdi-psixoloji xassolorini sistem nozoriyyosi baxımında öyrənirlər. Onlar bu isti-qamətdə aşağıdakı sistemləri fərqləndirirlər:

1. **Orqanizmin fərdi xassolori sistemi:**
   a) biokimyəvi xassələr;
   b) ümumisomatik xassələr və neyrodinamik xassələr (sinir sisteminin xassolori).
2. **Fərdi psixi xassolərin sistemi:**
   a) psixodinamik xassələr (temperamentin xassolori);
   b) şoxsiyyətin psixi xassolori.
3. S o s i a l - p s i x o l o j i **fərdi xassələr sistemi:**
   a) sosial qrup vo kollektivlordo sosial rollar;
   b) sosial-tarixi ümumiliklərdə (etnik qnip, xalq) sosial rollar. Bu tədqiqatlar insanin fordi-psixoloji xassolorini sistemli

şəkildə öyrənmək imkanı verir. Beləliklə do, bir torofdon, temperamentin mahiyyotini, digor torofdon, temperamentlo xarakterin qarşılıqlı əlaqəsini, nəhayət, xarakterin sosial şortlorini aydınlaşdırmaq üçün böyük perspektivlor açılır.

Bədən quruluşunun xarakterin formalaşmasındakı rolu haqqındakı məsəlo ilo əlaqədar olaraq bir cəhəti do qeyd etmək la/ımdır. Biz yuxarıda karliklərin boyu haqqinda danışarkon bu

 mosələyə oslindo diqqoti cəlb etmiş vo insanda bioloji amillərin sosial xarakter kəsb etməsini göstərmişdik. Bodən quruluşu ilə əlaqodar olaraq həmin məsələni belo formulə etmək olar: insanlar özlorinin zahiri görkəmi, fiziki siması etibarilə bir-birlorindən koskin surətdə fərqlənirlər. Astenik, atletik və piknik tipli adamları müqayisə etsək, bu cəhəti aydm görə bilorik. Yaş, cins, sağlamlıq vəziyyoti və s.-don asıh olaraq insanlar fiziki simanı, zahiri görkəmi müxtəlif meyarlarla qiymətləndirirlər.

Qarşıya sual çıxır: insanin zahiri görkəminə ətrafdakı adamların münasibəti onun xarakterinin formalaşmasında bu vo ya digər dərəcodo rol oynaya bilirmi? Qeyd etmək lazımdır ki, bu yeni məsələdir. E. Kreçmer və U. Şeldon bədən quruluşunun xarakterin formalaşmasmda rolunu aydınlaşdırarkən psixoloji cəhətdən maraqlı olan həmin məsələyə toxunmamışlar. Müasir psixologi-yanın nailiyyotləri həmin məsələləri yeni faktlar əsasında aydın-laşdırmaq imkanı vcrir. Bəzi tədqiqatlann nəticoləri ilə tanış olaq.

Psixoloji tədqiqatlar göstərir ki, adamların bədon quruluşuna münasibəti eyni deyildir. Bir tədqiqat zamanı II, IV vo VI sinif şagirdlərinə onlarla həmyaşıd olan oğlan və qızların üç səpkidə -arıq, kök vo normal bədən quruluşunda təsvir olunmuş şəkilləri toqdim olunmuşdu. Şagirdlərə həmçinin 56 sifət - söz (yaraşıqlı, gözəl və s.) yazılmıs siyahı verilmiş və şəkilləri həmin sifot -sözləro əsasən xarakterizo etmək təklif olunmuşdu. Şagirdlərin, demək olar ki, hamısı kök fiquraya monfi münasibot bəsləmiş, nonnal bədən quruluşuna daha çox üstünlük vermişlər.

Bundan başqa, psixoloqlar şagirdlərin dostlarını müəyyən ctmiş, onların bir-birlorinin bədən quruluşlarma miinasibətlərini müqayisoli şəkildə nəzərdən keçirmişlər. Bu zaman maraqh faktlar molum olunmuşdur. Məsələn, müəyyən edilmişdir ki, tədqiqatm birinci hissəsindo kök fiqurali şəklə müsbət münasibət bəsləyən şagird əslində kök həmyaşıdlan ilo dostluq edir. Bu onunla bağlıdır ki, adamlar tanış adamla tanış olmayan adamların bədən quruluşunu eyni mcyarlarla qiymətləndinnirlər.

Lakin, bununla bclo, müxtəlif bədən quruluşlu adamlar haqqinda adi şüur səviyyəsində olsa da müxtəlif stereotiplər mövcuddur. Bu stereotiplor, bir torofdon, bizim başqa adamlarla münasibətlə-rimizdə oks olunur. Digor torofdon iso özümüz haqqındakı təsəv-vürlərimizin formalaşmasma təsir göstərir. Bir sıra haliarda, məsə-lən, şagird kollektivində oğlan vo qızlardan hər hansı birinə «uzundraz», «gombul», «törə», «cırtdan» vo s. kimi ləqəblər

qoyulduqda, bu cəhot xüsusilə aydın nəzərə **caф1r.** Oğlan və ya qızın zahiri görkəmində özünü göstərən hər hansı bir fıziki qüsur onun üçün psixoloji məna kəsb cdir. Şagird başqa adamların - istor həmyaşıd yoldaşlannın, istorsə do yaşlılann, xüsusilə valideynlərin vo müəllimlərin özünün zahiri görkəminə reaksiyalannı həssas-hqla fərqləndirdikco, onun davranışında müəyyən dəyişikliklor müşahidə olunur. Uşağın özünə verdiyi qiymətlər dəyişilir. Bu əsasda da onda müəyyon xarakter əlamətləri (utancaqlıq və s.l əmolə gələ bilər. Şikost, eləcə də xəsto adamlarda özünomoxsus xarakter olamotlori az müşahidə olunmur.

Biz ayrı-ayrı hallarda belə faktlara rast gəlsok də, onlann mahiyyəti aydındır: bədən quruluşu öz-özlüyündə xarakter əlamət-lərini bilavasitə müəyyən etmir və edo də bilməz. Əgər insanda bədən quruluşu ilə əlaqədar olaraq hər hansı bir xarakter əlaməti əməlo gəlirsə, bu, ancaq ətrafdakı adamlann müvafıq bodon quruluşuna münasibəti ilə, yəni sosial amillərlə izah oluna bilor. Xarakter ictimai-tarixi mahiyyət daşıyır və onun formalaşması sosial amillərlə şərtlonir.

### 3. Psixiatriyada fərdi xarakterin öyrənilməsi ənənələri və psixopatiyanın növləri

Psixopatlar-ağır xarakterli adanılardır. Bu zaman pozğunluqlar insanın intellckti ilo deyil, emosional-irado səviyyəsindo этoк» gəlir və öz əksini onun xarakterində tapır.

Psixopatlarda özünü göstərən xarakter əlamətlərinin bil çoxunu adi adamlarda da müşahidə etmək olar. Lakin həmin ola-mətlər psixopatlarda elo güclü ifado olunur və mürəkkəb forma-larda uzlaşır ki, onları təsvir etdikdə gözümüz qarşısında ağıı xarakterli adamlann portreti canlanır: onlar ətrafdakı adamlarla heç noyin üstündo dalaşır, öz hoyat yoldaşına, uşaqlanna, tanış və qo-humlarına, iş yoldaşlanna əsassız təloblor verir, onlara tabe olmur, özünü başqalarından yüksok tutur, tomkinli aparmır, heç nədən özündon çıxır.

Psixopatiya və ona bənzər pozğunluqlar XIX əsrin əvvəl-lərindən etibarən müxtəlif psixiatrlar tərəfındən təsvir olunmağa başlanmışdır. Bu dövr üçün səciyyəvi cəhət ondan ibarətdir ki, homin pozğunluqlar, bir tərəfdən, ayrıca bir nozoloji (yunanca nosos - xəstəlik, logos - anlayış, təlim) fonnada birloşdirilmodı\
1



^ ^üxtəlif adlarla təsvir olunurdu, digər torəfdən, prosessual lıklərdən hələ dəqiq forqləndirilmirdi.

v-**iw«eu иə|ə dəqiq forqləndirilmirdi S;ıt^o əsrın ikinci yarısından başlayaraq xüsusi olaraq . ^ Patiyaya həsr olunmuş müxtolif əsərlər meydana çıxır. Bu l^rl məşhur rus psixiatrlan S.S.Korsakov, V.X.Kandinski və b. "^l-^rinin xüsusi əhomiyyətə malik olduğunu ayrıca qeyd etmək

^.ytun dünyada psixiatriyaya həsr olunmuş ilk monoqrafıyanı r^əm^ 1118 psixiatrı və psixoloqu V.M.Bexterev yazmışdır. H^.11 psixopatiyaya həsr olunmuş monoqrafıyası 1886-cı ildə şəhərində nəşr olunmuşdur. . Y'M.Bexterev psixoloq kimi geniş foaliyyot göstərirdi. Məlum ilk

h kım" oı ,886ıCI *ildə* Kazan şəhərində Rusiyada JV^iONOld laboratoriya yaratmışdı. V.M.Bexterevin psixopatiya «!nda monoqrafıyasının isə nəinki elmi, horn do böyük praktik ^iyyəti var idi. *

• n Dununla bclə, psixopatiyanın klinik dinamikası ı M^ıəıən uzun müddət işlənilməmiş qalmışdı. Bu problemin öyro-^.^ösində məşhur sovet psixiatn P.B.Qannuşkinin böyük xidmot-
Ч
vardır. O, «Psixopatiya hallannın klinikası, onların statikası, k^^ikası, sistematikası» (1993) adlı məşhur monoqrafıyasında bu ^lcmi ilk dofo olaraq ətraflı təhlil ctmişdir. P.B.Qannuşkin psi-

-ir- --1Уашп**1** əsas növlərinin dinamikası (inkişafını, mərhələlərini) öyrənmişdir. Onun todqiqatları əsasında əmolə golmiş dina-Pnnsip hal-hazırda psixiatriyada gcniş istifado olunur. Psixo-V 'Vanın öyrənilmosində V.A.Qilyarovski, O.V.Kerbikov, 'O^yasişşev, Q.E.Suxareva, N.İ.Felinskaya və b. böyük rol İH.^rnışlar. P.B.Qannuşkin - O.V.Kerbikovun diaqnostik meyarlan ^sinki psixopatiyanm, horn də xaraktcrin aksentuasiyasının də-Ч rnüoyyən edilməsi üçün böyük praktik əhəmiyyətə malikdir... hK,| öir məsələyə diqqət yetirək: psixopatiya uzun müddət lat^ar tər^findən öyrənilmişdir. Bərqərar olmuş ənənələrə ^U^' o' Psıxoıog'yan,n deyil, psixiatriyamn predmeti hesab olun-§dur. Əeər heladirsjv müasir psixologiyanın bu problemlə

r^^uur. Əgər belədirsə, . nuasır
raqlanması no ilə əlaqodardır? Ц Əvvəlco, ümumi bir məsələni qeyd edək. Tarixən bclə bir ç^l^Vvür yaranmışdı ki, psixiatrlar xəstələri, psixoloqlar isə psixi ətdən sağlam adamlan öyrənirlor. Elmi-texniki toroqqi dövrün-belo düşünmək əslində məsələnin mahiyyətini sadələşdir-kdən, bəlke do təhrif etmokdən başqa bir şey dcyildir. Bu gün
ч

məsələni belə həll ctmək olmaz. Həmin elmlərdən hər birinin sj dəcə olaraq öz tədqiqat üsulları, öz tədqiqat sahəsi vardır. Psixoloq istər sağlam, istərsə do xostə adamın psixi proses vo xassolorini öyrənir, psixiatr isə patsientin vəziyyotini klinik cohətdən təhlil edir və onun üçün müalicə təyin edir. Son zamanlar psixoloqlar psixoterapiya seansları keçirməkdə, müalicə prosesində patsientin ruhi vəziyyətini öyrənməkdə və s. həkimlərə yaxından kömək edirlər. Burdenko adına Neyro-cərrahiyyə İnstitutunda xəstəlorin psixoloji baxımdan müayinə olunması sahəsində zongin təcrübə əldə edilmişdir. Başqa sözlə, miiasir psixologiya öz səlahiyyətiıv daxil olan ənənəvi problemlori öyrənmoklə yanaşı hom də tobab praktikasına maksimum dərəcədo yaxınlaşır. Bu cəhət tibb psixologiyanın inkişafına ciddi təkan verir.

Ikinci vo ən başlıca cəhət isə ondan ibarətdir ki, psixopatiya, sözün əsl mənasında, psixi xəstəlik kimi xarakterizo olunmur. **O,** inkişafın düzgün getməməsi ilə bağlıdır. Təsadüfı deyildir ki, psixopatiyanın klinik strukturuna hallyusinasiya, sayıqlama, kom-ağıllılıq vo digor psixotik simptomlar daxil deyildir.

Psixopatiya endogen (irsi) amillərin və müxtəlif xəstoliklorin (baş-beyin zodələri, infeksiya, intoksikasiya vo s.) nəticəsi kimJ əmələ gəlir. ünu törədən əsas səbəblərdən biri do tərbiyo işindo yol verilən nöqsanlar, mühitin mənfı təsirləri ilo bağlıdır.

Aydın məsələdir ki, eyni bir uğursuz ailədə böyüyən uşaqların hamısında psixopatik inkişaf müşahidə olunmur. Eyni mühitdə, eyni bir ailodo hom sağlam uşaqlar, hom də müxtəlif tipli psixopai lar böyüyürlər. Mühitin mənfı təsirləri ancaq müəyyən şoraitdfl (xroniki somatik xəstəlik zamanı, cinsi yetişmədə uyğunsuzluq ol duqda, fıziki defcktlər olduqda vo s.) psixopatiyanın ənıələ gəlıno sində mühüm rol oynayırlar. Xarakterin aksentuasiyası zəminiml.. psixopatiya xüsusilə asanlıqla əmələ golir. Bura onu da əlavo d mək lazımdır ki, psixopatiya endogen vo b. amillərlo şortləndikck-belo, onun ağırlıq dərocosi ycnə də mühitin təsirləri ilo **тиəууөи** olunur. Hansı halda mühit psixopatiyanın əmələ gəlməsini şərtloıı dirir? Tərbiyə işindo yol verilən hansı nöqsanlar psixopatiyanm dinamikasında xüsusilə mühüm rol oynayır? Psixopat uşaqlaın xarakterinin xüsusiyyətlərini пeco nəzərə almaq olar? Bu **zamafl** ailə psixoterapiyası və ya tibbi-pedaqoji korreksiya hansı tələbloı.. cavab verməlidir? Mühüm praktik əhəmiyyətə malik olan bM sualların aydınlaşdırılması onlann məhz psixoloji cəhətdon təhli olunması şəraitində mümkündür.



Psixopatiyanın müxtəlif tiplori vardır: cədvəl 13-də onlardan bəziləri üçün səciyyəvi olan əlamətlər göstərilir.

Bəzən soruşurlar ki, psixopatiya hallan uşaqlar arasmda da özünü göstərirmi? Burada suala təkco cavab vermək hələ kifayət deyildir. Hom do nozorə almaq lazımdır ki, psixopatiyanın formalaşmasının ilk mərhələləri məhz

*Cədvəl 13*

| Psixopatiyanın tiplori | Tiplərin əsas əlamətləri |
|---|---|
| **Şizoidlor**<br><br>**Tsikloidlər Epilcptoidlər**<br>**Asteniklər**<br>**Psixasteniklər**<br>**Paronoyyal psixopatlar**<br>**lstcrik psixopatlar**<br>**Səbatsız psixopatlar**<br>**Üzvi psixopatlar** | **Adamlardan qaçırlar, fıkirlorini, niyyətlərini başqalanndan gizlədirlər, heç kəsin halına yanmırlar, ancaq hər şeydən asanlıqla inciyirlər.**<br>**Əhvallan tez-tez (bir neçə saatdan, bəzən isə gündo və ayaşın) dəyişir,**<br>**tfrat dərəcədə əsəbidirlor, bu zaman onlarda kədər, qorxu, nifrət, tərslik, qəddarlıq kimi hallar əmələ gəlir, dava-dalaş salmağa meyl edirlər.**<br>**Ürəyinazikdirlor, çox həssasdırlar, asanhqla osəbiloşirlər, lakin qətiyyətli deyillor.**<br>**Hoyəcanlı olurlar, təşviş keçirirlər, öz qüwələrinə inanmırlar, fıkirli olurlar, hər şeydən şübhələnirlor.**<br>**Tors, inadkar, cqoistdirlor, öz qüwələrinə inanırlar vo özlorini yüksək qiymətləndirirlər.**<br>**Nəyin bahasına olursa-olsun ətrafdakı adamların diqqətini özlərinə cəlb etmoyə çalışırlar, hadisələrə qiymət verorkən onlan öz xeyirlorinə ınüvafiq olaraq istodiklori kimi təhrif cdirlər, adamlarla ünsiyyət zamanı ədabazlıq cdirlər, özlərini tobii aparmırlar.**<br>**Zəif xarakterlidirlor, bir şeylə dərindən maraqlanmırlar, ətrafdakı adamlann asanlıqla təsiri #altına düşürlor.**<br>**Ağıllarında anadangolmə q&urlar olur, məktəbdo yaxşı oxuya bilirlər, lakin öz biliklərini tətbiq etmək, toşobbüs göstərmək lazım gəldikdə, səy göstərsələr də, səmərəsiz olur. Özlorini "adam içində" apara bilirlər, ancaq şit, bayağı sözlər işlodirlər.** |

uşaqlıq dövrüno təsadüf edir. Yeniyetməlik yaşı dövründə iso onun bir çox təzahürləri spesifık məna kəsb edir.

Əhalinin hər 10 000 nəfəri içərisində üc yeniyetmə oğlanda, bir yeniyetmə qızda psixopatiya halları müşahidə olunur. Oğlanlarda on çox epileptoid və şizoid, eləco də kipertim və səbatsız psixopatiya tiplərinə təsadüf edilir. Yeniyetmo qızlarda isteroid, epileptoid vo b. psixopatiya tiplori daha cox müşahidə olunur. **Üzvi** psixopatiya hallanna yeniyetmo qizlarda iki dəfə az təsadüf edilir.

Psixopatiyanın profilaktikasinda psixoterapevtik vo psixofor-makoloji müalicə ilo yanaşı düzgün tərbiyə böyük əhəmiyyət **kəsb** edir.

### 4. Şəxsiyyətin təlim-tərbiyəsi işində fərdi xususiyyətlərin tohlili və nozərə alınması

İctimai praktikanm müxtəlif sahələrində (sənaye, **kənd** təsərrüfatı, maarif, sohiyyə vo s.) fordi xüsusiyyətlərin tohlili **vo** nəzərə alınması psixologiyanın tətbiqi problemləri içərisindo xüsusi yer tutur. Gone nəslin təlim-tərbiyəsi işində iso **onun** əhəmiyyəti xüsusilə böyükdür. Psixologiya vo pedaqogika tarixi ilə tanış olsaq, bir cəhəti aydın görə bilərik. Zamanın görkəmli alimləri uşaq tərbiyəsindən danışarkən diqqəti həmişo f ə r **d i** y a n a ş m a məsələlorino eolb etmişlor.

Fərdi yanaşma mühüm psixoloji-pedaqoji prinsipdir. Həmin prinsipə görə, təlim-tərbiyə işində hər bir uşağın fərdi xiisusiyyotlori zəruri surətdo nəzərə alınmalıdır. Tutaq ki, şagird fleqmatikdir. Müəllim ona sual vermişdir. Şagird isə dorsini yaxşı öyrənmişdir, lakin suala dərhal cavab verə bilmir: gözlərini harasa dikib fikirləşir. Bu nə ilə əlaqədardır? Temperament haqqındakı söhbotləri xatırlayaq: fleqmatik tempcramentli uşaqlar astagəldir. Bu cəhət öz əksini onlann idrak fəaliyyətində do tapır. Fleqmatiklər adətən long fikirləşirlər (təkrar edirik: **«ləng** fikirloşmək» heç də «pis fıkirləşmək» demək deyildir. Moktobdo biz özünün yüksək ağlı ilə fərqlənən çoxlu fleqmatik şagirdə **rast** gəlirik). Gəlin indi də dərsdə yaranmış yuxandakı situasiyanı nozərdən kcçirək. Müollim sual verib, fleqmatik şagird **cavab** vermir. digər şagirdlər isə «mən deyim», - deyə əl qaldınrlar. **Belo** hallarda müəllim nə etməlidir? Təcrübəsiz müəllim fleqmatik şagirdi dərhal danlayır, onu «dərsini oxumamaqda» toqsirləndirir. sualın cavabını başqa şagirdlərdən soruşur. Bu, psixoloji baxımdan kobud səhvdir. Belo hallar bir пeco dəfə təkrar olunduqda, **tədricən** fleqmatik şagirdin müəllimə, təlimə, özünə münasiboti dəyişir... Təcrübəli müəllim iso belə şagirdə fkkirləşmək imkanı verir. **O,** «Faiq dərsini yaxşı öyrənib. Suala özü cavab verəcək» - **deyə ol**

498 qaldıran şagirdləri sakitləşdirir, köməkçi suallarla fleqmatik şagirdə kömək edir. O da suala ətraflı cavab verir. Bu o demokdir ki, tocrübəsiz müəllim fleqmatik şagirdə fordi yanaşa bilmədi, halbuki təcrübəli müəllim onun temperament xüsusiyyətlərini nəzərə aldı və şagirdə fərdi yanaşdı.

Fərdi yanaşmadan hom tolim, hom də tərbiyə işindo geniş istifado olunur.

Tərbiyə işində fordi yanaşma iki cəhətdən xüsusilə vacibdir. Birincisi, biz uşağa fordi yanaşmaqla onun özünəməxsus xüsusiyyotlərə malik olan şoxsiyyət kimi inkişaf etməsi üçün psixoloji cəhətdən əlverişli şorait yaradınq. İkincisi, uşağm fərdi xüsusiyyətlərini nozərə almadan ona göstərilon pedaqoji təsir adətən istənilən nəticəni vermir. Müəyyən edilmişdir ki, pedaqoji təsir həmişə uşağın psixoloji xiisusiyyotlori ilə şərtlənir. Bu o demokdir ki, pedaqoji tosirin xarakteri vo somorosi tokco onu obyektiv xiisusiyyotlori ilo deyil, hom do uşağın homin tosiri пeco qavraması (qobul etmosi) ilo miioyyon olunur. Xahiş, torif, cozalandirma vo s.-nin bütün uşaqlara eyni səviyyədə təsir etməməsini do, birinci növbodə, mohz bununla izah etmok lazımdır.

Torbiyə işində fordi yanaşmanın mahiyyoti ondan ibarotdir ki, torbiyonin iimumi məqsodləri nəinki uşaqlann yaş vo cinsi xiisu-siyyotlorino, hom do fordi xüsusiyyətlərinə müvafıq olaraq kon-kretləşdirilir. Təcrübə göstərir ki, tərbiyə işində uşaqlann fordi xiisusiyyotlori nəzərə alınmadıqda və ya düzgün nəzərə alınmadıq-da, hotta ən somoroli təsir vasitələri belə öz əhəmiyyətini itirir.

Təlim işində do fərdi yanaşma zəruridir. Son zamanlar pedaqoji psixologiyada bu cəhəti ifadə etmək üçün xüsusi termindon - « t ə l i m i n f o r d i l ə ş d i r i l m ə s i » termi-nindən istifado olunur.

Təlimin fərdiləşdirilməsi no demokdir? Proqram materialını şagirdlorin hamısı eyni dorəcədə mənimsəməlidir. Bəs, bu mühüm vəzifəni sinifdo müxtəlif şagirdlərlə iş şəraitində пeco yerino yetir-mək olar? Hər şeydən əvvəl, «müxtəlif» sözünə diqqət yetirək. Doğrudan da, hər bir sinif inkişaf, hazırlıq, mənimsəmə səviyyəsi müxtəlif olan şagirdlərdən ibarotdir. Onlar özlərinin təlimə münasibəti, diqqət vo ya hafizənin xiisusiyyotlori, maraqlan və s. ilo də bir-birindən forqlənirlər. Bu şəraitdə müollimlər bir çox hallarda orta xətt seçirlor onlar dərsdə bütün didaktik məsələlərin həllində bir növ orta şagirdi nəzərdə tuturlar. Həmin müəllimlər belə güman edirlər ki, bu yolla həm «güclü», həm «orta», hom di «zəif» şagirdlər dərsi asan başa düşə bilərlər. Halbuki bclo olduqda, «güclü» şagirdlorin inkişafı süni surətdə ləngidilir, «zoil şagirdlər isə xroniki surətdə tolimdə geri qalırlar. Onu da qeyd edək ki, «orta şagird» anlayışı da qcyri-dəqiqdir. Axı, bu qrupa daxil edilən şagirdlərin özləri də əslində müxtəlif xüsusiyyotləre malikdirlər.

Təlimin fərdiləşdirilməsi prinsipi «orta şagirdi» dcyil, şagirdlərin hamısını və hər birini nəzoro almağı tolob edir. Hu zaman sinifdə frontal iş fərdi işlə üzvü surotdə əlaqələndirılıı tolim prosesində hor bir şagirdin fərdi xüsusiyyətlori nəzərə alımı yəni fərdi tapşırığın çətinlik dərəcəsini artırmaq, şagirdl. u ı kollcktiv işo cəlb etmək, əlavə ədəbiyyat vo tapşırıqlar venııok yolu ilə təlim prosesi fərdiləşdirilir.

Fərdi yanaşmanın bir-birilo qarşılıqlı olaqədə olan iki torəl vardır. Onlar: a) şəxsiyyətin fərdi xüsusiyyətlərinin tohlili vo **b)** təlim-tərbiyə işində psixoloji cohətdon diizgün no/oro alınması məsələləri ilə bağlıdır.

Uşaqların fərdi xüsusiyyotlorinin öyronilməsi üçün müxtəlü tədqiqat üsullarından - müşahido, ekspcriment vo s. istifado oкинм Müəllim və tərbiyəçilor üçün uşaqları təbii şəraitdo - dərsdə, sintl yoldaşları ilə ünsiyyət prosesində, ictimai-faydalı əmokd# öyrənmok xüsusilo zoruridir. Uşaq şəxsiyyətinin bütün mühüı cəhətlərini əhatə edən psixoloji-pedaqoji xarakteristikalann onlaf üçün böyük əhomiyyəti vardır. Psixoloji-pedaqoji

xarakteristikani adətən sinif rəhbəri tərtib edir və homin sinifdə dərs dcyen müəllimlərin hamısı ilo birlikdə onun müzakirosini təşkil cdır Pcdaqogikada buna p e d a q o j i k o n s i l i u m deyilir.

Uşaqların fərdi xüsusiyyətlorini tohlil cdorkon hanıı məsələlərə diqqət yetirmək lazımdır? Müollim şagirdlərin yaş-cin| xüsusiyyətlərini nəzərə almaqla, onlann həm da fordi psixoloji xüsusiyyətlorini-qabiliyyətlərini. temperamentini. xaraktcrini \ diqqotlə öyrənməlidir. Fordi xüsusiyyotlorin lormalaşmasııı şortlondirən amillər xüsusilə ətraflı tədqiq olunmalıdır. yanaşma ancaq bu zaman səməroli ola bilər.



# V HİSSƏ İNSAN İNSANLAR ARASINDA

## XVIII FƏSIL ÜNSİYYƏTİN PSİXOLOGİYASI

### 1. Ünsiyyətin xüsusiyyətləri

Hələ qədim zamanlardan insanlara məlum idi ki, uşaqlann çoxu yctim evində tez ölür. 1760-cı ildo ispan yepiskoplarından biri öz gündəliyində yazmışdı: «Yetim evindo uşaq kədorli olur və onlann bir çoxu kodor çəkdiyi üçün ölür». Çünki onların ünsiyyət tələbatı ödonilmir.

XIX əsrin sonu - XX əsrin ovvollorində - dünyanın müxtolif ölkəlorindo xüsusi və dövlət yctim cvləri şəbokəsinin genişləndiyi bir şoraitdə belə faktlar diqqəti xüsusilə colb etmoyə başladı. Kiçikyaşlı yetim uşaqlar arasında, xüsusilə onlann həyatının ilk aylannda və ilindo, ölüm hadisəsi çox idi. Sag qalan uşaqlar isə özlorinin ümumi fıziki vo psixi inkişafına görə homyaşıdlanndan kəskin surətdə geri qalırdılar: 3 yaşında onlar, demək olar ki, danışmır, tərbiyoçilorin sözünə baxmır, özlorini həddindən artıq passiv vo ya oksinə, aqressiv aparırdılar.

İkinci dünya müharibəsi illərində isə belə hallar daha geniş miqyasda müsahidə olunurdu. R. Spitsin 1945-ci ildə nəşr olunmuş kitabında bir uşaq evində yaranmış dranıatik monzorə belə tosvir olunur: birinci iki ildə uşaqların 37 faizi tələf olmuşdu. Sağ qalmış 21 uşaqdan on kiçiyi 2, böyüyü isə 4,1 yaşında idi. Onlardan 5 ın>fori hərokət ctməyi vo oturmağı bacarmırdı, ancaq 3 nəfori köməksiz otura bilirdi, 8 nəfori başqa adamların köməyilə, 5 nofori M müstoqil surotdo gəzə bilirdi, 12 uşaq özü qaşıqla xörək ycməyi, 20-si isə geyinməyi bacarmırdı. Onların hamısının nitqi ınkişaf ctmomişdi: 21 uşaqdan 6-sı tamaınilə danışmır, 12 nofəri |2-5 söz təloffüz cdir, yalnız bir nofəri cümlo qura bilirdi.

Pediatrlara və uşaq psixiatrlanna da belo hallar yaxşı bolli idi: onlar müşahidə ctmişdilər ki, ana və atasından, bacı və

501 qardaşlanndan ayrılıqda xəstəxanada müalicə olunan kiçikyaşlı uşaqlar fiziki və psixi cəhətdən normal inkişaf etmirlər. Bu faktların ümumiləşdirilməsi əsasında elmdə «qospitalizm» (fransızca hospital - xəstəxana demokdir) termini əmələ glmişılıı Q o s p i t a 1 i z m dedikdə, yetim uşaqlann, eləcə do anasındaıı. atasmdan və b. aynlıqda xəstəxanada mualicə edilən uşaqların fiziki və psixi inkişafında özünü göstərən xüsusiyyətlər nəzərde tutulur.

Uşaqlarda belə xüsusiyyətlərin əməlo gəlmosini no ilo izah etmək olar? Psixoloqlann böyük əksəriyyəti qospitalizm hadiso sinin tohlili əsasında praktik işçilərin diqqətini kiçik uşaqların fi/ıkı vo psixi inkişafında yaxın adamlarla unsiyyətin roluna colb etmişlər. «Ünsiyyət defisiti» - adamlarla kontaktın azlığı və ya olmaması uşağın inkişafına dramatik surətdə mənfı təsir göstorir.

Heyvanlar arasında böyümüş uşaqlara aid faktlan da bura əlavo etmək lazımdır. Bir cəhəti do qeyd edək: insan uzun müddət tok qaldıqda da onun psixikasında köklü dəyişikliklər baş verir.

K. Marks holo vaxtilə qeyd ctmişdir ki, «fordin inkişafı onun bilavasitə və ya dolayısı ilə ünsiyyətdə olduğu bütün başqi fərdlərin inkişafı ilə şərtlənir».

Ünsiyyət nədir? Həmin sualı aydınlaşdırmaq üçün biz ünsiyyətə tərif verməliyik. Ünsiyyətin isə hamı tərəfındən cyni dərəcədə qəbul edilən ümumi tərifi yoxdur. Psixoloqlardan birinin hesablamasına göro, həlo 1969-cu ilə qədərki dövrdə təkco ingilıs dilində olan ədəbiyyatda ünsiyyətin 96 tərifı məlum idi.

Sovet psixologiyasinda da ünsiyyətə müxtəlif toriflor verilmişdi(_Qnlardan biri ilə tanış olaq: iki və daha çox adamın münasibətləri aydınlaşdırmaq və ümumi nəticə əldə etmel məqsədilə öz səylərini əlaqələndirməyə və birləşdirməyə yönol dilmiş qarşılıqlı təsirinə ü n s i y y ə t deyilir. Ünsiyyotm predmeti başqa adamdan ibarotdir. K. Marks başqa adamı «ən bö» yük sərvət» adlandırırdı. O, yazırdı ki, insan homişə «başqa ins.m kimi ən böyük bir sərvətə...» toləbat hiss edir. Ünsiyyət təlobaU insan təlobatları içorisində xüsusi yer tutur.

L. S. Vıqotski ünsiyyət tələbatına uşağın psixi inkişafının əsai vo hərəkətverici qüvvosi kimi xüsusi əhəmiyyət verirdi. < > göstorirdi ki, uşağın xarici aləmə, hotta ən sadə münasibəti d* başqa adama münasibət vasitəsilə oks olunur.

Körpənin hər bir tələbatı inkişaf prosesindo todricən onun üçün başqa adama, insanla tomasa, onunla ünsiyyot tolob

502 çevrilir. Ünsiyyət tələbatı sonrakı yaş dövrlərində də uşaq şoxsiyyətinin inkişafında mühüm rol oynayır. Yeniyetmə ictimai-oxlaqi münasibət normalannı ünsiyyot prosesindo monimsəyir. Yaşlılıq hissi və meylinin reallaşmasında da ünsiyyət sahəsi mühüm rol oynayır.

İnsanlar nəyin namino ünsiyyətə girirlər? Bu suala cavab vcrmək üçün hər bir konkret halda ünsiyyətin motivlərini psixoloji baxımdan ətraflı təhlil etmək lazımdır. Biz fəaliyyətin motivlərini öyrənərkən bu sahədo özünü göstərən ümumi qanunauyğunluğa diqqəti cəlb etmişdik: fəaliyyətin motivi onun predmetino uyğun gəlir. Ünsiyyət do belədir: onun motivləri də başqa adamla əlaqə-dardır. Lakin bununla bclə xüsusi olaraq qeyd etmək lazımdır ki, ünsiyyətin motivləri son dərocə mürəkkəb xarakter daşıyır. İnsanın təkcə kiminlə və пeco söhbət etməsi faktına əsasən ünsiyyətin motivlori haqqinda fıkir söyləmək birtərəfli olardı.

Ünsiyyət müxtəlif vasitələrlə həyata keçirilir. Onların içorisində nitq (mülahizə, sual, cavab, replika və s.) xüsusi yer tutur. Ünsiyyətin e k s p r e s s i v - m i m i k v a s i t o l ə r i do mühümdür: təbəssüm, tors baxış, mimika, əl və bodonin ifadoli hərəkətləri, vokal mimikası - bunlardan hər birinin ünsiyyət prosesindo öz yeri vardır. Ünsiyyətin ə ş y a v i - h ə r ə k i v a s i t o l ə r i n i n do rolunu qeyd etmok lazımdır. Onları aşağıdakı kimi qruplaşdırmaq olar: a) ünsiyyət məqsodilə istifado olunan lokomotor vo əşyavi hərəkətlər, eləcə də poza; b) başqa adama yaxınlaşma, ondan uzaqlaşma, noyi iso vermok və ya uzatmaq, onu özünə doğru çəkmək və ya özündən itoləmək və s; v) etiraz.

Hor bir baxış və ya təbəssüm öz-özlüyündə deyil, ancaq kommunikativ funksiya daşıdıqda, ünsiyyət vasitəsinə çevrilir. Ekspressiv-mimik jestlərlə əşyavi-hərəki jestlərin ünsiyyət prosesindo rolu da eyni deyildir. Təbəssüm, baxış və s. ünsiyyət situasiyasına müvafiq olaraq insanin emosional vəziyyotini ifado edir. Əşyavi-hərəki jestlər isə mahiyyət etibarilə ünsiyyət aktının ayn-ayrı elcmentlorini təsvir edir. Ozünün bu xüsusiyyətinə görə əşyavi-hərəki jestlor insanlann bir-birilə qarşılıqlı tosiri prosesindo daha mühüm rol oynayır.

Ən ümumi şəkildo ünsiyyət situasiyasının iki tipini fərqləndirmək olar. Onlara b i r g ə f ə a l i y y ə t d ə ü n - s i y y ə t v ə ş o x s i ( ş ə x s i y y o t o m o x s u s ) ü n s i y y o t d e y i l i r .

503

Unsiyyot fəaliyyətlə aynlmaz vəhdətdir. Adətən fəaliyyəti S-O; ünsiyyəti iso S-S (subyekt-subyekt) - düsturu ilə təsvir etmişdik.

Halbuki ünsiyyət fəaliyyətin - əтəк, təlim, oyun vo s. zəruri tərkib hissəsidir. Bu fəaliyyət sahələrinin hər biri ancaq qarşılıqlı təsir şəraitində mümkündür: əgər fəaliyyət və ünsiyyətin vəhdətini nəzərə alsaq, S-O və S-S düsturları ilo kifayotlənə bilmorik Onlan qarşılıqlı əlaqədə aşağıdakı kimi $^{s}\wedge j'^{s}$

o ifadə edə bilərik.

Birgə fəaliyyət şəraitində insanlann bir-birilo ünsiyyoti no ilo müəyyən olunur? Onun on başlıca xüsusiyyətləri hansılardır?

Yuxarıdakı düstura diqqət yetirsək, bu suallara asanlıqla cavab verə bilərik.

Birgə foaliyyot şəraitində ünsiyyət funksional xarakter kosb edir, yəni onun mövzusu birgə foaliyyotin obyekti ilo müəyyən olunur. Bu zaman birgə fəaliyyəti həyata keçirmək üçün yolların axtarılması ünsiyyətin əsas məqsədini təşkil edir.

Bir sıra hallarda iso insanlar bir-birinə birgə foaliyyotin obyekti haqqında deyil, hər hansı bir adam, onun münasibətləri haqqında informasiya verirlər. Bəzon adamın özü ünsiyyətin mövzusuna çevrilir: o, başqalarına özü haqqında danışır. Adamların şəxsiyyətlərarası qarşılıqlı münasibətlərə aid müxtolif hadisələri öz aralannda müzakirə etməsi hallarına da az tosadüf olunmur. Belə unsiyyətə ş ə x s i ü n s i y y ə t deyilir.

Şəxsi ünsiyyəti ən umumi şokildə aşağıdakı kimi təsvir etmək olar:

$s_2$ --- $S_3$

S,

Burada Sj - haqqında danışılan, $S_2$ - danışan, $S_3$ - məlunıat alan şəxsdir.

Birgə fəaliyyətdə unsiyyət «situasiyanın obrazı» (birgo foaliyyot iştirakçılan arasında «rolların» funksional bölgüsü haqqındakı təsəvvürlər do bura daxildir) ilə tənzim olunur. Halbuki şəxsi ünsiyyot daha çox «müsahibin obrazı» ilə şərtlənir. Şəxsi ünsiyyətin mövzusu da, forması da, birinci növbədə, mohz onunla müəyyən olunur.

Unsiyyətin baş tutması üçün onun mövzusu müsahiblər üçün müəyyən əhəmiyyət kəsb etməlidir. Başqa sözlə, şəxsi unsiyyot təkcə informasiyanın (mövzunun) mozmunu ilə deyil, daha çox

504 onun müsahiblər üçün əhəmiyyoti ilo müəyyən olunur. Bundan asılı olaraq eyni bir mövzu müxtolif formalarda (müzakirə, təhlil və s. kimi) ifadə oluna bilər. Şəxsi ünsiyyot adətən həmsöhbətlərin bir-birinin təfəkkür torzi, dünyagörüşü, daxili aləmi haqqındakı təsəwürləri ilə tənzim olunur. Eyni bir ünsiyyət şəraitində eyni bir adamın biri ilo zarafat etməsi, başqası ilo rəsmi tonda danışması məhz bununla bağlıdır.

Şəxsi ünsiyyətin adətən iki səviyyəsini fərqləndirirlər. Birinci səviyyədə ünsiyyət iki (və ya üç) adamın vasitəsiz toması kimi meydana çıxır və emosional xarakter daşıyır. Lakin tədricən emosional ünsiyyət şəraitində adamlar öz nöqteyi-nəzərlərini izah etməyə, müdafiə etməyə, bir-birlərinin fikirlərini, əməllərini və s. müəyyən mövqedən qiymətlondirməyə başlayırlar. Bu, şəxsi

ünsiyyətin ikinci səviyyəsidir. İnsanların istər bir-birini, istərsə də özlərini dərk ctməsində şəxsi ünsiyyətin ikinci səviyyəsi xüsusilə mühüm rol oynayır.

Müasir psixologiyada ünsiyyətin üç tərəfini - kommunikativ, interaktiv və perseptiv tərəflərini fərqləndirirlər. Bunlar aşağıdakılardan ibarotdir.

Ü n s i y y ə t i n f o r m a s i y a m ü b a d i l o s i k i m i . Ünsiyyət prosesində iştirak edon adamlardan biri, tutaq ki, A. hor hansi bir məsolə haqqinda B-yo infonnasiya verir. Birinci adama (A.-ya) k o m m u n i k a t o r , ikinciyo (B.-yo) iso r e s i - p i e n t deyilir. informasiya nəzəriyyəsi baxımından bu prosesi sxematik şəkildə belo ifado etmok olar: K-İ-R (kommunikator -informasiya - resipicnt). Əgər biz məsələyə psixoloji cohotdon yanaşsaq, birinci növbədə, qeyd etmoliyik ki, bu sxem unsiyyot prosesinin yalmz formal torofini - informasiyanin пeco verilməsini əks etdirir. Halbuki kibernetik sistemlordon forqli olaraq unsiyyot prosesindo informasiya nəinki verilir, həm do o, unsiyyot prosesinin özündə formalaşır, dəqiqləşir, inkişaf edir. Bundan başqa, K-İ-R sxcmində kommunikatorla (K) rcsipicntin (R) münasibəti əslində subyekt-obyekt (S-O) münasibəti (biri məlumatı verir, digəri iso onu qəbul edir) kimi nəzərdə tutulur. Halbuki unsiyyot prosesindo adamlar subyekt kimi iştirak edirlər. (Bildiyimiz kimi, ünsiyyətin sxemi belədir: S-S). Bu o deməkdir ki, unsiyyot prosesi nəinki kommunikatorun, horn də resipientin fəallığı şəraitindo baş verir. informasiya mübadiləsi onlann bir-birinə münasibətilə şərtlənir, yəni kommunikator informasiya ve-rərkən özünün məqsədini və ya motivlərini nəzərə almaqla yanaşı

505 həm də resipientin məqsədini, motivlərini və s. nəzərə almalıdıı Nəinki kommunikator, həm də resipient üçün informasiyanın əhəmiyyəti də mühümdür. Psixoloji baxımdan bu olduqca maraqlı məsələdir: insanlar ünsiyyət prosesindo təkcə informasiya mübadiləsi ilə məhdudlaşmırlar, onlar həmin informasiya osasındi hom do ümumi noticə (məna) çıxarmağa səy göstərirlər. Bu iso yalnız belo bir şəraitdə mümkündür ki, informasiya sadəcə olaraq qəbul edilməsin, hom də başa düşülsün, dərk olunsun.

Təsadüfı deyildir ki, ünsnyyət prosesindo kommunikatoı resipientə təsir göstərdiyi kimi resipient do kommunikatora tosil göstərir. informasiya mübadiləsi prosesindo onlann arasıml.ı yaranmış münasibət tipinin özü müəyyən mənada doyişilir.

Öz-özlüyündə informasiyanm iki (təhrikedici vo təsbitcdici) tipini fərqləndinnək olar.

Təhrikedici informasiya əmr, məsləhət, xahiş formasında ifado olunur. Onlar resipientin hor hansı bir horokətini müxtolif formalarda (təhriketmə, qadağanetmə vo s.) stimullaşdırmavı nəzərdə tuturlar. Təsbitedici informasiya isə molumat formasuul.ı meydana çıxır.

i n f o r m a s i y a q a r ş ı l ı q l ı t o s i r k i m i . İnsanlar birgə fəaliyyət prosesindo müxtəlif formalarda əlaqə vo münasibotloro girir, oməkdaşlıq cdirlor. Qarşılıqlı təsir dcdikdə, bu cəhəti nəzərdə tuturlar.

Hər şeydən əvvəl, «qarşılıqlı» sözünə diqqət yetirok. Əgoı tosir qarşılıqlıdırsa, bu o demokdir ki, həmin proscsdə on azı ıkı adam bir-birilə ünsiyyətdədir: onlar nədə isə bir-birinə könıok ctmok, nə haqqındasa məsləhət almaq, dərdini bölüşmok, nədə iso razılığa gəlmək və s. üçün bir-birlərinə müraciot edirlər. İki misalla tanış olaq: a) anasının xoş sözlorino qulaq asa-asa uşaq gülüm sünür, mehriban-mchriban anasına baxır vo golib başını onun dizləri üstünə qoyur; b) qonşu otaqdan səs gəlir. Uşaq sosə qulaq asır və üzünü pəncərədəki akvariuma sarı çevirir. O, diqqəÜİ akvariumdakı qızıl balıqlara baxır...

Birinci halda uşaq hotta bir söz deməsə belo, ünsiyyot aktı göi qabağındadır: biri danışır, o biri isə öz hisslori və horəkotlorı ıl.» ona cavab vcrir. İkinci halda isə biz artıq ünsiyyətdən danışa bilmərik; o, uşağın idrak foaliyyoti ilə əvəz olunmuşdur.

Qarşılıqlı tosir prosesindo söz, hiss və hərəkət özünoməxsui şəkildə birləşir. Bu zaman ünsiyyət birgo foaliyyotin təşkilifH xidmət edir. Təsadüfı deyildir ki, ünsiyyət tələbatı, insanlann bır-

506 birinə söz demək tələbatı elə omok prosesinin özündə əmələ gəlmişdir.

Ü n s i y y ə t i n s a n l a r ı n b i r - b i r i n i q a v r a - m a s ı p r o s c s i k i m i . Ünsiyyət prosesindo insanlar Ьır-birlərinə molumat verərkən, tosir göstərərkən hom do bir-birlərini qavrayırlar. Sosial persepsiya ünsiyyət prosesinin somoroli olmasinin başlıca şərtlərindən biridir.

Ünsiyyətin kommunikativ, intcraktiv vo perseptiv toroflori bir-birilə vohdotdodir. Onlann birini o birisindon aynliqda tohlil etmok olmaz.

Bununla olaqodar olaraq biz bir cəhəti dəqiqləşdirməliyik. Golin, ovvolco ünsiyyətin tərifı ilo bir do tanış olaq; torifdo ünsiyyət... qarşılıqlı tosir prosesi kimi xarakterizo olunur. Bu iso tosadiifi deyildir: qarşılıqlı tosir ünsiyyətin nüvəsini təşkil edir. Ünsiyyotin birinci (informasiya miibadilosi) vo üçüncü (insanlann bir-birini qavramasi) toroflori mohz buna xidmot edir.

tnsanlar K. Marksın göstərdiyi kimi, «... Birgo fəaliyyət üçün vo öz fəaliyyətini qarşılıqlı mübadilə etmok üçün miioyyon surətdə birləşmədən istehsal edə bilməzlər. İstehsal etmok üçün insanlar miioyyon əlaqə və münasibətlərə girirlər vo yalnız bu ictimai əlaqə və münasibətlər vasitəsilə onların tobiətə tosiri mövcud olur, istehsal mümkün olun>. Bclə bir əlaqə və münasibət məhz ünsiyyət sayəsində yaranır.

Məsələnin belə qoyuluşu hom də ünsiyyətin b a ş **1** ı c a funksiyalarını aydınlaşdırmaq imkanı verir. Yuxarıdakı tərif əsasında onlardan ikisini xüsusilə qeyd etmək lazımdır: a) i n s a n l a n n b i r g o f o a **1** i y y ə t i n i n t ə ş k i l i (torifdo bu funksiya belo xarakterizo olunur: «ümumi nəticə əldə ctmək məqsodilə səyləri olaqələndinnək və birləşdirmək»); b) ş ə x s i y y ə t **1** o r a r a s ı m ü n a s i b ə t **1** ə r i n f o r -

m a l a ş m a s ı  v o  i n k i ş a f ı (yəni tərifdəki sözlərlə desək, «münasibətləri aydınlaşdırmaq moqsədilə qarşılıqlı təsir»).

Psixologiyada ünsiyyət qarşılıqlı tosir prosesi kimi təhlil olunarkən onun ünsiyyətin digor toroflori ilə vəhdəti vacib prinsip kimi nəzərə alınır.

## 507 **2. Ünsiyyət, insanların qarşılıqlı təsiri və qarşılıqlı münasibətləri**

### *§1. Ünsiyyət qarşılıqlı təsir kimi*

Fəaliyyətin psixoloji xarakteristikalarını xatırlayın: insanlaj foaliyyot prosesindo işin moqsədini bir-birino izah edir, ayrı-a) 11 əmoliyyatlarla bir-birini tanış edir, nöqsanları müəyyən cdir, onkın aradan qaldınnaq üçün məslohətləşirlər. Bu prosesdo ünsiyyel ancaq və ancaq insanların birgə fəaliyyətinin toşkilinə xidmət edü Psixologiyada ünsiyyəti qarşdıqlı tosir kimi aydınlaşdırarkon moh/ bu cohəti, yəni onun insanların birgə fəaliyyətinin təşkili lie bilavasitə bağlı olan torkib hissələrinin təhlil edilməsini nəzorde tuturlar.

^JJnsiyyətin insanların qarşılıqlı təsirilə əlaqəsi şəksizdir. Bunu intuitiv şəkildə təsəvvür etmok do asandır. Lakin onların qarşılıqlı əlaqosinin psixoloji baxımdan öyrənilməsi müxtolif çətinliklorlo bağlıdır. Psixoloqların bir qismi ünsiyyətlə qarşılıqlı təsiri sadəco olaraq eyniloşdirir, onları dar monada (yoni informasiya mübadilosı kimi) şərh edirlər, bir çox müəlliflor isə ünsiyyətin stmkturutul.ı qarşdıqlı təsirin rolunu noinki ətraflı aydınlaşdıra bilmir, hətta co\ vaxt onlan bir-birindon təcrid edir, ayrılıqda nozərdən kcçirir. Bunların hor ikisi səhvdir.

Qarşılıqlı tosirin növləri müxtolifdir. İstər nəzəri, istərsə do praktik məqsədlər üçün onların əsas tiplorinin müəyyən cdilmosı xüsusi əhəmiyyot kəsb edir. Bu sahədə müxtəlif təsnifatlai məlumdur. Onlann böyük əksəriyyoti dixotomik xaraktcr daşıyır: insanların qarşılıqlı tosiri bir-birinə oks olan tiplərə bölünür. Qəro psixologiyasında müxtəlif müəlliflər qarşılıqlı tosirin bu iki tipini «koopcrasiya - roqabot», «razılaşma - münaqişə», «uyğunlaşma müxalifət», «assosiasiya - dissosiasiya» kimi tcrminlərlə ifado edirlər.

Birinci halda qarşılıqlı tosirin «pozitiv» növləri təhlil olıınıu onlar bu baxımdan birgo foaliyyotin təşkilinə kömək göstərirlor. Qarşılıqlı təsirin «ncqativ» növlorini iso ikinci tipo daxil edirləi onlar birgə foaliyyəti bu və ya digər dərəcədə «zoiflodiı». «pozur», homin foaliyyot üçün müoyyən çətinliklər yaradır.

Yəni qarşılıqlı tosirin hor hansı bir tipi və ya forması foaliyyotin məzmunu ilə şortlənir. Kooperasiya və ya rəqabe qarşılıqlı tosirin ancaq fonnasıdır, onların məzmunu iso hor ıkı

508 halda daha geniş sistemlə - koopcrasiya və ya rəqabətin daxil olduğu foaliyyotin məzmunu ilə müəyyən olunur. Müollimlorin, alimlərin, idmançıların, zabitlərin və b. bir-birilə qarşılıqlı təsirinin formalarını, hətta cyni əlamətlor əsasında bu baxımdan müqayisə etsək, onlarda özünəməxsus cəhətlərin olduğunu görərik. Bundan başqa, kooperativ qarşılıqlı təsir formaları nəinki ictimai-faydalı, horn do asosial, hüquqa zidd foaliyyot sahəlorində (məsələn, birgə soyğunçuluq, oğurluq vo s.) də özünü göstərir. Buna göro də cəm-iyyətə zidd foaliyyot sahələrində kooperasiya ncqativ məna kosb cdir. Halbuki asosial foaliyyot şəraitində konflikti pozitiv hadisə kimi qiymətləndirmək olar. Deməli, foaliyyotin məzmununu, sosial kontekstini nəzərə almadan qarşılıqlı təsirin formalarını təhlil etmək olmaz.

Bəs, Qərb psixologiyasında bu mühüm metodoloji mosələ пeco həll olunur? Amerikan psixoloqları bclə hesab edirlər ki, «həг hansı iki adam arasındakı münasibətlər guya qrupun digər üzvləri arasındakı münasibətlərin funksiyasıdm>. Buna müvafıq olaraq, onlar insanlar arasmdakı qarşılıqlı təsirin xüsusiyyətlərini adətən diffuz qruplar - sosial-psixoloji eksperiment keçinnək məqsədilə qısa müddət üçün yaradılmış təsadüfi adamlardan ibarət qruplar əsasında öyrənirlər.

Gəlin, diffuz qrupun əlamətlərinə diqqət edək: belə qruplara daxil olan adamlar adoton bir-birlərini tanımırlar, kifayət qədər birgə ünsiyyət təcrübəsinə malik olmurlar, onların bir-birilə qarşılıqlı təsiri vasitəsiz xarakter daşıyır, əsasən «xoşum gəlir -xoşum gəlmir» dixotomiyası ilə xarakterizə olunur. Başqa sözlə, diffuz qrupda qarşılıqlı tosir foaliyyotin məzmunu ilə müəyyən olunmur. Təsadüfı dcyildir ki, amerikan psixoloqlarının diffuz qruplarda mücənəd sxcmlər əsasında apardıqları eksperimentlər insanlar arasındakı qarşdıqh təsirin əsl mahiyyətini açmır.

İkincisi və başlıcası iso ondan ibarotdir ki, Qərb psixoloqlan (C. Mid və b.) cəmiyyətin inkişafını vo ictimai münasibətləri psixolojiləşdirirlər. Onlar, adətən, ictimai münasibət tcrminindən deyil, sosial qarşılıqlı təsir terminindən istifado edirlor. Bos, sosial qarşılıqh təsir nədir? C. Midin fıkrincə, sosial qarşılıqlı tosir ancaq vasitəsiz kommunikasiyadan (simvollar mübadiləsindən) ibarotdir. Onun nəzəriyyəsinin əsasını aşağıdakı iki müddəa təşkil edir: 1. İnsan orqanizminin bioloji zəifliyi onları məcbur edir ki, yaşamaq üçün qrup kontekstindo bir-birləri ilə əməkdaşlıq etsinlor. 2. İnsan orqanizmləri daxilində və arasında baş verən, onların əmokdaş-

509 lığını asanlaşdıran, demoli, yaşamasına kömok edən işlet möhkəmlənir. Bu zaman adam başqa adamlann vo qrupun onu necə qavradığını müəyyon edir (C.Midin sözlori ilə desək, «başqasının rolunu qəbul edin>), buna müvafıq olaraq situasiyanı qiymətləndirir və özü üçün düzgün hərəkət xətti seçir.

Beləliklv). Qorb psixoloqları insanlann qarşılıqlı təsirini ictimaı münasibətlərdən ayınr, bununla da onların mahiyyətini təhrif edirlor.

Yəni orada daha çox sosial qarşılıqlı təsirdən bəhs edilir. Halbuki insanlann qarşılıqlı təsiri ictimai münasibətləri əks etdirir.

Qarşıya sual çıxır: real qarşılıqlı tosir situasiyası песə yaranır? Insanlar bu zaman bir-birlərini necə başa düşürlər? Sosial nəzarotin hansı formalanndan istifado edirlər?

Həmin suallara cavab vermək üçün qarşılıqlı təsirin strategiyası və taktikası anlayışları ilə tanış olmalıyıq. Qarşılıqlı təsirin strategiyası cəmiyyətdə bərqərar olmuş ictimai münasibətlərin xarakteri ilə müəyyən olunur. Onlar isə özlərinin konkret ifadosini sosial normalarda tapırlar. Sosial normalar insanlann qarşılıqlı təsirinin qaydalarını miioyyon edir, onlan nizama salır. insanlar sosial normalar əsasında bir-birinin davranış və rəftarına nəzarət edirlər: onu bəyənir və ya boyənmir, alqışlayır və ya mühakimə edir, roğbətləndirir vo ya cəzalandırırlar. Qarşılıqlı təsirin taktikası isə adamın öz iş vo ya yol yoldaşı haqqındakı təsovvürləri ilo miioyyon olunur. Bu zaman onun şəxsi keyfıyyətləri ilo yanaşı niyyəti, motivləri və s.-nin aydınlaş-dınlması çox vacibdir.

Başqa mühüm cəhot isə i$ yoldaşlanmızın rolu ilə - onun müəllim və ya tələbə, ana və ya nənə, qadın və ya kişi, ev sahibi və ya qonaq, həkim və ya xəstə, şofer və ya sərnişin olması ile əlaqədardır. Bu zaman biz həmin adamlarla məhz müəllim, tələbo, nənə, şofer və s. kimi qarşılıqlı tosirə girir, eyni zamanda onlardan da öz rollarına müvafiq olan davranış tərzi gözləyirik. Adamlanıı hərəkətləri, əməlləri, davranış tərzi sosial normalara və rol gözləmələrinə uyğun gəlmədikdə, şoxsiyyətlərarası konflikt üçün psixoloji cəhotdən şərait yaranır.

Bu iki moment (ictimai münasibətlərin xarakteri vo iş yolda>ı haqqinda təsəvvürlər) birlikdo real ünsiyyət situasiyasını miioyyon edir. Ünsiyyət situasiyasının həmsöhbətlərin hor ikisi torofindon eyni şəkildə başa düşülməsi onun səmərəli olmasının mühüm

 şortidir. Belo olduqda, adamlar birgo qorar qəbul edir və onu həyata keçirmək üçün foaliyyotə başlayırlar.

### *§ 2. Insanlann qarşılıqh münasibətləri və ünsiyyət*

İnsanların qarşılıqlı şəxsiyyətlorarası münasibətlori də öz reallığını ünsiyyət prosesindo tapir. Ünsiyyət situasiyasında iki (və ya üç) adamın iştirak etməsi faktının özü insanlar arasmda qarşılıqlı münasibətlorin olmasını nəzərdə tutur. Qarşılıqlı münasibətlər nəinki ünsiyyot prosesindo oks olunur, hom do məhz bu prosesdə formalaşır.

Ünsiyyətlə qarşılıqlı münasibətlər bir-birilə üzvi surətdə əlaqədar olsa da, onlan eyniləşdirmok olmaz. Ünsiyyət insanlann birgo həyat foaliyyoti ilə şərtlənir. Qarşılıqlı münasibətlərin tipi vo xarakteri ünsiyyətin məzmununa vo formasına mühüm tosir göstərir, lakin insanlann münasibətləri son dorəcə kəskin olduqda belo, ünsiyyət spesifik formalarda mövcud olur. Başqa sözlə, ünsiyyət adamlann bir-birinə münasibotinin müsbət və ya mənfı olmasından asılı olmayaraq bütün hallarda zəruri surətdə həyata keçirilir.

Qarşıhqh münasibətlər müxtəlifdir. Funksional baxımdan onlann aşağıdakı tipini fərqləndirirlər: a) formal (və ya rəsmi); b) qeyri-formal (vo ya qeyri-rəsmi) qarşılıqlı münasibətlər.

Formal qarşılıqlı münasibətlor hər bir fərdin müvafiq konkret qrupda onun rosmi statusu (mövqeyi) ilo şərtlənən münasibət-lorinin məcmusundan ibarotdir. Onlar foaliyyətin normativ cəhotlorini oks etdirir vo miioyyon qaydalarla tənzim edilən i ş g ü z a r münasibətlərdo ifado olunur. Rosmi münasibətlər soviyyəsində kollektiv üzvləri arasında fəaliyyətin məzmunu və təşkilat vasitələrinə uyğun olaraq struktur-funksional asılılıq, məsul asılılıq münasibətləri sistemi yaranır.

Moktəbdə «direktor-müəllim» və «müəllim-müəllim» tipli münasibətlər formal qarşılıqlı münasibətlərə misal ola bilər. Onlann qarşılıqlı münasibətləri rosmi xarakter daşıyır və müvafiq ınzibati-hüquqi qaydalarla tənzim olunur.

Lakin bununla belo, hor bir moktobdo, eloco do zavodda, fabrikdo, ailodo, elmi-todqiqat institutunda vo s.-do insanlar ara-sinda formal qarşılıqlı münasibətlərlo yanaşı qeyri-formal qarşılıqlı ıuinasibətlor do əmələ golir.

Əlbəttə, burada xalqın etnik-psixoloji xüsusiyyətlərindən, yoni onun adət-ənənəsindən, milli xarakterindən, şuur səviyyəsindən, steriotip və yönümlərindən, əhalinin sosial tərkibindən, onun təhsil vo mədəni inkişaf səviyyəsindən çox şey asılıdır. Bu cəhətlor siyasi fəaliyyətdə dəqiq surətdo öyronilib nəzəro alınmalıdır. Həmin «nəzərəalma» iso iki istiqamətdə qurulur: birincisi, bundan öz mənafeyi naminə пeco sui-istifadə ctmok olar, ikinci iso, həmin cəhətləri nəzərə almaqla siyasi foaliyyoti müsbət istiqamətə пeco yönəltmək olar. İkinci halda sosial qrupların şüur soviyyəsinə təsir etmək, onları müsbət istiqamətində dəyişdinnək, iimumi amal istiqamətində yönəltmək do siyasi fəaliyyətdə, yəni siyasotçinin ideoloji fəaliyyətində mühüm yer tutur.

Bu monada siyasi foaliyyot çox mürəkkəb foaliyyot sahəsi olub yüksək professional hazırlıqla yanaşı dərin psixoloji səriştə tələb cdir. Burada psixoloji səriştosizlik cəmiyyətə daha baha başa gələ bilor. Odur ki, siyasi fəaliyyətlə məşğul olan şəxslor ilk növbədə insan psixologiyasına, xüsusən do sosial vo siyasi, eləco do ctnik psixologiya məsələlərinə dərindon bələd olmalıdırlar.



# XX F Ə S İ L

## ŞƏXSİYYƏT VƏ AİLƏ 1. Ailə:

### məhəbbət və şəxsiyyət

Bodii odəbiyyatın insan əzəməti və loyaqəti haqqında yaratdığı ən böyük psixoloji himn məhəbbət himnidir.

Məhobbət... Oğlan və qızlann bədbəxt və xoşbəxt mohəbbəti bütün dövrlərdə bodii ədobiyyatın on başlıca mövzusu olmuşdur. Təsadüfi deyildir ki, hər xalqın öz «Leyli və Моспип» dastanı vardır...

Bu munis hissin insan hoyatinda əhomiyyoti aydındır. Mohəbbot bünövroli ailələr həmişo xoşboxt olurlar. Məhəbbət do canlıdır, o da doğulur, ömrünün bahar və qış fosillərini yaşayır. Bəs, bizim müasirimizin ailə hoyatinda məhobbot hissi пeco rol oynayir?

Məhəbbot qanunlan ilə yaşayan ailələr çoxdur. Ər və ya arvad bütün həyatı boyu nəinki ömür-gün yoldaşını sevir, hom do ona öz uşaqlarını, cv-eşiyini sevmoyi öyrədir, hətta özlorinin ixtiyar çağlannda bclə bir-birinin qolbini gonclik mohobbətinin раk nəfsi və qeyri-adi hərarəti ilə isidirlər.

Xalqımızın dahi bostəkarı Üzeyir Hacıbəyovla bir yerdə işləmiş, onunla yoldaşlıq və dostluq ctmiş odəbiyyat vo incəsənət xadimləri yazırlar ki, o, məşqlərə tək golməzdi, hoyat yoldaşı Məleykə xanımı da özü ilə gotirərdi. Məleyko xanım onun bütün yaradıcılığını izləyir, ərinin sevinci ilə yaşayırdı.

İnsan mohəbbətinin bu böyük möcüzəsini nə ilə izah etmək olar?

Ailonin inkişafının bütün morhololərində mohəbbət hissi onun psixoloji bünövrəsini, toməl daşını təşkil edirmi? Xoşbəxt olmaq üçün tokcə məhobbot hissi kifayətdirmi? Sosioloqlar və psixoloqlar bu mühüm suallan aydınlaşdırarkən maraqlı faktlar aşkara çıxarmışlar. Bəzilori ilo tanış olaq.

Ailə xoşbəxtliyinin sirlərini təkcə mohəbbətlo izah ctmok bu gün çox sadəlövh görünərdi. Adamların toxminon 30 faizi bir-birini sevmodən ailə qururlar. Buraya ilk növbodə qohum vo tanışlar, ana və bacılar vasitəsilə yaranan ailolər daxildir. Bir çox ailəlor isə tosadüfi tanışlıq osasında yaranır. Müoyyon mülahizə ilə bağlanan nikahlara da az təsadüf olunmur. Boşanmaya aid statistika göstərir

556 k,, bu aıləlonn ЫΓ <г1д^өп vaxt keçdikden s Belo atləlәro a z o in aı, 1 o 1 o r deyiiir. 1978-cı ildo boşanma not.cosmdə d>| ^ *lol Ərdən 3>7 faizinin.ömrü ,.^ faızinın omru ««JЛj tokc^ ömrü 3-4 il olmuşdur. Azomurlü ailolonn ugursuz ta сип ^ ( qanunlanna и dorocodo d0^u;ilalənnha^ qeyd edok. Qarş.lıql, mohobbot olmadanyaranmışa.lai un^is. sonradan dajıhnnı? Xeyr. Hotta bir-b.nm sevmodon £ Л ş yə У па

hoqıqı mə^^xoş^ W. Onlar ev.onondon sonra Ыг b,rıno sankı «утокУ bbel > saglam uşaqlar torbiyo edirlor.

qısa muddotdo ь^*1п ™hkomlonmosi, xoşboxt ailo kimı ınkışai etmesı n%oləşdiJ ard.г?

Sosioloqlar тиоуУ ^lor ki, kişı vo qad.nların 70 faizı bir-bınnıi sevorok cyl* ^эЛ1 8eyэп göyçok olan> - dcmislor Burada da bız qor.b* ^ o aд1 Evlənəndən » keç», molum olur к • ^f Ya1Шг 46 ш fa sevmokdo ^^1^.«Ч sevmir. ümumiyyotlo Г1Э"ЭИ TJ^lirso onlaru^N ^uxtolif kis, vo qadmlann ailo hoy at. davam edtfse,>1Л>Жш*в çoxunu mohəbbot hijsi b'' J^t^^Wj osdırmır. Bır • *enon Ə,rki, J bir çoxu dağıhr. Belo bir fakt Condon sonra bosanan qadın və kışılor bosaO ^ do xüsusi yer tuturlar. Lakin bu ümumi J^У^A, Belo adolorin oksorıyyoti aila CЯ1чатЭЙ.в noınk dagılmır окь» * ^ %hanından uğurla çıxırlar. Bu halları no do ı/ah etn ^ kı, mohobb^ h!ԿЫ 1п yalnız llk ш ^Ч р n todqiqatlar göstonr

nıkah.n taley. tokco ı ^ 4,dən yox, eyni zamanda birgə ömür-gun sumıuş orИ (^xslyyətindən, hər ш J Ueytıyyot ormdon *B* ^ * nuınas.botlorı, bub^ . ч ^ mohebbotin , Л Жп' ^AcSvun a^bbeti bu monovi miqyasla ol V lUuu ü gö^Wjb.r do qay,daq. Üzeyir boyin mohobbot. hom do o * d Л uIv,- vefall" səd ^ ^ o, no.nkı bostoka. h- böyük və Ө2Ө ч и ^

Xalqyazıç.s, Mtf^ 0^rfikrmi хайг, <<()^

bir insan, bir Şewı^^mudrik, təmk 4 mII ada y

idi. Ən çotm vozıyy^ 4ktil olan on ag.r mosolololordo tələsməz, birdən-birə coşan hisslərin, ehtirasların tohrikinə qapılmaz, müdrik yol tapardı».

Ü. Hacıbəyov haqqındakı xatirələri həyocansız oxumaq olmur. O, sənətdə də, ailədə də sözün əsl mənasında böyük insan idi.

Ailənin taleyi, bu hoyatın fərəhli, uğurlu olub-olmaması ərin vo arvadın şəxsiyyətindən asılıdır. Elə halla qarşılaşırsan ki, ailodəki qeyri-normal mənəvi və sosial vərdişlər bu həyatı kölgə-loyir, narazılıqlara gətirib çıxarır. M. F. Axundovun Hacı Qarası xəsisliyi ucundan ailəsini ac saxlayır. Arvadı Tükəzin narazılığına diqqət edin: «Uşaq aşıq yığan kimi, bu qədər pulu yığıb nə cliyəcəkson? Yüz il ömrün ola, yeyəsən, geyəsən, içəsən, pulun tükənmoz... Öz malını no özün yeyib-içirsən, no oyalına məsrof edirsən. Son ölson, heç olmazsa, arvad-uşağın doyunca çörək yeyəг».

Demokrat yazıçı C. Məmmədquluzadonin Xudayar boyi başqa yönümdən arvadına münasibətini bildirir: «Xudayar bəy övrətinin saçlannı sağ əlinə doluyub, cvdə o yana sürüyürdü, bu yana sürüyürdü...

- ...Bir də moni tongə gətirərsən? Bir də cızığından çıxarsan? Övrəti dinmədi. Xudayar sağ əlini yuxan qaldınb başladı:

- And olsun allahın birliyinə, son bir do mənim işlərimo qanşasan, mənim sözümün qabağında söz danışasan, ta onda özünü ölmüş bil. And olsun Allaha, qabırğalannı sındırram. Ayişənin qızı, monim cvlonmoyimin sono no doxli var?

Övrət bir cavab vermədi...»

Bu, feodal-patriarxal ailo münasibətlorinin tipik nümunəsidir.

Ərin və arvadın şəxsiyyəti ailə münasibətlərində - bir-birinə vo uşaqlara münasibətdə üzə çıxır. Burada söhbət bir insan ömründən, bu ömrü insan kimi mənalı, sakit və təmiz yaşamaqdan gcdir. Xalq şairi Rəsul Rza «Məп insanam» şerində bu hissi gözol ifado etmişdir:

**Həyat bclodir, İstosən gül,**
**İstosən ağla. Amma insan**
**olduğunu yadında saxla...**

İnsan. M. Qorki denıişkon, adı böyük horflo yazılan insan. Ərin vo arvadın bir şəxsiyyət kimi böyüklüyü də elə bu meyarlarla ölçülür, qiymətləndirilir.

Ailənin yaranmasında iki nəfər - ər vo arvad iştirak edir. Onlar 558 пeco torbiyo almışlar? Bir şəxsiyyot kimi onlarda hansı keyfıyyətlər foımalaşmışdır? Bunlar adi suallar deyildir. Ər vo arvadın şəxsi səadəti, gələcək ailənin, uşaqların xoşbəxtliyi, ümumiyyətlə, onlann bir şəxsiyyət kimi пeco formalaşmalanndan asılıdır.

Ailodə ər-arvad orta hesabla 32-40 il birgə ömür sürür. Azərbaycan republikasında - uzunömürlülər diyanında 100 ildən artıq birlikdə ömür-gün sürmüş xoşbəxt adamlar da vardır. Bclə ailələrlo yaxından tanış olduqda inanırsan və yoqin edirsən ki, ailo qurulan ilk gündən or və arvad bir-birinə mehribanlıq, sədaqətlilik göstərmişlər. Deməli, həyat yoldaşı nəinki qadının vo ya kişinin, hom do ata vo ana kimi uşaqlann gəlocək talcyindo həlledicidir. Məhz buna görə do hor bir gone bilmolidir ki, kiminlə ailo qurur, yaşayır, onun hansı xiisusiyyotlori vardır, bu xiisusiyyotlori ailo hoyatında пeco nozoro almaq olar? Lakin bozon bu vacib cohotlor nozoro almmir, zahiri xoşagəlmo, tosadüfı iinsiyyot vo s. ailo qurmaqla noticolonir.

Miioyyon yaşa çatanda bütün oğlan və qızlarda ailo qurmaq tələbatı omolo golir. Onlar evlənmək istoyirlər vo... evlonirlər. Ancaq onlardan hor biri bu vaxt miioyyon bir motivdən çıxış edir: bir qrupu oğlanı sevdiyi üçün ona ərə gedir, ikincisi adot vo әпәпә üzrə evlənir (harm evlonir, mon də evlonim), üçüncüsü maddi mülahizələrə (oğlanın yaxşı peşosi, evi, ümumiyyətlə, maddi təminatı vo s. vardır), digor qrupu qız xoşuna gəldiyi üçün, yaxud oxlaqi mülahizolərə göro evlənir... Bu şorti qrupları miixtolif sosioloji və psixoloji todqiqatların nəticələri

əsasında davam etdirmok mümkündür. Nəticə çıxarmaq üçün bunlar da kifayətdir: insanlann əxlaqi şüuru, monəviyyatı. hüquqi düşüncosi eyni deyil, onlar öz həyatlarının mənasını və gələcək perspektivlərini eyni şəkildo başa düşmürlər. Bundan asılı olaraq davranış motivlərində köklü forqlər omolo golir. Sevdiyi üçün və maddi mülahizələrə görə evlənmiş iki adamın davranış motivləri heç do eyni məna daşımır. Onlann öz ailəlorinə, «həyat yoldaşlarına, hotta doğma uşaqlarıııa münasibətlorində fərqli cəhətlor özünü göstərir. Əgor biz hor hansı bir adamın, tutaq ki, sevdiyimiz qızın və oğlanın, həyat yoldaşımızın davranış motivlərini bilmiriksə, bu psixoloji baxımdan o demokdir ki, onun şəxsiyyəti, davranışının osl məzmunu haqqinda təsəwürümüz yoxdur.

## 559 **2.** Ailədə psixoloji uyuşma haqqinda

Ailo həyatında psixoloji uyuşma no kimi rol oynayir? O, hansi amillərlə şortlənir?

Ailonin psixoloji iqlimi or vo arvadin, golin vo qayınananın, eloco do ailonin digor uzvlorinin sosial-psixoloji cohotdon bir-birino uyuşmasında özünü daha aydın şəkildə göstərir.

Ər-arvadın bir-birino uyuşması özünün bir mühüm xüsusiy-yətinə görə başqa adamlar arasındakı uyuşmadan fərqlənir: o, adətən məhəbbət hissinə əsaslanır. Görkəmli Azərbaycan yazıçısı M. S. Ordubadi yazırdı: «Ailəni iki nəfər naşı vo həyata təzəco atılan, eyni zamanda bir-birini sevən adam qurmağa məcburdur. Onlar elə adamlardır ki, şəxsiyyətcə, şəkilcə, zövq və maraq cəhətco do bir-birinə oxşamırlar. Onlann uyuşması üçün, ümumi dil tapması üçün istinad edə biləcəyi yeganə bir vasitə varsa, o da sevgiləridir. Bunun üçün onlar no cür hərəkət edirlorsə etsinlər, sevginin ləkəlonməsinə, bu istinadgahın laxlamasına imkan vcrməməlidirlor».

Ailə inkişaf etdikco, ər-arvadın münasibətləri də mürokkob-ləşir. Onlann bir-birinə uyuşmasında miixtolif amillər mühüm rol oynamağa başlayır.

Ər-arvadın bir-birinə uyuşması da ailo həyatı üçün homişə böyük əhəmiyyət daşımışdır. Maraqlıdır ki, toylarda qohumlar, qonşular oğlan, yaxud qız evinə «gözaydınlığı» verəndə deyirlər ki, «xoşbəxt olsunlar», «ulduzları banşsın», «toki sözləri tutsun», «qoşa qarısınlar». Miiasir toylarda da biz belo alqışlara çox rast gəlirik. Lakin keçmiş ailələrdən forqli olaraq, miiasir ailələr üçün psixoloji uyuşma problemi daha böyük monaya malikdir. Bu no ilo əlaqədardır?

Sosial bərabərsizlik vo əmlak bərabərsizliyi bir-birini sevən oğlanların, qızların qəlbən birləşməsino əsrlər boyu mane olmuş-dur. Kəndli qızı bəy və ya xan oğluna əro gedə bilməzdi. Boy vo ya xan öz qızını hotta «arşın mal alıb-satana» verməzdi. Ü. Hacibo-yovun moşhur «Arşın mal alan» musiqili komediyasinda Soltan boy etiraf edir ki, həqiqotən tacir tayfası monim xoşuma golir. Yoxsa, bu incinar-mincinar, doxtur-moxtur, vəkil-mokil, uçitel-muçitel-lorlo monim işim olmaz. Onlardan xoşum da golmoz...

İctimai həyatda baş verən dəyişikliklər ailo qurmaq işində hom do şəxsi mocburiyyot meyllorini aradan qaldırdı. Lakin owolki çətinlik vo maneolor yeni, əvvəllər ağlagəlməz çətinlik vo

560 mancələrlə ovəz olunurdu. Əvvəllor bizim nənələrimizin, babalarımızın məhəbboti, xarakteri mocburiyyot və zorakılıq qanunlanna tabe edilirdi. Leylinin bu böyük dordi yaniqli-yamqh onun ürəyindən qopmuşdu:

**Mon gövherəm, özgələr xiridar, Mendə**
**deyil ixtiyari-bazar.**

Zaman bizi həyat yoldaşı, ömür-gün yoldaşı seçmək azadlığı ilə sınayır. Azadlıq gone oğlan və qızlardan özlorinə xüsusi inam və məsuliyyət tələb edir.

Ulu babalanmız öz doğma övladlarını gözündən uzağa qoymamağa, «yada verməmoyə» adət etmişdilər.

Qızlan, adotən, öz qohumları, yaxın tanışlan, həmkəndliləri ilə evləndirirdilər. Hətta qonşu kəndlə, xüsusilə yaxşı tanımadıqlan adamlarla qohum olmaq istəmirdilər. «Ac qulağım, dinc qulağım» - deyirdilor.

Bu qaydada silki məhdudluq çox idi, lakin o hom do miioyyon müdrikliyi ifado edirdi. Oğlan və qızın böyüdükləri, torbiyə aldıq-ları miihitin oxşar olması nəticəsindo onlann maraqlarında, cəhdlərində, bir sözlə, həyata baxışlannda ümumi cəhətlər özünü göstərirdi. Bir mohəllədə, bir kənddə böyüyən or və arvad bir-birlərini tez başa düşür, bir-birino asanlıqla uyuşurdular.

İndi isə gənclər ailə quranda kimin hansı kənddə, hansı rayon-da və ya şəhərdə böyüməsino, hətta valideynlərinin, bacı və ya qardaşlarının kim olmasına əslində əhomiyyət vermirlər. Rəssam oğlu fəhlə qızı ilo evlənir, alim qızı kolxozçu oğlu ilo ailo qurur... Belə nigahlar bütün cəmiyyət üçün təbii və mütərəqqi hadisə olsa da, ayn-ayrı ər-arvadlar gözlənilməz çətinliklərlə rastlaşırlar. Bə-zon onlann kişi və qadının vəzifələri haqqinda tosəvvürləri bir-birino uyğun gəlmir. Maraqlannda, zövqlərində vo s. miioyyon zid-diyyətlər özünü göstərir. Bu o demokdir ki, or vo arvadin psixoloji cohotdon bir-birino asanlıqla uyğunlaşması vo ya uyuşa bilmomosi miiasir ailo üçün daha böyük əhəmiyyətə malikdir.

Ailo həyatında uyuşmamn aşağıdakı növləri daha miihiim rol oynayir:

1. Sosial-mənəvi uyuşma.
2. Psixoloji uyuşma.
3. Psixofizioloji uyuşma.

Bu məsələlər psixologiyada holo kifayot qodor öyrənilməmişdir, lakin əldo edilmiş materiallar əsasında uyuşma üçün sociyyovi olan bir maraqlı xüsusiyyət müəyyən olunmuşdur: orlə arvadin ideya-monəvi sərvətləri, maraqlan vo zövqləri bir-birinə oxşar olduqda onlar bir-birinə daha çox uyuşurlar. Halbuki bəzi temperament və xarakter xiisusiyyotlori oxşar olduqca, ər-arvad bir-birino cox vaxt çətinliklo uyuşur, bəzən isə uyuşa bilmir.

Sosial-mənəvi uyuşma or vo arvadin ideya-mənəvi sərvət-lorinin, həyat mövqelərinin, ən mühüm hoyat hadisəsi haqqinda baxışlarının və qiymət meyarlarının ümumi olmasını nəzərdə tutur.

Ailonin moqsodi nodir? O, no üçün yaşayır və öz iizvlorino no vermolidir? Ailonin, elocə do onun hər bir üzvünün: atanın vo ananın, qızın və oğulun həyatında ən başlıca cohot nodon ibarotdir? İkinci dərəcəli cohot nodir? Ailo özünün bu vo ya digər moqsodini пeco həyata keçirmolidir? Dobdə olan və çotinliklo tapılan paltarı hökmon oldo etmok lazımdırmı? Qadın və kişi пeco olmalıdır? Uşaqlan пeco tərbiyə ctmoli? Ailo moişətini пeco təşkil ctməli? Arvad пeco gcyinmoli, bəzoyi пeco olmalıdır?.. Bu suallar ər-arvadın «həyat folsəfosini» ifado cdir. Onlar ailə üçün həyati əhəmiyyətə malikdir. Bu hcç do təsadüfı deyildir. Nəzərdən keçirdiyimiz suallar bilavasitə ailonin mənəvi hoyatı ilə bağlıdır. Ər-arvadın miixtolif həyati situasiyalarda bir-birinə verdikləri əxlaqi qiymətləri nəzərə almadan onların qarşılıqlı münasibot-lərinin xarakterini düzgün başa düşmək olmaz. Ailonin ideya sorvətləri onun əxlaqi sərvətləri ilə vəhdətdədir.

Əgər ər-arvadın bu məsəlolər haqqinda tosovvürləri, rəyi, qiymət meyarı bir-birinə uyğun gəlirsə, ailədə münaqişə şəraiti əsasən yaranmır. Bu da təbii haldır, çünki ər-arvadın gözü bir görür, qulağı bir eşidir, hotta üroyi do bir döyünür.

Lakin bir çox ailələrdə or-arvadın bu mühüm məsələlor haqqinda fıkirləri, qiymət meyarlan uyğun gəlmir. Biri deyir ki, gözümün ağı-qarası bir balam var, qoymaram əlini ağdan-qaraya vursun. O biri düzgün olaraq əlavə cdir ki, uşağı bədbəxt etmə. Qoy zəhmətə alışsın! Biri deyir ki, alverçidən şey almaq ağılsızlıqdır. O birisi isə tokidindon dönmür, isrannda qalır; bu minvalla ailodə söz-söhbot omolo gəlir, dama-dama göl olur...

Psixoloji uyuşma da belədir. Ər vo arvadin maraqlan və zövqü uyğun gəldikdə, sözlori daha yaxşı tutur. Əgər biri, tutaq ki, balet musiqisi ilo maraqlanırsa, o biri maraqlanmır, biri oyləncəli tamaşanı xoşlayırsa, o biri folsofi osori... Aydın məsələdir ki, onlar

562 çox vaxt eyni bir baletə, musiqili komediyaya, əyləncəli televiziya verilişinə birlikdo baxa bilməyəcəklər.

Bu faktlar sizə öz məktəb həyatınızdan da bəllidir. Yaxşı mə-lumdur ki, iki yoldaş eyni dərəcədə, məsələn, riyaziyyatla maraqlananda, yoldaşlığı asanlıqla möhkəmlənir, dostluğa çevrilir. Bu da eyni qanunauyğunluqla - psixoloji uyuşma ilə bağlıdır. Bos, xarakter haqqinda no demək olar? Bozən ər-arvad öz xarakterlərinə görə bir-birlərinə oxşadıqda, hor ikisi mehriban olduqda, psixoloji cohotdon bir-birino asanlıqla uyuşur, birlikdo forohli hoyat siiriirlor. Lakin onlann hor ikisi eyni dorocodo tonbol, kobud olduqda... Bu mosolo haqqinda nisboton gcniş danışmaq zəruridir. Golin məhkəmələrə boşanmaq üçün vcrilmiş ərizələrlə tanış olaq. Onlann oksoriyyətində boşanmanın sobəbini izah edorkən or-arvadlar yazırlar: «xasiyyətimiz tutmur», «xarakterimiz düz golmin>.

Əlbotto, boşanma miirəkkob hadisodir. Onun monovi-sosial motivlorini hor hansı bir formulla: «xasiyyotimiz düz golmir»lo izah etmok olmaz və bu, mümkün deyil. Lakin məhkomə salon-larında sanki Hamlet kimi «olum, ya ölüm» monoloqu söyləyən dünonki ər-arvadlar özlərinin boşanma qərarlannı çox vaxt bu formulda osaslandınrlar.

Sosioloji tədqiqatlar göstərir ki, qadınların və kişilərin boşanma zamanı istinad etdikləri motivlər içərisində bu formul üçüncü yer tutur. Sosioloji vo sosial-psixoloji ədəbiyyatda bu tipli faktlar dəfələrlə təhlil edilmişdir.

Miioyyon olunmuşdur ki, homin motivo istinad edonlorin, xiisusilo gone or-arvadlann çoxu «xasiyyətləri düz golmədiyinə» görə dcyil, məhz «düz gəldiyinə görə» boşanırlar. Ərin vo arvadin eyni dorocodo kobud vo ya tonbol olduğu ailələrdə biz homişo belo hadisələrin şahidi oluruq.

Hor bir münaqişədə, ailo söz-söhbətlərində, ər-arvad dalaşında onlann xarakter əlamətləri.bilavasitə təzahür edir. Ümumiyyətlə iso, insan münasibotlorinin fonnalaşmasında xarakterin əhəmiyyəti böyükdür. Xeyirxahlıq, dözümlülük, güzəştə getmək və s. ər-arvadın bir-birino mehr salmasında, xoş ülfət bağlamasmda, bir-birini düzgün başa düşmosi və anlamasında mühüm rol oynayir.

Kişi xarakteri do, qadın xarakteri də ailonin sağlam monəvi-psixoloji iqlimi baxımından eyni dorocodo əhəmiyyətlidir. Lakın burada minbir görünmoz incə tellorlə ori ailəyə bağlayan, onın psixi sağlamlığını şərtləndirən qadın mchribanlığının, qadın ülfətinin rolunu aynca qeyd etməliyik. Kobudluq, sərtlik, hər şeydən şübholənmək, bütün başqa hallarda olduğu kimi ər-arvad münasibətlərinin normal inkişafına da mənfı təsir göstorir. Qadınla nəzakotlo rəftar ctmok, ona diqqət və qayğı ilə yanaşmaq, kodər və sevincinə şərik olmaq müasir ailədə kişi üçün ən qiymətli keyfıyyətlərdən sayılır.

Bir cəhət də maraqlıdır: ər-arvad münasibətlərində xarakter kcyfıyyətləri həmişə emosional boya kəsb edir. Onlardan hər birinin zəngin emosional palitrası, çalarları vardır. Biz adətən, «xarakter mədəniyyəti» ifadosini işlətmirik. Lakin «hisslər mədoniyyəti» ifadəsi dilimizdə çoxdan vətəndaşlıq hüququ qazanmışdır. «Hisslər mədəniyyəti» zəruri surətdo, əgər belə dcmok mümkünsə, xarakter modəniyyotini do nəzordo tutur.

Beləliklo do, psixoloji uyuşma ailədə əlverişli psixoloji iqlimin yaranmasının əsas şərtlorindən biri kimi özünü göstərir. Ər-arvad bir-birino uyuşa bilməyəndo

psixoloji iqlim do tədricən pisleşir, ailədə söz-söhbət əmələ gəlir, münaqişə şoraiti yaranır.

Psixofizioloji uyuşma prosesindo do maraqlı xüsusiyyətlər müşahidə olunur. Ər vo arvadin hor ikisi sanqvinik temperament tipino monsub olduqda bir-birilo asanlıqla dil tapir vo mehriban yaşayırlar. Əг do, arvad da xolerik (tündmocaz) temperament tipino monsub olduqda iso çox vaxt bir-birino uyuşa bilmirlor. Halbuki onlar müxtəlif temperament tipino, mosolon, sanqvinik vo fleqmatik temperament tipino monsub olduqda, bir-birino daha yaxşı uyuşurlar.

Ailo həyatında uyuşmanın hor üç növü: sosial-mənəvi psixoloji vo psixofızioloji uyuşma mühüm rol oynayir. Lakin bununla belo, sosioloqlar vo psixoloqlar miioyyon ctmişlər ki, boşanan or-arvad-lann bir çoxu özlərinin temperamentino vo ya xarakterinə görə deyil, daha çox eyni bir şeyə baxışları vo münasibətlərinə görə bir-birino uyuşa bilmirlor.

İndiki ailolərdə çox vaxt söz-söhbətin səbobi ər-arvadın əmlak vo/iyyətindon daha çox onlann maddi sorvətlərə münasiboti ilə bağlıdır. Əgər kişi (əг) harınlaşmış ailədə böyiimüşsə, o, var-dövlət yığmağı vo onu qorumağı öyrənmiş həyat yoldaşı ilə çətinliklə iimumi dil tapa bilir. Yaxud, əksinə. Bunu həyati müşahidələr do təsdiq cdir. Ər-arvadın ailonin ideya-mənəvi sorvətləri haqqinda təsəvvürləri, rəylori və qiymət meyarları uyğun goldikdə psixoloji vo psixofizioloji uyuşmazlıq halları həlledici əhəmiyyət daşımır. Ər-arvad ailonin məqsəd və vozifəlorini düzgün başa düşdükdə, əl-

564 ələ verib birgə həyatlarına mane olan nöqsanları qətiyyətlə aradan qaldınrlar. Onlar insan məhəbbətinin ecazkar qüdrotinə arxalanıb həm özlərini, hom də bir-birlərini tərbiyə edirlor. Bu qüdrətə arxalanmaq və inanmaq ailəyə soadət gətirir.

### 3. Ailədaxili münaqişələr, böhranlar və onlann aradan qaldırılması

Ailo canlı təsisatdır. O da dialcktika qanunlarına tabedir. Bu monada da söhbət heç də ailodə münaqişonin olub-olmaması haqqinda gctmir. Münaqişəsiz ailə əslində yoxdur vo ola da bilmoz. Bu məsələnin düzgün başa düşmək üçün, birinci növbədə, münaqi-şənin monəvi mozmununa diqqət yetirilməlidir.

Münaqişə ailədo ünsiyyotin özünəməxsus cohəti kimi meydana çıxır, ərin, yaxud arvadin öz mövqeyini dəqiqləşdirmok, həyat yoldaşına tosir etmok, hotta bəzən sadəcə olaraq özünütəsdiq meyllorinin ifadəsi kimi nəzərə çarpır. Ailonin formalaşdığı ilk morhələlərdə açıq və ya gizli münaqişələrin tez-tez müşahido olunması da məhz bununla bağlıdır.

Ailo nıünaqişələri mənbəyinə, mozmununa və fonnasına görə müxtəlifdir. Ailə həyatında onlardan bəzilərino, xüsusilo:

1) ər-arvadın toləbatlarının, o cümlədən seksual təlobatlarının lomin olunmaması əsasında əmələ gələn;

2) onlann terbiyəsi, xüsusilo xarakteri vo mənəvi inkişafı ilo bağlı olan;

3) ər-arvadın özlərinin qarşılıqlı hüquq və vəzifələrindən, ailədo əmək bölgüsündən, uşaqlara göstərilən qulluqdan narazı olması əsasında omolə gələn münaqişələro daha çox təsadüf olunur.

Ailo münaqişolorinin on başlıca sobəbi uzun müddət maddi səbəblərlə (ailonin tomin olunması, pulun xorclonməsi, mənzil problcmi və s.) bağlı olmuşdur. Şəxsiyyətin hərtərofli inkişafı, xüsusilə istər ərin, istərsə arvadin təhsil-peşə səviyyəsinin yüksəlməsi, tələbat sahəsinin zonginləşməsi vo s. nəticosində ailə münasibətlorində mənəvi-psixoloji amillər daha mühüm rol oynamağa başlamışdır. Bu cəhət ailə münaqişələrindo bütün aydınlığı ilə öziinii göstərir. Münaqişələrin əməlo gəlmosindo mənəvi-psixoloji səbəblərin rolu gündən-güno artır.

Burada «inkişaf çot;nliklori» adlanan sobəblər haqqinda da

565 ayпca danışmaq lazım gəlir. Mühüm cohət ondan ibarətdir ki, hüquq bərabərliyi və iqtisadi müstəqillik qazanmış qadın ailə həyatında daha fəal rol oynayir. Halbuki kişilər çox vaxt psixoloji ətalət gücünə ailədə başçılıq etmoyə cəhd göstərirlər. Başqa sözlə, onlann şüur və hissləri ailonin ycni inkişaf səviyyəsinə uyğun gəlmir. Kəskin ailə münaqişələrinin bir çoxu bu zomindo meydana çıxır. Hətta bəzən ailədə böhranlı vəziyyət omələ gəlir: ər-arvad aylarla bir-birini dindinnir və yaxud gündə bir-birilə vuruşur, uşaqların, qohum-əqrəbanın, qonşulann yanında bir-birini təhqir edirlor; ərin və ya arvadın evdən küsüb getməsi hallarına da az təsadüf olunmur.

Boşanmaların bir qismi or-arvad vəfasızlığı (xəyanoti) nəticpsində baş verir. Bu azərbaycanlı ailələrdo geniş yayılmamış-dır. Demək olar ki, cüzilik təşkil edir. Lakin hor halda bu kimi hallara da rast golinir. İnsan xisloti heç zaman dostluqda, məhəb-botdə, işgüzar münasibotlordə, öz xalqına, Vətəno münasibətdə xoyanətə dözməmişdir. Yalnız şüurlu, bilərokdən atılmış addım-dan başqa hər şeyi - səhvi. diqqətsizliyi, düşüncəsiz hərəkoti, hətta tosadüfi məğlub olmanı da bağışlamaq mümkündür. Boşəriyyot bu hisso qarşı nə üçün belə barışmazdır? Cavabı aydındır: insanlann bir-birinə inamı olmadan birgo iş, foaliyyot mümkün deyildir. Xəyanət, yeri goləndə, hotta bir xalqın taleyini belo həll edir. Qon-şunun qonşuya xoyanəti də çətin bağışlana bilər. Ailə içərisindəki xəyanət iso daha dohşətlidir. Ona görə do bu dünyaya göz açan gündon uşaqlara xəyanət hissi yad olmalıdır.

Azərbaycanlı ailolər üçün ər-arvadın sərxoşluğa qurşanması da səciyyəvi hal deyildir. Papiros çəkməyə və içməyə meylə xüsusən qadınlar arasında çox nadir hallarda rast gəlmək mümkündür. Lakin bəzi kişilərin içkiyə həddindən artıq

aludəçiliyi nəticəsində ailə dağılır. Bu zaman boşanmanın toşobbüsçüsü, adəton, qadınlar olurlar. Onlar sərxoşluq kimi bir bəlanı ailə hoyatı, uşaqların tərbiyəsi üçün normal şəraitlə bir araya sığmaz sanırlar.

Ailədə ər-arvad arasında ixtilaf doğuran səbəblərdən biri qısqanclıqdır. Həyatda elə şəxslər vardır ki, onlar təbioton qısqancdırlar. Bozon bu hiss belolorində hcç bir osas olmadan baş qaldırır və bunun üçün müoyyon bəhanə do lazım olmur. Sobəb onun daxili alomindo, tobiotindodir. Qısqanclıq üç şəkildə özünü büruzə verir: a) kişi və ya qadın azca qısqanır, sonra yanıldığını başa düşüb pcşmançılıq hissi kcçirir, zəifliyinə təəssüflənir; b) kişi vo qadın son dərəcə özündən çıxır, danışığına, hərəkətlərinə lıodd

566 qoymur; v) kişi və qadın yalnız özünə təsəlli vermoklo kifayətlənir.

Ərin öz arvadına inanmaması vo bunu nəinki ona, habelə uşaqlara, qohumlara, tanışlara, qonşulara vo başqalarına hiss etdinnəsi ailə faciəsidir.

Dramaturq Sabit Rohmanın «Əliqulu evlənin> komediyasında bu mosələ qoyulmuşdur. Rövşən Nazlıya deyir: «...Sənin yad bir kişi ilə gülümsəyərək, bir dofə danışmağın aylarla mənim yuxumu qaçırdır. Son özünə bəzək-düzək verib gündo bir cür saçını darayanda, mən şübhodən saçımı yoluram...»

Yasomon: «gözol arvada ori qısqanar da» - deyondə Nazlı ona haqlı etiraz edir: «Bir balaca qısqanmaq olar, sözüm yoxdur, məzə üçün. Yoxsa Rövşən kimi dəlilik cləmək? Mono bir moktub gəlmişdi, nə bilim hansı axmaq yazmışdı? Belə gözəlson, belə qəşəngsən... İmza da qoymuşdu... Ə. Özündon çıxmadı? İdarədə Əhməd adlı bir oğlan var idi, düşdü onun üstüno. Xocalotdən ayπ bir yerdo işə girdim. Orada da müdirin adı Əbdül imiş, dedi: yoqin qabaqcadan sözləşmişdiniz. Qərəz moni addım-addım təqib eləyirdi. Su içirdim, susatanla savaşırdı ki, niyo mənim arvadımın üzünə baxdın? Paltar tikdirirdim, dərzini hədəloyirdi. Hətta cansız şeylərə, şkafa, divara, otağa da məni qısqanırdı».

Burada biz «Arvadı əri saxlar, pendiri dəri saxlar» atalar məsələni istər-istəmoz xatırlamalıyıq. Lakin bu müdrik sözlərdə böyük həqiqot olsa da, bir cəhəti unutmaq olmaz: bir çox hallarda or öz arvadını «sədaqətsizlikdo», «vəfasızlıqda» günahlandırıb təhqir edə-cdo əslində onun əxlaqına monfi tosir edir. Atalar bunu da deyib: «Mərdi qova-qova namərd edirlər». Həyat yoldaşının gözol, yaxud çirkinliyindon asdı olmayaraq onunla münasibətində or homişə sözün əsl monasmda davranış modəniyyotini gözləmolidir. Eyni sözlər qadınlara da aiddir.

Qadın qısqanclığı bəzən daha ifrat fonnalarda özünü göstərir. lırıldaqçı falçılara inanan, evindən soyumuş əri üçün «cadu etdirən», «məhəbbot duası» yazdıran qadmlar holə də aramızda vardır. Kişinin ciblərini axtaran. tclefon nömrəlorindən şübhələnən və telefon söhbotlorinə qulaq asan, ona gəlon moktubları xəlvəti oxuyan, tanış qadınların səz-söhbətinə inanıb evdə dava-dalaş salan qadın, özünə hörmət etmədiyini düşününuü? O, bu yolla özünü tanışların, qohumların, uşaqların yanında yalnız gözdən salır.

Hor bir ailə özünün psixoloji xüsusiyyətlorino və s. görə başqalanndan fərqlənir. Bundan asılı olaraq eyni bir maddi vo ya

567 mənəvi-psixoloji səbəb müxtəlif anlələrin həyatında eyni şəkildə özünü göstormir.

Ailədə münaqişə şoraitini nccə aradan qaldırmaq olar?

Mütəxəssislərin fıkrincə, bunun üçün ilk növbədə ər-arvad münasibətlori mədəniyyətini, nigah modəniyyətini, bir sözlə, ailə mədəniyyətini yüksoltmək lazımdır.

Ailə mədəniyyəti çox geniş anlayışdır. Hər bir gənc aydın dərk etməlidir ki, ailə mədəniyyəti bir-birinə hörmətdən, səmimi münasibətdən, qarşılıqlı etimaddan, bir-birinin qayğısına qalmağı bacarmaqdan, fikir və hissləri qarşılıqlı etimad tərzində bölüşmək-dən, ycri gələndə, birinin digorinə qarşılıqlı güzəştə getməyindən, ağıllı, təmkinli yaşayışdan yaranır. Ailə mədəniyyətində böyük-kiçik məsolə yoxdur... Ozlüyündə kiçik sayılan meseleni böyütmək, ciddi münaqişə səviyyəsinə çatdırmaq, yaxud böyük münaqişoləri səbr və təmkinlə holl etmək mümkündür. Buna görə cavanlar öz ailələrinin tamlığını qoruyub saxlamaq üçün ilk növbədə cəmiyyət qarşısında ciddi məsuliyyət daşıdıqlarını dərk etməlidirlər. Çünki nigahm əsasını məhəbbət hissi ilo borc və məsuliyyət hisslərinin vəhdəti təşkil cdir.

Münaqişə ər-arvad həyatınm dramasını ifado edir, lakin o, ailə faciəsinə çevrilməməlidir. Bunun üçün ailə mədəniyyətinin tələb-lərinə əməl etmək lazımdır. Onlardan on sadələri aşağıdakılardan ibarotdir: vuruşub barışmaqdansa, artıq-əskik danışıb bir-birini tohqir cdəndən sonra mübahisoni kəsməkdənsə, пeco deyərlər, «başını yanb otoyino qoz tökmokdənsə», münaqişoyə başlamamaq daha asandır.

Uşaqların yanında mübahisə açmamaq, açıq söhbət üçün münasib vaxt tapmaq, somimi olmaq, hoyat yoldaşının ctiraz vo iradlanna diqqətlə qulaq asmaq, onun bütün «dəlil-sübutlarını» aydınlaşdırmaq, mübahisəli məsələləri ağıllı surətdə holl etmək, həmişə xeyirxah mövqc tutmaq vacibdir. Ər vo arvad bir-birini acı sözlo, tono ilo deyil, işlə, şəxsi nümuno ilo öyrətməli, başa salmalıdır. Səbrli, təmkinli olmaq məsləhətdir. Hisso qapılmamaq, dalaşmaq, yaxud küsmək üçün bohanə axtarmamaq lazımdır. Bu gün sosioloqlar və psixoloqlar ailə ixtilafları məsələlərindən danışarkən diqqəti hətta «küsmək (dalaşmaq) mədoniyyətinin» əhəmiyyətinə cəlb edirlor.

Ailodo baş vermis xırda mesəlolori unutmaq, yaddan çıxarmaq zəruridir. Münaqişə baş verdikdə, çalışmaq lazımdır ki, ər-arvad bir-birinə həyat yoldaşı, övladının atası və anası kimi hörmət etsin,

568 insanlıq ləyaqəti və nüfuzu ilə hesablaşsın, xırdalanıb kiçilməsin, həmişə cəmiyyətin, ailonin və uşaqların mənafeyini nəzərə alsın. Bu, əsl insan hünəridir.

Ər, yaxud arvad mübahisəli məsələləri aydınlaşdırarkən səsini yüksəltməməli, əksinə, ixtilaf dorinləşdikcə sözünü sakit, yumşaq və nəzakətlə çatdırmalıdır.

S. Vurğun «Aygün» poemasında sevimli qəhrəmanına tomkinli olmağı məsləhət görür:

**Sən haqlı da olsan əgər, azacıq dayan, Aqil olan son sözünü qabaqca deməz... Son anasan, anaların səbri çox olar. Birdən-biro köpüklonib yalnız sel daşar.**

**Bil ki, sobrin övladıdır hər böyük qorar. Ədalətli qanunların hökmü çox yaşar. Yaxşı düşün ncyləyirsən? Yüz ölçüb bir biç. Sorğu-sual eyləməmiş məhkomə qurma.**

**Uşağının xatirinə günahından keç, Oz əlinlə öz evini yıxıb uçurma. Bir də, o da bir insandır, bəlkə düzəldi, Bəlkə yeno doğruluğun yoluna goldi.**

Münaqişə dairəsini genişləndirməmək məsləhətdir. Ər-arvad «dərdini» dost və tanışlarına, rəfiqələrinə, qohumlarına mümkün qədər danışmamalıdır. Ancaq zəruri hallarda məsləhət üçün onlara müraciət etmok olar. Bəzi qadınlar və kişilər evin bütün söz-söhbətini miixtolif ünvanlara aparır, öz həyat yoldaşını və ya qayınanasını olo salır, onlar haqqinda pis sözlor danışırlar. Atalar dcyiblər ki, yoldaşını göstor, deyim son kimsən? Bu sözlərdə böyük hikmət gizlənmişdir. Başqalarının yanında öz qadınmı -uşaqlann anasını pisləyən ər əslində özünün kimliyini göstərir. Eləcə də qadın.

Ər-arvadın mübahisəsini, dava-dalaşını özünəməxsus döyüşə bənzodən sosioloqlar düzgün olaraq qeyd edirlor ki, bu döyüşdə qalib yoxdur, ola da bilmoz, ancaq məğlub olan vardir. Onlar dalaşa-dalaşa qohumların, qonşuların yanında, on başlıcası uşaqların yanında hörmətdən düşürlər. Bu o demokdir ki, mənəvi cohotdon or do, arvad da moglub olur.

Atalar ər-arvadın dalaşını yaz yağışına bənzədiblər. Onlar cox vaxt onsuz da ya özləri, ya da qohum-qonşuların, xiisusilə uşaqlann

569 vasitəsilə barışırlar, Lakin barışmaq itirilmiş şeyləri hələ geri qaytarmaq deyildir. Axı ömür-gün yoldaşını ürəkdən sevən ər, arvad tokcə özünün mənəvi ağnlarından əzab çəkmir, həm də sevdiyi qadının ve ya ərinin iztirabları ilə yaşayır. Deməli, onu yaralamaqla, həm də özünü yaralayır. Arvad üçün də, kişi üçün də ən başlıca, ən qiymətli sərvəti-məhəbbəti məhv edir. Adi məsələ üstündə belə bir «qurban» bahasına başa gəlon dava-dalaş mənasız deyilmi? Adi narazılığı, incikliyi məhəbbətə xəyanətdən, vəfasızlıqdan qəti ayırmaq lazımdır.

Ailədə gümrahlıq, optimizm, mehribanlıq vo dostluq ruhu hökm sürməlidir. O, ana və ataya, uşaqlara sevinc və forəh bəxş etməlidir. Ata, ana hiss etməlidir ki, həyat yoldaşına və uşaqlarına gərəklidir, onun özü isə ailəsiz yaşaya bilməz. Onu ailosi sevir, o da ailəsini sevir, onsuz hoyat yoldaşının və uşaqların həyatı dolğun ola bilməz. Onun şoxsi həyatının mənasını məhz həyat yoldaşı və uşaqlar toşkil edir. Yalnız xoşboxt adam bu hisslərlə yaşayır.

«Ailə insana nə üçün lazımdır?» - sualının mənası qəribə də görünsə, bizə aydındır. Ailə xoşbəxt olmaq və xoşbəxt uşaqlar torbiyo etmok üçündür.

Ailəsiz xoşbəxtlik yoxdur, ola da bilməz. Statistika çox maraqlı bir qanunauyğunluq müəyyən etmişdir. Evli kişilər və qadınlar subaylara nisbətən daha çox yaşayır, az xəstələnirlər. Məsələn, 35-44 yaşlannda evli kişilərə nisbətən subaylar arasında ölənlərin miqdarı 2,5, dul kişilor arasında 3,2, boşanmış kişilər arasında 2,8 dofo çoxdur. Həmin yaş dövründə evli qadınlara nisbətən subay qadınlar içərisində ölənlərin miqdarı təxminən 2, dul qadınlar içərisində 1,8 dəfə, boşanmış qadınlar içərisində 1,9 dəfə çoxdur. Evli kişi və qadınlara nisbəton subay və boşanmış adamlar arasında da xəstəlik hallanna daha çox təsadüf olunur. Bu, şübhəsiz, müxtəlif səbəblərlə bağlıdır. Lakin həmin səbəblərdən danışarkon ailənin sağlam psixoloji iqliminin əhəmiyyətini xüsusi olaraq qeyd etmok lazımdır.

Bioloqlar, təbiblər, sosioloqlar vo etnoqraflar Abxaziyada uzunömürlü kişi vo qadınları kompleks şokildə öyrənmişlər. Çox vaxt uzunömürlülüyü qidalanmanın xüsusiyyətləri ilə bağlayırlar. Bu, əlbəttə ki, mühüm amildir. Abxaz atalar sözündo deyilir: «Çox yaşamaq istəyirsənsə, daha çox qatıq iç». Lakin kompleks tədqiqat zamanı alimlərin diqqətini abxazların adət və ənonolori daha çox colb etdi. Abxazlarda qocalara böyük hörmət bəsləyirlər. Onlar həmişə qayğı ilə əhatə olunurlar. Uşaqları heç vaxt cəzalan-

570 dırmırlar vo danlamırlar, onları ancaq torifləyirlor. Əgər yaşlılar uşağı tərifləmirlərsə, onlar bunu ən ağır tənbeh kimi başa düşürlər.

Alimlərin fıkrincə, Abxaziyada uzunömürlü adamların çox olmasının başlıca səbəbi həmin adət vo onənələrlə bağlıdır. Bu faktlar ailo hoyatinda xoş ovqatlı psixoloji iqlimin no qədər əhəmiyyət daşıdığını göstərir.

Ailədə əlverişli psixoloji iqlim öz-özünə əməlo gəlmir. O, cəmiyyət qarşısında, ailəsi - həyat yoldaşı və uşaqları qarşısında məsuliyyət və borcunu düzgün başa düşən ağıllı, həssas ər və arvadın, ata və ananın gündəlik səyi ilə yaranır. Bu baxımdan onlar öz ailə dramının nəinki müəllifləri, hom də aktyorlarıdır. Ər vo arvad, ata vo ana özlərinin müdrik və nəcib insan olduqlarını bu ailə rolları vasitəsilə göstərməlidirlər.

## **4.** Ailədaxili ünsiyyət

Insan hoyatının çox mühüm hissəsi ailədə - həyat yoldaşı, uşaqlar və qohumlarla ünsiyyətdə keçir. Ailənin çoxcəhətli vəzifələri do ailə üzvlərinin ünsiyyəti formasında həyata keçirilir.

Ailədə ünsiyyətin müxxəlif istiqamətləri fərqləndirilir. Ailo məişəti və ailə üzvlərinin normal hoyat foaliyyoti ilə bağlı olan bütün məsələlər ərin arvadla, ananın uşaqlarla, bacının qardaşla, nononin nəvələri ilə ünsiyyəti şəraitində həll olunur. Eyni zamanda, ailo üzvlori bir yerdə istirahət edir, əylənirlər və s.

Ər-arvad münasibətlori kişi ilo qadının psixologiyasını dəyişir. Onlar ülfət bağladıqları andan özlorinin heç kimə yox, yalnız bir-birlərinə monsub olduqlannı, namus, vicdan, sədaqət, hörmət və qarşılıqlı kömək əsasında birləşdiklərini qəbul edirlor.

Biz bu kövrək, nəcib və ülvi hisslərin təravətini, təzəliyini uzun illərin aynlığında belə qoruyub saxlamış, bir-birini hər dəfə görəndə az qala sevincdən gözləri yaşaran or-arvadlara az rast gəlmomişik. Onlann ünsiyyət tərzinə fikir verək: bir-birlərinə qayğı və xeyirxahlıqla yanaşır, ən çətin anlarda özlorini nəzakotlo saxlaya bilir, söz və hərəkətlərində diqqətli olurlar.

Ailo problemləri: uşaq qayğısı, zəruri məişət məsələləri, ər və arvadın əmok foaliyyotində meydana çıxan çətinliklər, qonşulara münasibət, ictimai-mədəni hadisələr, habelə şəxsi həyatla bağlı məsələlər - bunlar ər-arvad ünsiyyətinin əsas məzmununu təşkil

571 edir. Burada əг-arvadın şəxsi həyatı ilə bağlı məsələlərin əhəmiyyətini ayrıca göstərməliyik.

«İntim» sözünü dar mənada, təkcə cismani yaxmlıq mənasında başa düşmək səhv olardı. Ünsiyyət prosesində intim cəhət həm də onda ifadəsini tapır ki, ər və ya arvad hcç kimə demədiyi ürək sözünü, dərdini, ağnsını, sirrini öz həyat yoldaşına etibar edir. Onlar da məhz həmişə bu etimada layiq olmalıdırlar. Yalnız bu mənəvi yolla bir-birləri üçün yarandıqlarını, bir-birləri üçün yaşadıqlarını hisslərin dili ilə sübuta yetirirlər. Şəxsi həyatın intim məsələləri ər və arvaddan noinki yüksək mədəniyyət, habelə takt tələb edir.

Uşaqlarla ünsiyyət də mühümdür. Ana və ata, eləcə də nənə və baba, bacı və qardaşla ünsiyyətin psixoloji monası daha böyükdür. Uşağın bir şəxsiyyət kimi inkişafının özülü də bu söhbətlər vasitəsi ilo qoyulur.

Xalq şairi Rosul Rza «Pocziya zohmot və ilhamdın> adlı avtobioqrafık moqalosindo yazır: «Atam sağ olanda ailəmiz firavan dolanırdı. Məsələ yalnız maddi cohotdon tomin olunmaqda deyil. O zaman üçün çox nadir olan bir cəhət bu idi ki, atamız bizim bodii tərbiyə almağımızın qcydinə qalırdı. Evimizdə çox zaman söhbət odobiyyatdan gedirdi. Xüsusilə poeziyadan. Anam Moryomin şairlik tobi var idi. Onun bu vaxta qodor qalmış üç şerindən bunu görmok mümkündür. Anam oxumaq bilirdi, ancaq yazmaq bilmir-di. O, şcrlərini atama deyər, atam yazardı. Anamın şerlori qadınlan maarifə, mədəniyyətə çağırırdı. Anam Füzulini, Natəvanı vo Sabiri oxuyardı. Yadımdadır, axşam çağlan anam bizə - mono və dörd bacıma qəmli şerlor oxuyardı.

- Bunlar kimin şeridir? - deyə soruşardım. Nənoni/in u/aq qohumu vo həmyerlisi xan qızı Natəvanın.

Anam gözəl şairə vo ictimai xadim olan Natəvandan danışar, qürbətdə ölən Füzulinin qəmli talcyindən söz açardı. Anamın oxuduğu şerlərin çoxusu həmişəlik yadımda qaldı. Anamdan və nənəmdən eşitdiyim nağıllar və əfsanələr də yaddaşımın aynasın-dan silinmədi. İndi yaddaşımın səhifələrini vərəqlədikcə mən bir daha inanıram ki, mənim könlümə şcro olan mohobbotin ilk qığılcımlarını anam atmışdır. Anam məndo həm klassik poeziya xəzinəsinə, hom də xalq yaradıcılığına dorin hiss torbiyə etmişdir».

Övladın təbiotində, ürəyində gizlonən şer, sənot ilhamını, qabiliyyətini, ümumiyyətlə, yanğısını oyatmaq üçün validcyn (baba vo nəno, ata vo ana) söhbotləri, məşvərətləri böyük əhəmiy-

572 yət kəsb cdir. Ailo mühiti zorif, amma dumduru bulağın gözünü açır...

Uşaqlar ana və ata vasitəsilə tobiət və cəmiyyət hadisələri haqqinda tosovvürlərə və anlayışlara yiyələnir, başqa adamlan, özünü qiymətlondirmək mcyarlarını mənimsəyirlor.

Burada biz uşaqlann hom ata-ana, həm bacı-qardaşlan, hom də nənə-babaları ilə ünsiyyətinin rolunu xüsusi qeyd etməliyik.

Insamn həyatında ailodaxili ünsiyyətlo yanaşı, ailədənkənar iinsiyyət də mühüm yer tutur. Ailədənkənar ünsiyyətin formaları miixtolif olsa da, aşağıdakılar mühümdür:

1. Qohumlara və tanışlara qonaq gctmək.
2. Təklikdə (uşaqlarsız) gəzintiyə çıxmaq, dostlarla gəzmək, klublarda vo mədəniyyot evlərində, istirahot axşamlarında iştirak etmək.
3. Həyətda stolüstü oyunlar - nərd, şahmat, domino və s. oynamaq.

Bunlardan hor biri ailonin yaşlı üzvlorinin ünsiyyət tələbatının təmin olmasmda özünoməxsus rol oynayir. Uşaqların yaşı artdıqca ailədonkənar iinsiyyət onlann həyatında mühüm yer tutmağa başlayır.

Ailodaxili və ailədonkonar ünsiyyətin miioyyon formalannda or vo arvad, osasən, eyni dorocodo iştirak edirlor. Lakin bu sahədə çox mühüm fərqlər do nozərə çarpır.

Sosioloqlar müəyyən etmişlər ki, kişilər ən çox dostlan və tanışlan (57 faiz), qohumlan (47 faiz), iş yoldaşlan (30 faiz) ilə görüşürlər. Qonşularla (7 faiz) ünsiyyət onlann həyatında əsas yer tutmur. Qadınlarda iso əks meyl müşahido olunur, onlar kişiloro nisbətən qohumları (68 faiz) və qonşulan (43 faiz) ilo daha çox ünsiyyət saxlayır, iş yoldaşları (15 faiz), rəfiqələri və tanışlan (36 faiz) ilə

nisbotən az görüşürlər. Əlbəttə burada mikromühit vo etnik xüsusiyyotlər mühüm rol oynayir.

Istər kişinin, istərsə qadının təhsil-pcşo və mədəni səviyyəsin-dən asılı olaraq ünsiyyətin xarakterində ciddi forqlor özünü göstərir. Bu baxımdan miiasir gənclərin ünsiyyətinin mozmun və formasında yeni cəhətlər meydana çıxır. Onların ünsiyyət tələbatının tomin olunmasında intellcktual səviyyo, mənəvi vo cstetik amillər xüsusi ycr tutur.

Ünsiyyot insanin əsas tələbatlarından biridir. O, insanin psixi inkişafının başlıca şərtlərindən biri kimi böyük əhəmiyyətə malikdir, hom do insanin həyat vo foaliyyotinin mühüm bir saho

573 sini təşkil edir. Məhz ünsiyyət prosesində insanlar bir-birinə müxtəlif hadisələr haqqında məlumat vcrir, özlərinin iş və hərəkətlərini planlaşdırır, bir-birlərini qavrayır və anlayırlar, əməllərinə qiymət verir, birlikdə sevinir və kodərlənirlər.

İntim münasibətlərdo «gözlər» xüsusilə mühümdür. Bu cəhətdən paralinqvistik (sosin keyfiyyəti, onun diapazonu) vo ekstralinqvistik (pauza, ağlamaq, gülmək, öskürmək və s.) sistem də əhəmiyyətlidir.

**Unsiyyot** şəxsi məna çaları kəsb etdikdo nitqdo özünəməxsus cəhətlər meydana çıxır. Ərlə arvadın niqtində müoyyən sözlər elə çalarh məna kəsb edir ki, bunu bütün aydınlığı və **zəriiliyi ilə** yalnız **onlar** başa düşürlər.

**Unsiyyot** tələbatının tomin olunmasında söhbətlərin **əhomiy-**yəti böyükdür. Onlar, nccə deyərlər, üz-üzə, göz-gözə ünsiyyətin ən təsirli formasıdır. Kişilor və qadınlar bir-birləri, habelə dostları və rəfiqələri ilə nə haqda söhbət edirlər? Bu söhbətlər miixtolif **olur,** təbiət və cəmiyyət hadisələrinin ayrı-ayrı sahələrini ohatə edir. Möizusununa görə onları beş qrupa bölürlər:

1. Ailə işlori. 2. Dostlar və tanışlar. 3 İş sahəsi. 4. Siyasət problemləri. 5. Kinofılmlər, televizor verilişləri, oxunmuş kitab, məqalə və s. haqqında söhbətlər.

14 №-li cədvəldə bu sahədə apardmış bir sorğunun nəticələri verilmişdir.

Əlbətto, buradakı faktlar xeyli müddət bundan əvvolki dövrə aid olduğu üçün bugünümüzün mənzərəsini tam əks etdirmir. Lakin burada ümumi meyl öz

*Cədvəl* ***14***

| Yaş qruplan | Söhbətin məzmunu | | | | |
|---|---|---|---|---|---|
| | **Aılo məsələləri** | **Tanışlar vo dostlar** | **lş haqqında** | **Siyasot problcmləri** | **Modoniyyət məsələlori** |
| ***Qadınlar*** | **21** | **20** | **33** | **0** | **40** |
| **a) 30 yaşına qədor** | | | | | |
| **b) 30-39 yaş v) 40** | **82 83** | **7 8** | **7** | **0 6** | **4** |
| **yaşından böyük *Kişilər*** | **15 19** | **24 0 0** | **46** | **1** | **17** |
| **a) 30 yaşma qədər** | **22** | | **41 64** | **39 31** | **56 1 1 4** |
| **b) 30 - 39 yaş** | | | **56** | | |
| **v) 40 yaşından böyük** | | | | | |



əksini tapır.

Ən geniş yayılmış ailə məsələləri və işlə bağlı söhbətlərdir. Onlardan birincisi qadınlar, ikincisi isə kişilər üçün daha çox psixoloji mona kosb edir.

Qadınların söhbəti nə haqqındadır? Anarın «Beşmərtəboli evin altıncı mərtəbəsi» əsərini vəroqləyək: «Zaurun atası çoxdan yuxulamışdı, amma anası həlo oyaq idi. Qonşu Sitarəylə birlikdə mətbəxdə əlləşirdi, sabahkı qonaqlığın hazırlığını görürdülor. Mətbəxdən şirni və ədviyyat qoxusu gəlirdi - paxlava, şəkərbura, şəkorçörəyi... Cürbəcür piroqlar, pirojnalar, tortlar hazırlamaq sandan Zivər xanımın tayı-bərabəri yox idi. Amma sabahkı gün öz adi məharətini do vurub keçmolidi, axı onun məclisinə Alya kimi tələbkar bir hakim qiymət verəcəkdi. Mətbəxdən anasıyla Sitarənin yavaş səsləri gəlirdi, professorun vo Zaurun yuxusuna mane olmamaqçün qadınlar xısın-xısın danışırdılar. Zaur onlann hər kəlməsini dəqiq eşitməso də, söhbətlərinin məzmunundan agah idi: qadınlar xəmirin yaxşı qalxmasından, layların nazik yayılmasından, qoz-fındığın narın əzilib şəkərlə qarışdırılma-sından, paxlavaya vurulacaq ədviyyatın miqdarından danışırdılar. Sabahkı məclisdon, qonaqlardan danışırdılar - kim paxlavanı, şəkərburanı daha çox sevir, kimin hansı tortdan, hansı piroqdan, hansı pirojnadan daha çox xoşu gəlir, hansı kişi şirniyyatın dəlisidir, hansı qadına heç bir şey bəyəndinnək olmur, halbuki keçən səfər öz evlərində aşının qazmağı yanıb kösöy olmuşdu... Olanda olur da, ay Zivər bacı, işdi, düşməknəndi də. Orası da elədir e, ay Sitarə, doğrudan böyük məclis yola salmaq zor işdir, adamın lap kələyi kosilir, əldən düşürsən, amma bir yana baxanda bircə balavın məclisində də qoluvu çınnalayıb zəhmət çəkməsən, bəs, no vaxt çokocəksok... Əlbottə, ay Zivər bacı, maşallah, Allah saxlasın, belə oğul böyütmüsən, indi gərək hər əziyyətinə də dözəsən. Bəs пeco, ay Sitarə, onun boyuna qurban olum, qızıldır onun xasiyyoti, ipək kimi yumşaqdır, ürəyi do elə təmizdir, elə tomizdir, sanasan şüşodir, odur ki, xətərliyəm do, ay Sitarə, bu cür ki, təmiz uşaqdır, ürəyi şüşə kimi safdır, hər şeyə, hər sözə, hamıya inanır, elə qorxuram ki, kcçsin bir afətin cənginə, sap kimi dolasın barmağına balamı. Eh, ay Zivor bacı, ağzıvı xcyirliyo aç, dünya bəgəm dərobəylik-zaddır, nə danışırsan. Zaur elo aciz-avara deyil, demə, maşallah ağıllı-morifətli oğlandır, hər şeyin yerin biləndir, ürəyinə-zada salma, son Allah, vaxsey, vaxsey, piroq yandı, başımız söhbətə qarışdı...»

Oxuduğumuz epizod zahirən sizə dərin məntiqi təsir etməyə

575 bilər, çünki adi mətbəxin qoxusuna bələnon, haradasa övlada məhəbbət hissləri duyulan söhbətdir. Lakin burada incə, qadın psixologiyasına xas deyimlor güclüdür. Həm övlad sarıdan nigarançılıq var, həm də adi məişət məsələlərindən. Bəli, ailə ilə bağlı mövzular qadınlann söhbətlərində xüsusi yer tutur. Onların əksəriyyəti öz rəfiqələri ilə söhbətlərdə siyasətlə bağlı məsələlərə bir o qədər də ohəmiyyət vcrmirlər. Gənc (30 yaşına qədər) kişi və qadınların söhbətlərində isə işlə yanaşı, mədəniyyət yenilikləri, eləco də tanışlar və dostlar haqqinda söhbətlor daha çox yer tutur.

Sosioloji tədqiqatlar göstərir ki, dostlar və tanışlarla söh-bətlərin xarakteri yaşdan, təhsil səviyyəsindən asılı olaraq dəyişir. Təhsil səviyyəsi artdıqca kişilər və qadınlar siyasot problemləri haqqinda daha çox düşünür, iıkir mübadiləsi aparır, bcloliklo, ailo və iş mövzusundakı söhbətlər nisbətən azalır, öz növbəsində, mədoniyyət ycniliklıəri haqqındakı söhbətlərin rolu şaxələnir.

Ailədənkənar ünsiyyətin xarakteri, formaları vo əsas istiqamotləri heç də şəxsi mosolə deyildir. Sosioloqlar düzgün olaraq qeyd edirlor ki, insanlann gündəlik məişət münasibətlərinin bu sahosi cəmiyyətin sosial, siyasi, mədəni-ideoloji inkişafının miixtolif aspektləri üçün böyük ohəmiyyoto malikdir. Onlar mahiyyət etibarilo daha çox şəxsi xarakter daşıyır vo onlann psixoloji monasi da bundan ibarotdir. Özünün bu xüsusiyyətinə görə ailodonkonar iinsiyyot adamlara daha çox tosir göstərir, onlann hoyat, insan, ailo, maddi vo mənəvi sorvotlor vo s. haqqinda tosəvvürlərinin fonnalaşmasında mühüm rol oynayir.

